# AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

2017
№ 4

Baş redaktor:
**R.Y.Rzayev**

Baş redaktorun müavini:
**Ş.Y.Yusifov**

Redaksiya heyəti:
**H.A.Mirzəyev**
**Z.M.Quliyev**
**Ə.M.Rüstəmov**
**V.Ə.İbayev**
**H.Q.Nəsibov**
**Ə.A.Kərimov**

Məsul katib:
**A.M.Məmmədli**

**Redaksiyanın ünvanı:**

Az 1025, Bakı şəhəri,
Xətai rayonu,
Yusif Səfərov küç.26
1193-cü məhəllə
Tel: 493-18-37
Faks: 493-18-37

**www.supremecourt.gov.az**

## MÜNDƏRİCAT

Ulu öndərin xatirəsi Ali Məhkəmədə yad edilmişdir....................................................2

*PLENUM*

Ali Məhkəmənin Plenumu..................................................................................................3

Ali Məhkəmədə müşavirə keçirilmişdir.............................................................................4

*MÜLKİ VƏ İNZİBATİ-İQTİSADİ İŞLƏR ÜZRƏ MƏHKƏMƏ TƏCRÜBƏSİNDƏN*

İddia bir neçə cavabdehə qarşı verildikdə iddia ərizəsində cavabdehlərin hər birinə qarşı yönələn tələbini göstərmək iddiaçının prosessual vəzifəsidir.........................................................................................................6

Mənzildən istifadə hüququnun itirilmiş hesab edilməsi ilə bağlı iddia tələbi üzrə prosessual hüquq varisliyinə yol verilmədiyindən işə apellyasiya qaydasında baxılması qeyri-mümkün hesab edilmişdir.......................................................................8

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 354.2-ci maddəsinin mənasına görə, maraqlı şəxs əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində həmin əqdin etibarsızlığını mübahisə etmək hüququna malikdir və bu müddət keçdikdən sonra şəxs qeyd edilən hüququnu itirir.................12

*CİNAYƏT İŞLƏRİ ÜZRƏ MƏHKƏMƏ TƏCRÜBƏSİNDƏN*

Şəxsin əməlində cinayət hadisəsinin müəyyən edilməməsi ilə bağlı cinayət işinin başlanmasının rədd edilməsi haqqında təhqiqatçının ləğv edilməmiş qərarı olduğu halda təqsirləndirilən şəxsə həmin əmələ görə də ittihamın elan olunması və zərər çəkmiş şəxs məhkəmə iclasdarında dindirilmədiyindən təqsirləndirilən şəxslərin ədalətli məhkəmə araşdırması hüququnun pozulması apellyasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsinə əsas olmuşdur..........................................22

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin IV hissəsi nəqliyyat vasitəsini idarə edən şəxsin yol nəqliyyat hadisəsi yerində qalmaq vəzifəsini, onun baş vermiş hadisədə özünü təqsirli saymasından deyil, yol nəqliyyat hadisəsinin iştirakçısı olmasını bilib dərk etməsindən asılı edir.................25

Cinayət məsuliyyətinə cəlb edilməsinə imkan verən yaşa çatmamış şəxsin barəsində intizam təsir tədbiri tətbiq edilərkən qanunvericilikdə nəzərdə tutulmuş tələblərə əməl edilmədiyindən və apellyasiya şikayətinə ilkin baxış və məhkəmə baxışı iclasında ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına yol verildiyindən apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilmişdir.......................................................................................................31

Talama cinayətlərini xarakterizə edən ümumi əlamətlərdən və CM-nin 178.1-ci maddəsinin dispoziyasından irəli gələn mənaya görə, dələduzluğun törədilməsi zamanı təqsirkarın zərəçəkmiş şəxsin mövcud olan əmlakını ələ keçirməsi (mövcud əmlak kütləsindən hansısa hissəsini ayırıb özünün və yaxud üçüncü şəxsin nəfinə keçirməsi) tələb olunduğundan belə zərərçəkmiş şəxsin maddi zərər görməsi onun gözlənilən artımı, qazancı almamasında deyil, mövcud olan əmlak kütləsinin ələ keçirilmiş əmlak hesabına azalmasında (malik olduğu əmlakdan məhrum edilməsində) ifadə olunmalıdır..............................36

Məhkəmələr araşdırılmış sübutları qanuna müvafiq qaydada qiymətləndirərək və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinə, habelə formalaşmış məhkəmə təcrübəsinə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-cü maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "könüllü azad etmə" ifadəsini düzgün təfsir etdiklərindən və təqsirləndirilən şəxslərin qrup şəklində xuliqanlıq cinayətini törətmələri barədə əsaslı nəticəyə gəldiklərindən apellyasiya instansiyası məhkəməsinin qərarından verilmiş kassasiya protesti və kassasiya şikayətləri təmin edilməmişdir...............................43

Cinayətin qabaqcadan əlbir olmuş bir qrup şəxs tərəfindən törədilməsi ilə bağlı ibtidai araşdırma orqanının və birinci instansiya məhkəməsinin gəldikləri nəticə ilə razılaşan apellyasiya instansiyası məhkəməsi bunun ziddinə olaraq cinayətin məhz qrup şəklində törədilməsini inkar edən, lakin araşdırılmış sübutlarla təkzib olunan hallara istinad edərək təqsirləndirilən şəxslərə təyin olunmuş cəzaları əsassız olaraq yüngülləşdirmişdir.........................................48

*MÜSAHİBƏ*

Ali Məhkəmənin hakimi Əsəd Mirzəliyevin Xalq Qəzetinə müsahibəsi......................57

*MƏQALƏLƏR*

**Müzəffər Ağazadə:** Replika Şərti məhkum etmə zamanı sınaq müddəti hansı vaxtdan başlanmalıdır?.......................................................................................62

**Vəfaddin İbayev:** Çində on beş gün...........................................................................65

*BEYNƏLXALQ ƏLAQƏLƏR*

Dünya Bankının yeni rəhbərliyi Ali Məhkəmənin sədri ilə görüşmüşdür.....................80

# Ulu öndərin xatirəsi Ali Məhkəmədə yad edilmişdir.

2017-ci il dekabrın 11-də Ali Məhkəmədə Ulu öndər Heydər Əliyevin Xatirə gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Ali Məhkəmənin sədri Ramiz Rzayev tarixə yenilməz şəxsiyyət, nadir istedada malik dövlət xadimi və dahi siyasətçi kimi daxil olmuş Ulu öndər Heydər Əliyevin ömür yolundan danışmış, Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən artıq bir dövrünün bu böyük şəxsiyyətin adı ilə bağlı olduğunu nəzərə çatdırmışdır.

Ali Məhkəmənin sədri bildirmişdir ki, Heydər Əliyev Azərbaycan tarixində fenomen şəxsiyyət olaraq Sovet İttifaqı kimi dövlətin siyasi rəhbərliyində təmsil olunmuş, dünyanın tanınmış dövlət və siyasi xadimləri sırasında ən görkəmli və böyük təsirə malik lider olduğunu əməli fəaliyyəti ilə göstərmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycan tarixinə müstəqilliyimizin memarı, dövlətçiliyimizin xilaskarı kimi düşmüşdür. Ulu öndər Azərbaycançılıq ideyasının müasir dövrümüzdə yaradıcısı olmuş, Vətənin müstəqilliyi, inkişafı, xalqın milli-mənəvi tərəqqisi üçün möhtəşəm işlər həyata keçirmişdir. Bu gün Azərbaycanın neft strategiyasında qazandığı uğurların əsasını Ulu öndər Heydər Əliyev qoymuşdur. Ölkəmizdə iqtisadiyyatın, elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, idmanın inkişafının təməli onun adı ilə bağlıdır. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti Azərbaycançılıq məktəbidir. Hər yeni gələn nəsil bu böyük məktəbdən Vətənin, xalqın inkişafı naminə faydalanır və daim faydalanacaqdır.

Ali Məhkəmənin sədri ulu öndər Heydər Əliyevin amallarının xalqın gündəlik fəaliyyətində və düşüncəsində yaşadığını bildirərək bu amalların xalqımızı tərəqqi zirvəsinə doğru inamla aparan, Ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirildiyini vurğulamışdır.

Tədbirdə çıxış edənlər müstəqil dövlətimizin banisi və qurucusu ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini söyləmiş, onun Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsindəki misilsiz xidmətlərini qeyd etmiş, irsinin daim yaşayacağını bildirmişlər.



# Ali Məhkəmənin Plenumu

20 dekabr 2017-ci ildə Ramiz Rzayevin sədrliyi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin növbəti Plenumu olmuşdur. Plenumda konkret işlərə baxılmışdır.



# Ali Məhkəmədə müşavirə keçirilmişdir.

23 dekabr 2017-ci il tarixdə Azərbaycan Respublikasının Ali Məhkəməsində respublikanın apellyasiya və birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin iştirakı ilə müşavirə keçirilmişdir. Müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2017-ci il tarixdə imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamın 14-cü bəndinin icrasnı təmin etmək məqsədi ilə 2017-ci ilin birinci yarımilliyi ərzində birinci və apellyasiya instansiyası məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinə dair Ali Məhkəmə tərəfindən aparılmış ümumiləşdirmənin nəticələri müzakirə edilmişdir.

Tədbiri giriş sözü ilə açan Ali Məhkəmənin sədri Ramiz Rzayev qeyd etmişdir ki, azadlıq hüququnun təmin olunmasına daim önəm verən ölkə başçısı 10 fevral 2017-ci il tarixli Sərəncamında məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunmasını, cəzanın və qətimkan tədbirinin məqsədlərinə cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsini, cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət edilməsini, həbs qətimkan tədbiri seçilərkən şəxsin ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və həmin qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğunun araşdırılmasını, bununla bağlı təqdimatlara baxılarkən digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlillərin yoxlanılmasını məhkəmələrə tövsiyə etmişdir. Ali Məhkəmənin sədri daha sonra vurğulamışdır ki, Ali Məhkəmə öz fəaliyyətində birinci və apellyasiya instansiyası məhkəmələri tərəfindən həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlama müddətlərinin uzadılması, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi məsələlərinə baxılmasını daim diqqət mərkəzində saxlamış, 2007-ci ildən başlayaraq bununla bağlı dəfələrlə məhkəmə təcrübəsi ümumiləşdirilmiş, respublika məhkəmələrinin bütün hakimlərinin cəlb edildiyi silsilə tədbirlər keçirilmiş və aparılmış ümumiləşdirmələrdən birinin nəticələri 3 noyabr 2009-cu il tarixdə Ali Məhkəmənin Plenumunda geniş müzakirə edilərək Konstitusiyanın 28-ci maddəsinin, "İnsan Hüquqlarının və Əsas Azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 5-ci maddəsinin, cinayət-prosessual qanunvericiiyinin tələbləri və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ nəzərə alınmaqla mükəmməl Qərar qəbul edilmişdir. Növbəti ümumiləşdirmənin nəticələrinə görə, məhkəmələrin bu sahədəki fəaliyyətində əhəmiyyətli dəyişikliklər baş versə də, bir sıra hallarda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorların təqdimatlarına baxan hakimlər müəyyən nöqsanlara da yol vermişlər.

Sonra Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifov Ali Məhkəmə tərəfindən aparılmış ümumiləşdirmənin nəticələri barədə geniş məruzə etmişdir. O, qeyd etmişdir ki, 2017-ci ilin birinci yarısı ərzində 2016-cı ilin həmin dövrü ilə müqayisədə həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması haqqında məhkəmələrə 20,73% az təqdimat daxil olmuşdur. Bunlardan həbsin seçilməsi haqqında 88,13% təqdimat, həbsdə saxlama müddətinin uzadılması haqqında isə 94,32 % təqdimat təmin edilmiş, 2016-cı ilin birinci yarımilliyi ilə müqayisədə təmin olunmuş təqdimatların sayında müvafiq olaraq 5,27% və 2,61% azalma müşahidə edilmişdir.

Məruzəçi bildirmişdir ki, əvvəlki illərdən fərqli olaraq, ümumiləşdirmənin əhatə etdiyi dövrdə məhkəmələr təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması ilə bağlı təqdimatlara baxılmasına daha ciddi yanaşmış, məhkəmə qərarlarında həbs etmə və həbsdə saxlama müddətlərinin uzadılması barədə Azərbaycan Respublikası Konstiusiyasının 28-ci maddəsinin, beynəlxalq müqavilələrin, maddi və prosessual

qanunvericiliyin tələblərinə, Azərbaycan Respublikası Prezidentinin yuxarıda qeyd edilən 10 fevral 2017-ci il tarixli Sərəncamında və "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmənin Plenumunun 03 noyabr 2009-cu il tarixli Qərarında göstərilən tövsiyələrə əksər hallarda əməl edilmişdir.

Bununla yanaşı ümumiləşdirmənin nəticələri göstərmişdir ki, bəzi hallarda hakimlər tərəfindən qeyd edilən məsələlər üzrə təqdimatlara baxılarkən müəyyən nöqsanlara da yol verilmişdir. Aşkar edilmiş nöqsanlar konkret misallar göstərilməklə müşavirə iştirakçılarının diqqətinə çatdırılmışdır.

Müşavirədə çıxış edən apellyasiya və birinci instansiya məhkəmələrinin sədrləri və hakimləri ümumiləşdirmənin nəticələrinin əhəmiyyətindən danışaraq təqsirləndirilən şəxslərin azadlıq hüququnun təmin edilməsi ilə bağlı məhkəmələrin fəaliyyətində bundan sonra da müsbət dəyişikliklərin olmasının vacibliyini vurğulamışlar.

Tədbirdə həmçinin ölkə başçısının 10 fevral 2017-ci il tarixli Sərəncamının icrası ilə bağlı məhkəmələrə etdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində lazımi tədbirlərin daim həyata keçirləcəyi qeyd olunmuş, aparılmış ümumiləşdirmənin nəticələri barədə isə məhkəmələrə icmal məktubun göndərilməsi qərara alınmışdır.

*MÜLKİ VƏ İNZİBATİ-İQTİSADİ İŞLƏR ÜZRƏ MƏHKƏMƏ TƏCRÜBƏSİNDƏN*

# İddia bir neçə cavabdehə qarşı verildikdə iddia ərizəsində cavabdehlərin hər birinə qarşı yönələn tələbini göstərmək iddiaçının prosessual vəzifəsidir.

İddiaçı Cəfərov Xanlar Məhəmməd oğlu cavabdehlər Babayev Elxan Nuhu oğlu və Mehyəddinov Xaqani Nurəddin oğluna qarşı aktların etibarsız hesab edilməsi tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Babayev Elxan Nuhu oğlu ilə onun arasında imzalanmış 09.02.2015-ci il tarixdə Hökməli qəsəbəsində ərazisi 0.05 ha-dan ibarət olan, içərisində daş (aqlay) sexinin alqı-satqısına 341.800 manat, elə həmin tarixdə "Şahqaya" adlanan ərazidə yerləşən daş karxanasına və həmin karxanada olan daş istehsalı sexinə 97.342 manat və yenə həmin tarixdə Bakı şəhəri, 9-cu mikrorayon. A.Məmmədov küçəsi 10 ünvanında "Yayla" MTK-ya məxsus 19 mərtəbəli yaşayış binasının tikintisinə 885.528 manat sərmayə qoyulması ilə bağlı tərtib edilmiş aktların tərtib olunduqları andan etibarsız hesab olunmalarına dair qətnamə çıxarılmasını xahiş etmişdir.

Cavabdeh Elxan Babayevin nümayəndəsi işin məhkəmə aidiyyətinin dəyişdirilməsi haqqında vəsatətlə məhkəməyə müraciət edərək göstərmişdir ki, iddia ərizəsinin giriş hissəsində cavabdeh qismində iki şəxs-Babayev Elxan Nuhu oğlu və Mehyəddinov Xaqani Nurəddin oğlu göstərilmişdir. Babayev Elxan Nuhu oğlu Bakı şəhəri, Nəsimi rayonu, M.A.Əliyev küçəsi, dalan 8,ev 2, Mehyəddinov Xaqani Nurəddin oğlu isə Bakı şəhəri, Binəqədi rayonu, M.Cəlal küçəsi, ev 137, mənzil 34 ünvanında qeydiyyatdadırlar. İddia ərizəsinin "xahiş etdi" hissəsində tələb cavabdehlərdən yalnız Elxan Babayevə qarşı yönəlmiş, cavabdeh Xaqani Mehyəddinova qarşı isə hər hansı bir tələb irəli sürülməmişdir. Ona görə ki, iddiaçının etibarsız hesab edilməsini tələb etdiyi aktların tərtib edilməsindən Xaqani Mehyəddinovun xəbəri, eləcə də iştirakı olmamışdır. Beləliklə, hazırkı iddia aidiyyət qaydalarının kobud formada pozulması ilə icraata qəbul edildiyinə görə mülki işin aidiyyəti üzrə baxılması üçün Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinə göndərilməsi barədə qərardad çıxarılmalıdır.

Birinci instansiya məhkəməsinin iclasında iştirak etmiş iddiaçının nümayəndəsi İsmayılov Mübariz İslam oğlu və cavabdeh Mehyəddinov Xaqani Nurəddin oğlu məhkəmə aidiyyətinin dəyişdirilməsi barədə cavabdehin nümayəndəsinin vəsatətinin hüquqi əsası olmadığını qeyd edərək, iddia tələbinə aidiyyəti üzrə Binəqədi Rayon Məhkəməsində baxılmasını xahiş etmişlər.

Binəqədi rayon məhkəməsinin 17 aprel 2017-ci il tarixli qərardadı ilə iddiaçı Cəfərov Xanlar Məhəmməd oğlunun cavabdehlər Babayev Elxan Nuhu oğluna və Mehyəddinov Xaqani Nurəddin oğluna qarşı "aktların etibarsız hesab edilməsi" tələbinə dair mülki işin baxılması üçün məhkəmə aidiyyətinin dəyişdirilməsi barədə cavabdeh Elxan Babayevin vəsatəti rədd edilmişdir.

İş üzrə cavabdeh Elxan Babayevin nümayəndəsi Ələkbərov Maşallah Əli oğlu məhkəmənin sözügedən qərardaddan şikayət verərək həmin qərardadın ləğv edilərək vəsatətin təmin edilməsini xahiş etmişdir.

Bakı şəhəri Binəqədi rayon məhkəməsinin 26 aprel 2017-ci il tarixli qərardadı ilə şikayət təmin edilməmiş, mülki iş şikayətə baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə göndərilmişdir.

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 17 may 2017-ci il tarixli qərardadı ilə cavabdehlər Babayev Elxan Nuhu oğlunun şikayəti təmin edilməmiş, Bakı şəhəri, Binəqədi Rayon Məhkəməsinin 17 aprel 2017 il tarixli qərardadı dəyişdirilmədən saxlanılmışdır.

Cavabdeh Babayev Elxan Nuhu oğlu kassasiya şikayətində apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv edilərək mülki işin aidiyyəti üzrə baxılması üçün Bakı şəhər Nəsimi rayon Məhkəməsinə göndərilməsi barədə qərar çıxarılmasını xahiş etmişdir.

Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsinin qərardadı Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 31.1, 35.1-ci maddələrinin tələblərinin pozulması ilə çıxarılmış, qeyd olunan ərizənin əsassız olaraq təmin edilməməsi nəzərə alınmamış, nəticədə əsassız və qanunsuz qərardad qəbul edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası qəbul etdiyi qərardadı Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 31.1, 32.4, 35.1, 45.1-ci maddələrinə istinad etməklə onunla əsaslandırmışdır ki, cavabdehlərdən Babayev Elxan Nuhu oğlu Bakı şəhəri Nəsimi rayonunda qeydiyyatda olmasına baxmayaraq, digər cavabdeh Mehyəddinov Xəqani Nurəddin oğlu Bakı şəhəri Binəqədi rayonunun inzibati ərazisində qeydiyyatdadır.

Hazırki mülki işdə iddiaçı Cəfərov Xaqani Məhəmməd oğlu mülki qanunvericiliyin tələblərinə riayət etməklə aidiyyəti üzrə məhkəməyə müraciət etmişdir.

Aşağıda qeyd olunan əsaslara görə kassasiya məhkəməsi apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmayaraq, qərardadı ləğv etmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin:

-50.3-cü maddəsinə əsasən iddia tələbinin yönəldiyi fiziki və hüquqi şəxslər cavabdeh hesab olunurlar.

-149.2, 149.2.3-cü maddələrinin tələbinə əsasən iddia ərizəsində iddiaçının və ya ərizəçinin tələbi, onların öz tələblərini əsaslandırdığı hallar, iddia bir neçə cavabdehə qarşı verildikdə isə onların hər birinə qarşı yönələn tələb göstərilməlidir.

-151.1-ci maddəsinə əsasən iddia ərizəsi bu Məcəllənin tələblərinə riayət edilməklə verildikdə, onun məhkəmə icraatı mümkündür.

-152.1, 152.1.1-ci maddələrinin tələbinə görə iddia ərizəsi bu Məcəllənin 149-cu maddəsində müəyyən olunmuş formasına və məzmununa riaəyət edilməməklə verildikdə hakim idida ərizəsini və ona əlavə edilmiş sənədləri geri qaytarır.

-152.4-cü maddəsinə əsasən iddia ərizəsinin qaytarılması nöqsanlar aradan qaldırıldıqdan sonra ümumi qaydada ikinci dəfə məhkəməyə müraciət etməyə mane olmur.

-151.3-cü maddəsinə görə iddia ərizəsi, əgər onun daxil olmasından 2 həftə müddətində məhkəmə qaytarmayıbsa və ya onu qəbul etməkdən imtina etməyibsə, qəbul edilmiş sayılır.

-259.0, 259.0.12-ci maddələrinin tələbinə əsasən ərizə bu Məcəllənin 149-cu maddəsində nəzərdə tutulmuş tələblər göstərilmədən, eləcə də bu Məcəllənin 150.0.1—150.0.3-cü maddələrində göstərilən sənədlər əlavə edilmədən verildikdə, iddiaçı hakim tərəfindən müəyyən edilmiş müddətdə işin mahiyyəti üzrə baxılmasına və həll edilməsinə maneçilik törədən həmin nöqsanları aradan qaldırmadıqda məhkəmə ərizəni baxılmamış saxlayır.

-32.4-cü maddəsinə görə aidiyyət haqqında məsələ qalxdıqda, hakim işin aidiyyəti üzrə göndərilməsi və ya aidiyyət haqqında ərizənin rədd edilməsi barədə əsaslandırılmış qərardad çıxarır.

-36.2-ci maddəsinə əsasən rəsmi yaşayış yeri, olduğu yer və ya hüquqi ünvanı müxtəlif olan bir neçə cavabdehə iddia cavabdehlərdən birinin rəsmi yaşayış yeri və ya hüquqi ünvanı üzrə verilə bilər.

-40.1-ci maddəsinin tələbinə əsasən ərazi aidiyyətı qaydalarının pozulmasına yol verilmir.

-45.1-ci maddəsinin görə mübahisənin məhkəməyə aidiyyətı ilə əlaqədar məsələlər ərizənin məhkəmənin icraatına qəbul edilməsi və ya işin hakim tərəfindən baxılmağa hazırlanması mərhələsində, yaxud da işdə iştirak edən şəxsin əsaslandırılmış vəsatəti üzrə həll oluna bilər.

İddia ərizəsindən görünür ki, iddiaçı Cəfərov Xanlar Məhəmməd oğlu cavabdehlər Babayev Elxan Nuhu oğlu və Mehyəddinov Xaqani Nurəddin oğluna qarşı aktların etibarsız hesab edilməsi tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Babayev Elxan Nuhu oğlu ilə onun arasında imzalanmış 09.02.2015-ci il tarixdə Hökməli qəsəbəsində ərazisi 0.05 ha-dan ibarət olan, içərisində daş (aqlay) sexinin alqı-satqısına 341.800 manat, elə həmin tarixdə "Şahqaya" adlanan ərazidə yerləşən daş karxanasına və həmin karxanada olan daş istehsalı sexinə 97.342 manat və yenə həmin tarixdə Bakı şəhəri, 9-cu mikrorayon. A.Məmmədov küçəsi 10 ünvanında "Yayla" MTK-ya məxsus 19 mərtəbəli yaşayış binasının tikintisinə 885.528 manat sərmayə qoyulması ilə

bağlı tərtib edilmiş aktların tərtib olunduqları andan etibarsız hesab olunmalarına dair qətnamə çıxarılmasını xahiş etmişdir.

İşdə olan sənədlərdən görünür ki, cavabdehlərdən Babayev Elxan Nuhu oğlu Bakı şəhəri, Nəsimi rayonu, M.A.Əliyev küçəsi, dalan 8, ev 2, Məhyəddinov Xaqani Nurəddin oğlu isə Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi, ev 137, mənzil 34 ünvanında qeydiyyatdadırlar.

İddiaçı iddia ərizəsində Xaqani Məhyəddinovu da cavabdeh kimi göstərsə də, lakin nə iddia ərizəsinin əsaslandırıcı hissəsində, nə də nəticə hissəsində Xaqani Məhyəddinova qarşı heç bir tələb irəli sürməmişdir. İddia ərizəsinin əsaslandırıcı hissəsində isə Məhyəddinov Xaqani Nurəddin oğlu şahid qismində göstərilmişdir.

Azərbaycan Respublikası MPM-nin 365-ci maddəsinə əsasən apellyasiya icraatına bu fəslin və bu Məcəllənin müddəaları tətbiq olunur.

Həmin Məcəllənin 372.7-ci maddəsinin tələbinə əsasən apellyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.

Qeyd olunan Məcəllənin 392.2-ci maddəsinə görə apellyasiya şikayəti təmin edilmədikdə və ya məhkəmənin qətnaməsi dəyişdirildikdə, apellyasiya instansiyası məhkəməsi hansı dəlillərə əsasən şikayətin təmin edilmədiyini və yaxud qətnamənin dəyişdirildiyini göstərməyə borcludur.

İddiaçı iddia ərizəsində Məhyəddinov Xaqani Nurəddin oğlunu cavabdeh kimi göstərsə də, ona qarşı heç bir tələb irəli sürməməsini və qanunsuz olaraq X.Məhyəddinovun yaşayış yeri üzrə Binəqədi rayon Məhkəməsində iddia qaldırmasını cavabdeh X.Məhyəddinovun nümayəndəsi M.Ə.Ələkbərov birinci instansiya məhkəməsinin qərardadından verdiyi şikayətində göstərməsinə baxmayaraq, apellyasiya instansiyası məhkəməsi mülki prosessual qanunvericiliyin yuxarıda qeyd olunan normalarının tələblərini nəzərə almadan və şikayətin dəlillərinə qiymət vermədən qəbul etdiyi qərardadda birinci instansiya məhkəməsinin qərardadında göstərilənləri təkrarlamaqla kifayətlənmiş, nəticədə prosessual qanunun yuxarıda göstərilən normalarının tələbləri pozulmuşdur. Ona görə də işin şərh olunan hallarını müzakirə edərək kassasiya məhkəməsi kassasiya şikayətini qismən təmin etmiş, apellyasiya instansiyası məhkəməsi tərəfindən prosessual hüquq normalarının tələbləri pozulduğuna görə Azərbaycan Respublikası MPM-nin 418.1, 418.3-cü maddələrinə əsasən qərardadı ləğv etmiş və işi yeni apellyasiya baxışına göndərmişdir.

## Mənzildən istifadə hüququnun itirilmiş hesab edilməsi ilə bağlı iddia tələbi üzrə prosessual hüquq varisiliyinə yol verilmədiyindən işə apellyasiya qaydasında baxılması qeyri-mümkün hesab edilmişdir.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 24 yanvar 2013-cü il tarixli qətnaməsi ilə iddiaçı Əzizli Pərvin Əşrəf qızının cavabdehlər Həsənova Maya Məmmədəli qızına, Həsənov Canpolad Şəmil oğluna və Həsənov Camal Şəmil oğluna qarşı istifadə hüququnun itirilmiş hesab edilməsi və mənzildən çıxarılması tələbinə dair ilk iddia təmin edilərək, Həsənova Maya Məmmədəli qızının və Həsənov Canpolad Şəmil oğlunun Bakı şəhəri, Nəsimi rayonu, S.Rüstəm küçəsində yerləşən 10 saylı evin 14 saylı mənzilinə olan istifadə hüquqları itirilmiş hesab edilmiş, Həsənov Canpolad Şəmil oğlunun və Həsənov Camal Şəmil oğlunun Bakı şəhəri, Nəsimi rayonu, S.Rüstəm küçəsində yerləşən 10 saylı evin 14 və 16 saylı mənzillərindən çıxarılmaları qət edilmiş, həmçinin iddiaçı Həsənov Canpolad Şəmil oğlunun cavabdeh Əzizli Pərvin Əşrəf qızına qarşı Bakı şəhəri, Nəsimi rayonu, S.Rüstəm küçəsində yerləşən 10 saylı evin 14/16 saylı mənzillərinin Əzizli Pərvin Əşrəf qızının adına özgəninkiləşdirilməsinə dair MH 0084176 seriyalı və MH 884173 seriyalı çıxarışların ləğv edilməsi, mübahisəli mənzilin maraqlı şəxs Cəmilə Mehdiyevanın mülkiyyətinə

qaytarılması və Canpolad Həsənovun və digər maraqlı şəxslərin mənzildən istifadə qaydalarının müəyyən edilməsi tələbinə dair qarşılıqlı iddiası təmin edilməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 01 avqust 2017-ci il tarixli qərardadı ilə Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 11 may 2017-ci il tarixli qətnaməsindən cavabdeh Həsənova Maya Məmmədəli qızının hüquq varisi kimi Həsənov Canpolad Şəmil oğlu tərəfindən verilmiş şikayətə apellyasiya qaydasında baxılması qeyri-mümkün hesab edilmiş, apellyasiya şikayətinin geri qaytarılması üçün mülki işin materialları Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinə qaytarılmışdır.

Cavabdeh Həsənov Canpolad Şəmil oğlu və onun vəkili Əfrasiyabova Dilarə Paşa qızı həmin qərardadla razılaşmayaraq ondan kassasiya şikayəti vermişlər.

Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi heç bir maddi hüquq normasına istinad etmədən göstərmişdir ki, istifadə hüququnun itirilmiş hesab edilməsi ilə bağlı iddia tələbi üzrə prosessual hüquq varisiliyinə yol verilmir. Çünki həmin cavabdehin mübahisəli mənzilə olan istifadə hüququ şəxsi xarakter daşıyır və yalnız onun özünə mənsub ola bilən hüquqdur. Kassatorlar hesab etmişlər ki, məhkəmə heç bir araşdırma aparmadan, öz şəxsi mülahizəsinə əsasən Nəsimi rayon Məhkəməsinin 24 yanvar 2013-cü il tarixli qətnaməsindən cavabdeh M.M.Həsənəovanın hüquqi varisi C.Ş.Həsənov tərəfindən verilmiş şikayətə apellyasiya qaydasında baxılmasını əsassız olaraq qeyri-mümkün hesab etdiyindən apellyasiya instansiyası məhkəməsinin qərardadının ləğv olunmalı və işi apellyasiya icraatına götürülüb baxılmalıdır.

Apellyasiya instansiyası məhkəməsinin iş materialları üzrə gəldiyi nəticədən görünür ki, cavabdeh Həsənova Maya Məmmədəli qızına münasibətdə ilk iddianın predmeti istifadə hüququnun itirilmiş hesab edilməsi təşkil edir. Yəni cavabdeh M.M.Həsənovaya qarşı onun mübahisəli mənzilə olan istifadə hüququnun itirilmiş hesab edilməsi tələbləri irəli sürülmüşdür.

İş materiallarından müəyyən olunur ki, cavabdeh M.M.Həsənova 23 iyun .2013-cü il tarixdə vəfat etmişdir.

Apellyasiya instansiyası məhkəməsinin qərardadında qeyd edilmişdir ki, Həsənov Canpolad Şəmil oğlu apellyasiya şikayətini anası Həsənova Maya Məmmədəli qızının hüquq varisi kimi vermişdir. Məhkəmənin qənaətinə görə, cavabdeh M.M.Həsənovaya qarşı irəli sürülmüş istifadə hüququnun itirilmiş hesab edilməsi ilə bağlı iddia tələbi üzrə prosessual hüquq varisliyinə yol verilmir ona görə ki, cavabdehin mübahisəli mənzilə olan istifadə hüququ şəxsi xarakter daşıyır və yalnız onun özünə mənsub ola bilən hüquqdur. Bu baxımdan cavabdeh C.Ş.Həsənov mərhum anası M.M.Həsənovanın hüquq varisi kimi tanına və onun adından apellyasiya şikayəti verə bilməz. Ona görə də, hazırkı işə apellyasiya qaydasında baxılması qeyri-mümkün hesab edilməli və qətnamədən verilən apellyasiya şikayətinin geri qaytarılması üçün mülki işin materialları birinci instansiya məhkəməsinə göndərilməlidir.

C.C.Həsənovun 01 avqust 2017-ci il tarixli qərardaddan verdiyi kassasiya şikayətinin dəlilləri ondan ibarətdir ki, Nəsimi Rayon Məhkəməsində işə baxılarkən anası Maya Həsənova 23 iyun 2013-cü il tarixdə Almaniya Federativ Respublikasında vəfat etmiş və məhkəmə işə hüquqi varisi müəyyən etmədən baxmış, anası Maya Həsənovanın mənzildən istifadə hüququna kompensasiya verilmədən xitam verilmiş, onun mənzildən istifadə hüququ əmlak hüququ kimi mirasa daxiidir və o, anasının vərəsəsi kimi, 25 aprel 2017-ci il tarixdə vərəsəlik şəhadətnaməsi alsa da, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası heç bir araşdırma aparmadan, öz şəxsi mülahizəsinə əsasən, birinci instansiya məhkəməsinin qətnaməsindən verilmiş apellyasiya şikayətini qeyri-mümkün hesab etmişdir.

Cavabdehin kassasyia şikayətinin dəlilləri ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin Müli Kollegiyası aşağıdakıları qeyd etmişdir:

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin (bundan sonra mətndə MPM-nin) 58.1-ci maddəsində təsbit olunmuşdur ki, mübahisə edilən hüquq münasibətində və ya qətnamə ilə müəyyən

edilən hüquq münasibətində tərəflərdən biri sıradan çıxdıqda (şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə və maddi hüquq münasibətlərində şəxslərin dəyişməsinin digər hallarında) məhkəmə həmin tərəfi onun hüquq varisi ilə əvəz etməyə yol verir. Hüquq varisliyi prosesin hər hansı mərhələsində mümkündür.

MPM-nin 254.1.1-ci maddəsinə əsasən, işdə tərəf olan şəxs öldükdə və ya hüquqi şəxs yenidən təşkil edildikdə, barəsində mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə və ya işdə tərəf olan hüquqi şəxsin ləğv edilməsinə yol verərsə, hakim iş üzrə icraatı dayandırmalıdır.

Göründüyü kimi, tərəflərdən biri öldükdə qanunvericilik o halda iş üzrə icraatın dayandınlmasını tələb edir ki, mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol versin. Bu iş üzrə mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə yol vermirdi.

Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 228.1 və 228.2-ci və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 30.1 və 30.2-ci maddələrinin şərh edilməsinə dair" 16 dekabr 2014-cü ii tarixli Qərarında qeyd etmişdir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra mətndə MM-nin) 228-ci maddəsində yaşayış binasının tərkib hissəsindən istifadə etmək səlahiyyətini təmin edən hüquq, mülki qanunvericilikdə məhdud əşya hüquqlarına dair nəzərdə tutulan bütün xüsusiyyətləri özündə əks etdirdiyinə görə, məhdud əşya hüququdur.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Mülki Məcəliəsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn istifadə hüququna xitam verilməsinə dair" 29 mart 2016-cı il tarixli Qərarında isə MM-nin 228-ci maddəsində yaşayış binasının tərkib hissəsindən istifadə etmək səlahiyyətini təmin edən hüququn hansı növ məhdud əşya hüququ olmasını müəyyən edərkən hesab etmişdir ki, MM-nin 228-ci maddəsində nəzərdə tutulan hüquq mahiyyət etibarilə şəxsi servitutdur və buna görə də MM-nin 228.1 və 228.2-ci maddələrinə əsasən əldə edilən hüquq vərəsəlik qaydasında keçmir. Həmin məsələ Qərarda aşağıdakı kimi ifadə edilmişdir: "Bu maddələrə əsasən, əldə olunan istifadə hüququ öz sahibinə yalnız aid olduğu yaşayış sahəsindən şəxsi ehtiyacını qarşılamaq imkanını təmin edir (yaşayış sahəsindən fayda götürmək, yəni əvəzli olaraq başqalarının istifadəsinə vermək imkanını təmin etmir). Yaşayış binasının tərkib hissəsindən istifadə hüququ olan şəxs, mülkiyyətçi də daxil olmaqla istənilən şəxsdən həmin yaşayış binasına olan hüququnun pozulmasını aradan qaldırmağı tələb edə bilər. Bu hüquq başqa şəxslərə özgəninkiləşdirilə bilməz və vərəsəlik qaydasında vərəsələrə keçmir".

Göründüyü kimi, Nəsimi Rayon Məhkəməsinin 24 yanvar 2013-cü il tarixli qətnaməsinin predmeti olmuş mübahisəli hüquq, yəni Maya Həsənovanın mübahisəli mənzildən istifadə hüququ hüquq varisliyinə yol verməyən hüquqdur. Odur ki, hüquq varisliyinə yol verilmədiyi üçün Canpolad Həsənovun Maya Həsənovanın qeyd edilən əmlak hüququ üzrə hüquq varis olması mümkün deyil. Buna görə də, Bakı Apellyasiya Məhkəməsi haqlı oiaraq, 01 avqust 2017-ci il tarixli qərardadı ilə Canpolad Həsənovun hüquqi varis kimi qeyd edilən qətnamədən verdiyi apellyasiya şikayətini qeyri-mümkün hesab etmişdir.

Bundan başqa, Canpolad Həsənovun hüquqi varis kimi verdiyi apellyasiya şikayətində göstərdiyi kimi, Maya Həsənova 23 iyun 2013-cü ildə vəfat etmiş, Nəsimi Rayon Məhkəməsinin qətnaməsi ilə isə Maya Həsənovanın mənzildən istifadə hüququna beş ay əvvəl, yəni 24 yanvar 2013-cü ildə xitam veriimişdir. Yəni, Maya Həsənovanın istifadə hüququna xitam verilən zaman o, sağ olmuş və qeyd edilən qətnamədən apellyasiya şikayəti vermək hüququ olduğu halda, həmin qətnaməni mübahisələndirməmişdir.

Halbuki, MPM-nin 360-cı maddəsinə əsasən, apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən 1 ay müddətində verilə bilər.

MPM-nin 360-cı maddəsindən də aydın olduğu kimi, Maya Həsənovanın Nəsimi Rayon Məhkəməsinin 24 yanvar 2013-cü il tarixli qətnaməsindən bir ay müddətində şikayət vermək hüququ oiduğu halda, o, öz mülahizəsinə əsasən bu hüququndan istifadə etməmiş, habelə Nəsimi Rayon Məhkəməsində işə baxılan zaman məhkəmə iclasında iştirak etməmiş və və istifadə hüququna xitam

veriiməsi ilə bağlı hər hansı kompensasiya tələb etməmişdir.

Konstitusiya Məhkəməsinin Pienumunun "Azərbaycan Respublikası Miilki Məcəlləsinin 228.5-ci maddəsinə əsasən əmələ gələn istifadə hüququna xitam verilməsinə dair" Qərarında göstərilmişdir ki, "Mülki Məcəllənin 228.5-ci maddəsinə əsasən əmələ gələn keçmiş ailə üzvünün yaşayış binasının tərkib hissəsindən istifadə hüququna müvafiq kompensasiya ödənilmədən xitam verilməsi həmin hüququn əldə edilməsini zəruri edən əsas (yaşayış sahəsinə ehtiyac) aradan qalxdıqda mümkündür".

Maya Həsənovanın mübahisəli mənzildən istifadəsinə ehtiyacı olmadığı üçün onun qeyd ediiən mənzildən istifadə hüququna kompensasiya ödənilmədən xitam verilmişdir. Belə ki, Maya Həsənova könüllü şəkildə 2012-ci ildən yaşamaq üçün Almaniya Federativ Respublikasına köçmüş, odur ki, onun mənzildən istifadə hüququna kompensasiya verilmədən xitam verilmiş və Konstitusiya Məhkəməsi də yuxarıda göstərilən qərarında bu şəkildə xitamın hüquqa uyğun olduğunu hesab edib.

Canpolad Həsənovun Maya Həsənovanın mənzildən istifadə hüququna dair əmlak hüququ üzrə hüquqi varis olduğunu iddia etməsinin heç bir əsası olmadığı onun təqdim etdiyi 25 aprel 2017-ci il tarixli şəhadətnamə ilə təsdiq edilir. Həmin şəhadətnamədən göründüyü kimi, Maya Həsənovadan qalmış miras əmlak Azərbaycan Respublikası Əmək və Əhalinin Sosiai Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri, Nəsimi rayon şöbəsində yaşa görə alınmamış 765.60 manat pensiyadan ibarətdir və şəhadətnamə Canpolad Həsənova Maya Həsənovanın almadığı 765.60 manat məbləğində pensiyasını almaq üçün verilmişdir. Belə olan halda, Canpolad Həsənovun qeyd edilən şəhadətnaməyə əsaslanaraq, Maya Həsənovanın mənzildən istifadə hüququna dair əmlak hüququ üzrə hüquqi varisi olduğunu iddia etməsinin heç bir əsası yoxdur.

Məhkəmə kollegiyası yekun olaraq yuxarıda qeyd edilənlərlə bağlı hüquqi mövqeyini bir daha açıqlayaraq qeyd etmişdir ki, prosessual hüquq varisliyi dedikdə, tərəfin prosessual hüquq və vəzifələrinin həmin tərəfin hüquq varisi olan şəxsə keçməsi başa düşülür. MPM-nin yuxarıda şərh edilən maddəsində yalnız tərəflərin (iddiaçı və cavabdehin) hüquq varisliyindən söhbət açılsa da, həm mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxslər (MPM-nin 55-ci maddəsi), həm də mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslərin (MPM-nin 57-ci maddəsi) hüquq varisliyinə yol verilir. Ona görə də üçüncü şəxslər sıradan çıxdıqda məhkəmə hüquq varisliyinin MPM-lə nəzərdə tutulan qaydasını rəhbər tutaraq onların hüquqi varisinin icraatda iştirakını təmin etməlidir.

Prosessual hüquq varisliyi maddi hüquq varisliyi ilə sıx bağlıdır. Ona görə də əgər maddi hüquq münasibətlərində hüquq varisliyinə yol verilirsə, prosessual hüquq varisliyi də mümkündür. Hüquq və vəzifələrin başqa şəxsə keçməsinə yol verilməyən öhdəliklərdə, habelə varisliyə yol verməyən hüquq münasibətlərində tərəfin sıradan çıxması həmin öhdəliyin və ya hüquq münasibətlərinin xitamına səbəb olur və belə halda prosessual hüquq varisliyi yarana bilməz (məsələn, alimentin tutulması, kreditorun şəxsiyyəti ilə sıx bağlı olan öhdəliyin (hər hansı incəsənət əsərinin yaradılması, qanunsuz olaraq işdən çıxarılmış işçinin işə bərpa olunması haqqında tələblər və s.).

İşdən göründüyü kimi cavabdehin mübahisəli mənzilə olan istifadə hüququ şəxsi xarakter daşıyır və yalnız onun özünə mənsub ola bilən hüquqdur. Belə olan halda apellyasiya instansiyası məhkəməsi düzgün olaraq işə apellyasiya qaydasında baxılmasını qeyri-mümkün hesab etmiş və qətnamədən verilən apellyasiya şikayətinin geri qaytarılması üçün mülki işin materiallarını birinci instansiya məhkəməsinə göndərmişdir.

Məhkəmə Kollegiyası qeyd olunanlara əsaslanaraq kassasiya şikayətini təmin etməmiş, Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyasının 10 avqust 2017-ci il tarixli qərardadını isə dəyişdirilmədən saxlamışdır.

# Azərbaycan Respublikası Mülki Məcəlləsinin 354.2-ci maddəsinin mənasına görə, maraqlı şəxs əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində həmin əqdin etibarsızlığını mübahisə etmək hüququna malikdir və bu müddət keçdikdən sonra şəxs qeyd edilən hüququnu itirir.

Mingəçevir Şəhər Məhkəməsinin 04 noyabr 2015-ci il tarixli qətnaməsi ilə iddiaçı Ələsgərov Ələmşah İsbəndiyar oğlunun cavabdeh Paşayeva İradə Ehsan qızına və mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən 3-cü şəxslər Mingəçevir şəhəri 2 saylı Notariat Kontoruna və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi İdarəsinə qarşı "alqı-satqı müqaviləsinin etibarsız sayılması" barədə iddiası təmin edilmiş, 24 sentyabr 2012-ci il tarixdə 2 saylı Notariat Kontorunda cavabdeh Paşayeva İradə Ehsan qızı ilə iddiaçı Ələsgərov Ələmşah İsbəndiyar oğlu arasında bağlanmış AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, həmin alqı-satqı müqaviləsinə əsasən, cavabdeh Paşayeva İradə Ehsan qızının adına verilmiş 10 oktyabr 2012-ci il tarixli 2012007284 saylı daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın ləğv edilməsi və ödənilmiş dövlət rüsumunun iddiaçıya aid edilməsi qət edilmişdir.

Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 13 iyun 2016-cı il tarixli qətnaməsi ilə cavabdeh İ.E.Paşayevanın apellyasiya şikayəti təmin edilməmiş, Mingəçevir Şəhər Məhkəməsinin 04 noyabr 2015-ci il tarixli qətnaməsi isə dəyişdirilmədən saxlanılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 23 dekabr 2016-cı il tarixli qərarı ilə cavabdehin kassasiya şikayəti qismən təmin edilmiş, Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 13 iyun 2016-cı il tarixli qətnaməsi ləğv edilmiş və iş yenidən baxılması üçün Şəki Apellyasiya Məhkəməsinə göndərilmişdir.

Növbəti dəfə həmin mülki işə baxan Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 aprel 2017-ci il tarixli qətnaməsi ilə cavabdeh İ.E.Paşayevanın apellyasiya şikayəti yenə də təmin edilməmiş və birinci instansiya məhkəməsinin 04 noyabr 2015-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

İş materiallarından görünür ki, iddiaçı Ə.İ.Ələsgərov cavabdeh İ.E.Paşayevaya və mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər Mingəçevir şəhəri 2 saylı Notariat Kontoruna və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin Yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 17 saylı Ərazi İdarəsinə (bundan sonra üçüncü şəxs və ya Mingəçevir şəhəri 2 saylı Notariat Kontoru, DƏDRX-in 17 saylı Ərazi İdarəsi) qarşı Mingəçevir Şəhər Məhkəməsində iddia qaldıraraq, 24 sentyabr 2012-ci il tarixdə 2 saylı Notariat Kontorunda cavabdeh Paşayeva İradə Ehsan qızı ilə onun arasında bağlanmış AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsinin və DƏDRX tərəfindən verilmiş 10.10.2012-ci il tarixli 2012007284 saylı çıxarışın etibarsız hesab edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

Sonradan iddiaçı iddia tələbinin dəyişdirilməsi barədə ərizə verərək, 24 sentyabr 2012-ci il tarixdə 2 saylı Notariat Kontorunda İradə Paşayeva ilə Ələmşah Ələsgərov arasında bağlanmış AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsinin etibarsız sayılması və Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 10 oktyabr 2012-ci il tarixli 2012007284 saylı çıxarışın ləğv edilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

İddiaçı öz iddia tələbini onunla əsaslandırılmışdır ki, o, 1968-ci ildə Mingəçevir şəhərinə gəlmiş, həmin vaxtdan əmək fəaliyyəti ilə məşğul olmuş, 1985-1990-cı illərdə Azərbaycan Respublikası Ticarət Nazirliyinin Gəncə Təsərrüfat Hesablı Avtonəqliyyat Bazasının dəstəsində mexanik vəzifəsində işləmiş, 1990-2004-cü illərdə isə dəstənin rəisi olmuşdur. 2004-cü ilin aprel ayından dəstənin Azərbaycan Respublikası Ticarət Nazirliyinin Gəncə Təsərrüfat Hesablı Avtonəqliyyat

Bazasının Mingəçevir Avtomobil dəstəsinin Mingəçevir şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında yerləşən 3585,6 m2 torpaq üzərində yerləşən daşınmaz əmlakını öz adına özəlləşdirmişdir. 07 aprel 2008-ci il tarixdə o, avtomobil sahəsinin yerləşdiyi 3585,6 m2 torpaq sahəsini qanunvericiliklə müəyyən edilmiş qaydada Əmlak Komitəsində öz adına özəlləşdirərək alqı-satqı yolu ilə almışdır. Cavabdehin həyat yoldaşı Paşayev Arif Möylam oğlu 2002-ci ildə həmin dəstədə sıravi fəhlə işləmişdir. Avtomobil sahəsini o, yəni iddiaçı Ə.İ.Ələsgərov öz adına rəsmiləşdirdikdən sonra cavabdehin həyat yoldaşı ondan xahiş etmişdir ki, onun həmin torpaq üzərində olan müvəqqəti saxladığı maşın üçün kiçik qarajda boş şüşə qabların yığımı ilə məşğul olsun. Bu müvəqqəti xarakter daşıdığından o, bu təkliflə razılaşmışdır. 2010-cu ildən başlayaraq cavabdeh iddiaçıya onun həyat yoldaşının mülkiyyət payının olmasını bildirmiş və ona hədə-qorxu gəlməklə həmin torpağın bölünməsini tələb etmişdir. Bu tələblə 15 avqust 2012-ci il tarixdə cavabdeh, onun həyat yoldaşı Paşayev Arif Möylam oğlu, 3 oğlu və qayını Quliyev İsmi Ehsan oğlu onu döymüş, sonra isə onu öldürməklə hədə-qorxu gələrək Tahir adlı hüquqşünasın yanına aparıb əvvəlcədən yazılmış ərizəyə qol çəkdirmişlər. 16 sentyabr 2012-ci ildə yenə də cavabdeh İ.E.Paşayeva, onun həyat yoldaşı Paşayev Arif Möylam oğlu və oğlanları onu yenə də döymüş, o, həmin vaxt pis vəziyyətə düşmüş və təcili tibbi yardım çağırılmış, bu barədə müvafiq arayış tərtib edilmişdir. 24 sentyabr 2012-ci ildə həmin şəxslər onu növbəti dəfə öldürməklə hədələyib 2 saylı Notariat Kontoruna getməyi tələb etmiş və orada alqı-satqı müqaviləsini imzalamağı məcbur etmişlər. Məhz bu yolla o, cavabdeh mübahisəli əmlakı ələ keçirməyə müvəffəq olmuş, sonra isə Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətindən 10 oktyabr 2012-ci il tarixdə 2012007284 qeydiyyat nömrəsi ilə çıxarış almışdır. Bu işə baxılarkən Mingəçevir Şəhər Məhkəməsi cavabdehin və onun yaxın qohumlarının əməllərində cinayətin əlamətlərinin olmasını əsas götürərək xüsusi qərardad çıxararaq Mingəçevir Şəhər Prokurorluğuna göndərmiş və Mingəçevir Şəhər Prokurorluğunda 18 iyun 2014-cü il tarixdə bu faktla əlaqədar cinayət işinin başlanması barədə qərar çıxarılmışdır. Hal-hazırda həmin işin istintaqı gedir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra mətndə MM-nin) 339-cu maddəsinə əsasən, hakimiyyətdən sui-istifadə nəticəsində, aldatma, zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqd etibarsız hesab edilir. İddiaçının qənaətinə görə, cavabdehin, onun həyat yoldaşının və oğlanlarının birlikdə iddiaçıya zorakılıq, hədə-qorxu gəlməsi nəticəsində bağlanmış müqavilə heç bir vaxt əsaslı ola bilməz və belə əqdlər bağlandığı gündən etibarsız sayılır.

İş materiallarında olan və məhkəmə kollegiyasının iclasında tədqiq edilən sübutlarla aşağıdakılar müəyyən edilmişdir:

05 sentyabr 2002-ci il tarixli daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən verilmiş arayışın təsdiq edilmiş surətindən görünür ki, Ələmşah Ələsgərovun Mingəçevir şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında yerləşən əmlak kompleksi kimi müəssisə üzərində mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində 1 nömrəli reyestr kitabının 15 nömrəli vərəqində qeydiyyata alınmışdır.

02 yanvar 2004-cü il tarixli Paşayev Arif Möylam oğlu tərəfindən verilmiş etibarnamənin surətinə əsasən, Ələsgərov Ələmşah İsbəndiyar oğlu Gəncə Təsərrüfat hesablı avtonəqliyyat bazası Mingəçevir avtomobil dəstəsinin əmək kollektivi üzvlərinin hüquqlarını həyata keçirmək üçün vəkil edilmiş, əmək kollektivini özəlləşdirməni həyata keçirən orqanlarda təmsil etmək, qanunçuluğa əməl olunmasına nəzarət etmək, özəlləşdirmə prosesində zəruri işlər görmək, müəssisənin (obyektin) özəlləşdirilməsi barədə ərizəni rəsmiləşdirmək, zəruri müqavilələr bağlamaq və öhdəliklər imzalamaq səlahiyyətinə malik olmuşdur.

Ələmşah Ələsgərova verilmiş bildirişin surətinə görə, TXİMOFƏM-nin Avtomobil sahəsinin güzəştli satışında hüququ olan 2 nəfərdən hər biri 4 ədəd özəlləşdirmə çeki təqdim etmişdir və nəticədə satışa çıxarılan 8 760 900 manatlıq çeklər əmək kollektivinin güzəştli satışda iştirak edən üzvləri tərəfindən alınmışdır.

Güzəştli satışda iştirak etmiş şəxslərin siyahısının surətindən görünür ki, Ələmşah Ələsgərov və Arif Paşayev hər biri 4 ədəd özəlləşdirmə çeki təqdim etmişlər.

Ələmşah Ələsgərov tərəfindən verilmiş 05 sentyabr 2008-ci il tarixli etibarnamənin surətindən görüdüyü kimi, o, iddiaçı Arif Paşayevə Mingəçevir şəhəri, M.Rəhimov küçəsində yerləşən avtomobil sahəsini sənədləşdirməyi və istifadə etməyi etibar etmişdir.

Ə.İ.Ələsgərovun Mingəçevir Şəhər Məhkəməsinin sədrinə ünvanlanmış 05 sentyabr 2012-ci il tarixli ərizəsindən görünür ki, o, 2004-cü ildə tanışı A.M.Paşayevlə birlikdə Mingəçevir şəhəri, M.Rəhimov küçəsində yerləşən avtomobil sahəsini aldıqlarını, həmin torpaq sahəsinin özəlləşdirilməsi zamanı aralarında olan razılaşmaya əsasən torpaq sahəsinin mülkiyyətə verilməsini təsdiq edən şəhadətnamənin onun adına verilməsini, həmin torpaq sahəsinin özəlləşdirilməsi üçün hər ikisinin eyni miqdarda pul vəsaiti sərf etmələrini bildirərək aralarında olan razılaşmaya əsasən aldıqları torpaq sahəsinin 20 sot hissəsini A.M.Paşayevin adına notariat qaydasında rəsmiləşdirəcəyini və buna görə də 20 sot torpaq sahəsi üzərində sonuncunun mülkiyyət hüququnu təsdiq edən şəhadətnamə ona verilənə qədər birgə aldıqları torpaq sahəsi ilə bağlı özünün heç bir notariat hərəkəti həyata keçirməyəcəyini öhdəsinə götürmüşdür.

11 sentyabr 2012-ci il tarixli qəbzin surətindən görünür ki, Ələsgərov Ələmşah İsbəndiyar oğlu və Paşayev Arif Möylam oğlu bir-birinə hər hansı borclarının olmadığı barədə sadə yazılı formalı iltizam yazmışlar.

Mingəçevir şəhəri 2 saylı xüsusi notariat kontorunda bağlanmış 24 sentyabr 2012-ci il tarixli AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsinin surətindən görünür ki, Ələsgərov Ələmşah İsbəndiyar oğlu bəhs olunan torpaq sahəsinin əlavə edilmiş bölgü planına əsasən 2030,60 m2 hissəsini 10.000 manata Paşayeva İradə Ehsan qızına satmışdır.

10 oktyabr 2012-ci il tarixdə verilən RX seriyalı 0055405 saylı Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışdan görünür ki, 0,2031 ha torpaq sahəsi xüsusi mülkiyyət hüququ ilə Paşayeva İradə Ehsan qızının adına daşınmaz əmlakın dövlət reyestrində 9 saylı reyestr kitabının 9 nömrəli vərəqində qeydiyyata alınmışdır.

Aktdan və siyahıdan görünür ki, 15 avqust 2012-ci il tarixdə yaranmış mübahisə vaxtı Arif Paşayev və Ələmşah Ələsgərovun birgə biznesinə aid əmlak və mallar (tərtib olunmuş siyahı üzrə) 16-17 sentyabr 2012-ci il tarixdən başlayaraq 10-15 gün ərzində Arif Paşayev, onun dostları və oğulları tərəfindən götürülüb Arif Paşayevin işlədiyi sahəyə daşınmışdır. Aktda adları qeyd olunan əmlakın ümumi dəyəri 61.500 manat kimi qeyd olunmuşdur.

24 sentyabr 2012-ci il tarixli ərizənin təsdiq edilmiş surətindən görünür ki, Ələsgərova Raisə Ələddin qızı Ələsgərov Ələmşah İsbəndiyar oğluna məxsus olan MİngəçevIr şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında yerləşən torpaq sahəsinin 2030,60 m2 satılmasına etiraz etməmişdir.

24 sentyabr 2012-ci il tarixli qəbzin təsdiq edilmiş surətinə əsasən, Paşayeva İradə Ehsan qızı Texnikabank ASC-in Mingəçevir filialına 10000 manat pul köçürmüşdür.

24 sentyabr 2012-ci il tarixli ərizələrin təsdiq edilmiş surətlərindən göründüyü kimi, Ələmşah Ələsgərov və İradə Paşayeva iddiaçıya məxsus olan daşınmaz əmlakın 10000 manata cavabdehə satılması barədə razılığa gəlmişlər.

Məhkəmə kollegiyasına təqdim edilmiş Mingəçevir Şəhər 2 saylı Xüsusi Notariat Kontorunun 20 fevral 2017-ci il tarixli 134 nömrəli arayışından görünür ki, Ələsgərova Raisə Ələddin qızı Mingəçevir şəhəri, M.Maqomayev prospekti, ev 12, mənzil 24 ünvanında yaşamış, 05.02.2017-ci il tarixdə vəfat etmiş əri Ələsgərov Ələmşah İsbəndiyar oğlundan qalmış mirasın qəbulu üçün 15.02.2017-ci il tarixdə notariat kontoruna müraciət etmiş və həmin tarixdə bununla bağlı V-30/2017 saylı vərəsəlik işi açılmışdır. Digər varis Ələsgərova Əfsanə Ələmşah qızı miras payından Ələsgərova Raisə Ələddin qızının xeyrinə imtina etmişdir.

Mübahisə üzrə yuxarıda qeyd edilən məhkəmə aktları qəbul edilmişdir.

Apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyasının qətnaməsindən narazı qalaraq cavabdeh Paşayeva İradə Ehsan qızı həmin qətnamədən Ali Məhkəmənin Mülki Kollegiyasına kassasiya şikayəti vermiş,

şikayətində apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyasının iş üzrə qətnaməsinin ləğv olunması və iddia tələbinin rədd olunmasına dair yeni qərar qəbil edilməsini xahiş etmişdir.

Cavabdeh kassasiya şikayətini onunla əsaslandırmışdır ki, apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası tərəfindən işin halları düzgün və tam araşdırılmamış, işə birtərəfli baxılmış, Ali Məhkəmənin göstərişlərinə tam və düzgün əməl olunmamış, sübutlara yalnız iddiaçının mənafeyi baxımından qiymət verilmiş, məhkəmə kollegiyası tərəfindən maddi və prosessual hüquq normalarının tələbləri pozulmuş, sübutlara düzgün hüquqi qiymət verilməmişdir.

Apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası nəzərə almamışdır ki, mübahisəli torpaq sahəsinin özəlləşdirilməsində hər iki tərəf, yəni iddiaçı Ələmşah Ələsgərov və mərhum Arif Paşayev iştirak etmiş, hər ikisi torpağın özəlləşdirilməsinə eyni miqdarda çek qoymuş və məhz bu səbəbdən də iddiaşı Ə.Ələsgərov qeyd edilən müəssisənin idarə olunması üçün Arif Paşayevin adına etibarnamə vermişdir.

Həmçinin məhkəmə kollegiyası iş üzrə əlavə olaraq şahid qismində dindirilmiş Elçin Dilən oğlu Ələsgərovun şahid ifadəsinə düzgün hüquqi qiymət verməmişdir və həmin ifadəni sübut kimi qəbul etmiş, habelə nəzərə almamışdır ki, iddiaçı tərəfindən Arif Paşayevin adına etibarnamə verilən vaxt notariusda Ələmşah Ələsgərovun əmisi oğlu olan Elçin Ələsgərov da iştirak etmiş və həmin gün torpaq sahəsinin bir hissəsi də Ələmşah Ələsgərov tərəfindən Elçin Ələsgərovun adına keçirilmişdir.

Ali Məhkəmənin Mülki Kollegiyasının iclasında cavabdeh İradə Paşayevanın vəkili F.M.Məmmədov kassasiya şikayətinin dəlillərini müdafiə edib onun təmin olunmasını məhkəmə kollegiyasından xahiş etmişdir.

Həmin iclasda iddiaçı Ələmşah Ələsgərovun hüquqi varisi Ələsgərova Raisə Ələddin qızının nümayəndəsi və eyni zamanda vəkili Ç.Q.Məmmədov kassasiya şikayəti ilə razı olmadıqlarını, iş üzrə apellyasiya instansiya məhkəməsinin məhkəmə kollegiyasının 26 aprel 2017-ci il tarixli qətnaməsinin qanuni və əsaslı olduğunu, kassasiya şikayətinin dəlillərinin formal xarakterə malik olduğunu bildirib onun təmin olunmamasını məhkəmə kollegiyasından xahiş etmişdir.

Ali Məhkəmənin Mülki Kollegiyası iş üzrə məruzəçi hakimin məruzəsini, cavabdeh İ.E.Paşayevanın (kassator) vəkilinin izahatını, iddiaçı Ələsgərov Ələmşah İspəndiyar oğlunun hüquqi varisi Ələsgərova Raisə Ələddin qızının nümayəndəsinin və eyni zamanda vəkilinin izahatını dinləyib, hesab etmişdir ki, aşağıdakılara əsasən iş üzrə kassasiya şikayəti qismən təmin edilməli, apellyasiya instansiya məhkəmə kollegiyasının qətnaməsi ləğv edilməli və iş yeni apellyasiyan baxışına qaytarılmalıdır.

Belə ki, işə apellyasiya qaydasında növbəti dəfə baxan məhkəmə kollegiyası tərəfindən aşağıdakılar müəyyən edilmiş və qeyd edilmişdir:

Azərbaycan Respublikası Ali Məhkəməsi 23 dekabr 2016-cı il tarixli qərarla Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 13 iyun 2016-cı il tarixli qərarını ləğv edib işi yeni apellyasiya baxışına qaytararkən, işə yenidən baxan məhkəmə üçün göstərişlər müəyyən etmişdir.

Ali Məhkəmənin qərarında göstərilmişdir ki, "apellyasiya instansiya məhkəməsi işə baxarkən Ələmşah Ələsgərov ilə İradə Paşayevanın əri Arif Paşayevin əmək münasibətində olmasını, Arif Paşayevin mübahisəli müəssisənin özəlləşdirilməsində iştirak edib-etməməsini, etibarnamə verməsini araşdırmamış, tərəflərin qarşılıqlı öhdəliklərinin olmasına aydınlıq gətirməmiş, iddiaçının əmisi oğlu Ələsgərov Elçin Dilən oğlunun 24 sentyabr 2012-ci il tarixli alqı-satqı müqaviləsi bağlanan zaman notariat kontorunda olub-olmamasını yoxlamamışdır. Bundan başqa, apellyasiya instansiyası məhkəməsi iddiaçı Ələmşah Ələsgərovun iddia etdiyi kimi, mülkiyyətində olan torpaq sahəsinə dair alqı-satqı əqdini bağlamağa məcburetmənin (zorakılıq və ya hədələmə) xaraktercə şəxsə təsir göstərə bilən və ona şəxsən özünü və ya əmlakını real təhlükə gözlədiyini təlqin edə bilən məcburetmə kimi sayılıb-sayılmamasını, hədə-qorxunun nədən ibarət olmasını və real olub-olmamasını, iddiaçı Ələmşah Ələsgərov və ya onun arvadı Raisə Ələsgərovanın alqı-satqı müqaviləsi bağlamağa məcbur edilmələri barədə, həmin ərəfədə və

bundan sonra hansı səbəbdən hüquq-mühafizə orqanlarına və ya məhkəməyə müraciət etməmələrinin səbəblərini aydınlaşdırmamış, müqavilənin qanunauyğun surətdə, yəni iddiaçının könüllü, sərbəst və azad iradə ifadəsi əsasında deyil, ona qarşı zorakılıq və hədə təsiri altında məcburetmə yolu ilə bağlanması qənaətinə gəlməsini əsaslandırmamış, mübahisəni tərəflərin hüquqi mənafeyinə uyğun həll etməmiş, cavabdehin ədalətli məhkəmə araşdırması hüququnu təmin etməmiş, mübahisəli torpaq sahəsi üzərində onun dövlət tərəfindən tanınan və qorunan mülkiyyət hüququnun pozulması ilə nəticələnən qətnamə qəbul etmişdir.”

Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin (bundan sonra mətndə MPM-nin 420-ci maddəsinə əsasən, kassasiya instansiyasında işə baxan məhkəmənin qərarında şərh edilən göstərişlər həmin işə yenidən baxan məhkəmə üçün məcburidir.

Ali Məhkəmənin tövsiyəsini nəzərə alan məhkəmə kollegiyası hesab etmişdir ki, ilk olaraq Ali Məhkəmənin qərarında qeyd edilən məsələlər araşdırılmalıdır.

Bununla əlaqədar olaraq apellyasiya instansiyası məhkəmə kollegiyası aşağıdakıları qeyd etmişdir.

İş materiallarında olan Mingəçevir Şəhər Polis Şöbəsinin İstintaq Bölməsinin müstəntiqinin 10 sentyabr 2013-cü il tarixli “cinayət işi başlanmasının rədd edilməsi haqqında” qərarından görünür ki, Ələsgərov Ələmşah İsbəndiyar oğlunun şikayət ərizəsi əsasında araşdırma aparılmış, Paşayeva İradə Ehsan qızının barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra mətndə CM-nin) 188-ci maddəsinə (Torpaq üzərində mülkiyyət hüququnu pozma) əsasən Paşayeva İradə Ehsan qızının, Paşayev Xəyal Arif oğlunun və Paşayev Rafail Arif oğlunun barələrində cinayət işinin başlanması rədd edilmişdir.

Mingəçevir şəhər prokurorunun “Cinayət işinin başlanmasının rədd edilməsi barədə qərarın ləğv edilməsi və yenidən araşdırma aparılması üçün aidiyyəti üzrə göndərilməsi haqqında” 07 mart 2016-cı il tarixli qərarının surətindən görünür ki, Ələsgərov Ələmşah İsbəndiyar oğlunun şikayət ərizəsi əsasında Mingəçevir Şəhər Polis şöbəsinin İB-nin müstəntiqi, polis kapitanı Elton Kərimovun 10 sentyabr 2013-cü il tarixli qərarı əsassız olduğundan ləğv edilmişdir.

Məhkəmə kollegiyasının sorğusu əsasında əldə olunmuş Mingəçevir şəhər prokurorunun 18 iyun 2014-cü il tarixli qərarında göstərilmişdir ki, “Mingəçevir Şəhər Məhkəməsinin 18 may 2014-cü il tarixli xüsusi qərardadı əsasında aparılmış yoxlama zamanı müəyyən edilmişdir ki, Paşayeva İradə Ehsan qızı, Paşayev Arif Möylam oğlu, Paşayev Xəyal Arif oğlu, Paşayev Rafail Arif oğlu, Quliyev İsmi Ehsan oğlu və Məhərrəmov Fikrət İbrahim oğlu Ələsgərov Ələmşah İsbəndiyar oğlunun 07 aprel 2008-ci il tarixdə satın alaraq mülkiyyətinə keçirdiyi 3585,6 kv.metr torpaq sahəsinin 2030,60 kv.metrini onun, yəni Ələmşah Ələsgərovun şəxsiyyəti üzərində zor göstərərək, təhqir edərək, onu və ailəsini öldürmə, əmlakını tələf etmə hədəsi ilə formal xarakter daşıyan alqı-satqı müqaviləsinin bağlanması yolu ilə Paşayeva İradə Ehsan qızının adına rəsmiləşdirərək mülkiyyətinə keçirmişlər. Ələsgərov Ələmşah İsbəndiyar oğlunun 07.04.2008-ci il tarixdə satın alaraq mülkiyyətinə keçirdiyi 3585,6 kv.metr torpaq sahəsinin 2030,60 kv.metrinin zorla Paşayeva İradə Ehsan qızının mülkiyyətinə keçirilməsi faktında CM-nin 182.1-ci maddəsində nəzərdə tutulan hədə-qorxu ilə tələb etmə cinayətinin əlamətləri olduğundan fakta görə həmin maddə ilə cinayət işi başlanmalıdır.”

Həmin qərarın təsviri hissəsində göstərilənlərə əsasən fakta görə toplanmış material üzrə CM-nin 182.1-ci maddəsinə cinayət işi başlanmış, cinayət işi üzrə istintaqın aparılması Mingəçevir Şəhər Polis şöbəsinin İB-nə həvalə edilmişdir.

Mingəçevir Şəhər Polis şöbəsinin İB-in 11 noyabr 2014-cü il tarixli cinayət işi üzrə icraatın dayandırılması barədə qərarından görünür ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra mətndə CPM-nin) 53.1.7 və 277-ci maddələrinə əsasən cinayət işi üzrə icraat dayandırılmış, qərarda göstərilmişdir ki, “aparılmış istintaq zamanı müəyyən olunmuşdur ki, Ələmşah Ələsgərov 19.04.2004-cü il tarixdə Mingəçevir şəhəri, M.Rəhimov küçəsində yerləşən avtomobil sahəsini satın almışdır. 07.04.2008-ci il tarixdə isə Ələmşah Ələsgərov Mingəçevir şəhəri M.Rəhimov

küçəsində yerləşən avtomobil sahəsinin yerləşdiyi 3585,6 m2 olan torpaq sahəsini qanunvericilikdə müəyyən edilmiş qaydada satın almışdır. Həmin ərazinin müəyyən hissəsini o, tanışı, əvvəllər avtomobil sahəsində dispetçer vəzifəsində işləmiş Arif Paşayevə limonad istehsal etmək üçün icarəyə vermişdir. 24.09.2012-ci il tarixdə isə Ələmşah Ələsgərov Mingəçevir şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında yerləşən əmlak kompleksinin yerləşdiyi torpaq sahəsinin 2030,6 m2 sahəsini Arif Paşayevin həyat yoldaşı İradə Paşayevaya satmışdır. Bir müddət sonra Ələmşah Ələsgərov müvafiq hüquq mühafizə orqanlarına ərizələrlə müraciət edərək həmin torpaq sahəsini zor, hədə-qorxu təsiri altında satdığını bildirmişdir. Cinayət işi üzrə aparılmış istintaqın ilkin prosesində müəyyən olunmuşdur ki, mübahisə predmeti olan əmlakla bağlı Şəki Apellyasiya Məhkəməsi tərəfindən qəbul olunmuş qərar vardır. Ələmşah Ələsgərov və onun nümayəndəsi həmin qərardan kassasiya şikayəti vermişlər. Həmçinin Mingəçevir Şəhər Məhkəməsinin qərarı ilə mübahisəli əmlakın üzərinə həbs qoyulmuşdur. Odur ki, cinayət işi üzrə icraat qeyd olunan xüsusat aradan qaldırılanadək dayandırılmalıdır."

Ali Məhkəmənin qərarında göstərilən məsələlərin araşdırılması məqsədi ilə cavabdehin həyat yoldaşı Paşayev Arif Möylam oğlu və iddiaçının əmisi oğlu Ələsgərov Elçin Dilən oğlu məhkəmə kollegiyasının iclasında şahid qismində dindirilmiş, həmin şahidlər alqı-satqı müqaviləsi bağlanan zaman Mingəçevir şəhər 2 saylı Notariat Kontorunda olduqlarını bildirmişlər.

Məhkəmə kollegiyasının iclasında şahid qismində dindirilmiş Elçin Ələsgərov həmçinin bildirmişdir ki, əmisi ondan xahiş etdiyinə görə 10.000 manat pulu İradə Paşayevanın adından "Texnika Bank"a ödəmiş və səhəri günü Ələsgərov Ələmşah İsbəndiyar oğlu ilə birlikdə bankdan götürmüşlər.

Məhkəmə Kollegiyası hesab etmişdir ki, satıcı və alıcı kimi çıxış edən Ələmşah Ələsgərovla İradə Paşayeva 2 saylı Notariat Kontorunda notariat qaydasında alqı-satqı müqaviləsi bağlasalar da, işin müəyyən edilmiş halları ilə nəzərdə tutulmuş 10000 manat pulun alıcı tərəfindən satıcıya verilməsi qəbzdə göstərilsə də, şahid Elçin Ələsgərov pulu İradənin yerinə özü banka keçirdiyini, daha sonra Ələmşahla birlikdə bankdan aldıqlarını bildirmişdir. Belə ki, birinci instansiya məhkəməsinin iclasında şahid qismində dindirilmiş Məhərrəmov Fikrət İbrahim oğlu və Ələsgərov Fazil Dilən oğlu da torpağın alınması üçün 10000 manat məbləğində pulun Elçin Ələsgərov tərəfindən İradə Paşayevanın adından banka ödənildiyini bildirmişlər.

Məhkəmə kollegiyası qeyd etmişdir ki, həm tərəflərin izahatlarından, şahidlərin birinci instansiya məhkəməsinin iclasında verdikləri ifadələrdən, həm də Mingəçevir Şəhər Polis Şöbəsinin İB-də aparılan cinayət işi üzrə icraat materiallarından görünür ki, Ələmşah Ələsgərov 24.09.2012-ci il tarixdə mübahisəli torpaq sahəsini İradə Paşayevaya heç də könüllü, sülh şəraitində, tərəflərin qarşılıqlı razılığı ilə satmamışdır. Ələmşah Ələsgərov bütün instansiya məhkəmələrində verdiyi izahatlarında cavabdehin, onun həyat yoldaşının, oğlanlarının və qohumları İsmi Quliyevin birlikdə ona qarşı zorakılıq, özünə və ailə üzvlərinə xəsarət yetirəcəkləri, hətta öldürəcəkləri barədə hədə-qorxu gəlməsi nəticəsində həmin torpaq sahəsini onlara verdiyini, alqı-satqı müqaviləsinin formal bağlandığını, əslində alqı-satqı olmadan torpağın ondan zorla alındığını bildirmişdir. Məhkəmə iclaslarında dindirilmiş şahidlər də həmin torpaq sahəsinin satılması ərəfəsində tərəflərin arasında dəfələrlə narazılıq olduğunu, hətta narazılığın savaşma müstəvisinə keçdiyini, cavabdeh İradə Paşayevanın, onun əri Arif Paşayevin, onların oğlanlarının və qohumları İsmi Quliyevin birlikdə iddiaçıya hücum edərək onu vurduqlarını və torpaq sahəsini onların adına keçirməyi tələb etdiklərini bildirmişlər.

Ələmşah Ələsgərovun müraciəti ilə Mingəçevir Şəhər Polis şöbəsinin İB-də aparılan təhqiqat nəticəsində də torpaq sahəsinin satılması mövzusu ətrafında tərəflərin arasında dava-dalaş olması və cavabdehin və onun yaxınlarının Ələmşah Ələsgərova qarşı zor tətbiq etmələri təkzib edilməmişdir. Hətta Mingəçevir şəhər prokurorunun 18 iyun 2014-cü il tarixli qərarı ilə Ələsgərov Ələmşah İsbəndiyar oğlunun 07.04.2008-ci il tarixdə satın alaraq mülkiyyətinə keçirdiyi 3585,6 kv.metr torpaq sahəsinin 2030,60 kv.metrinin zorla Paşayeva İradə Ehsan qızının mülkiyyətinə keçirilməsi faktında CM-nin

182.1-ci maddəsində nəzərdə tutulan hədə-qorxu ilə tələb etmə cinayətinin əlamətləri olduğundan fakta görə həmin maddə ilə cinayət işi başlanmışdır.

Məhkəmə kollegiyası tərəflərin arasında 24.09.2012-ci il tarixdə bağlanmış alqı-satqı müqaviləsinin MM-nin 340-cı (Uydurma və yalan əqdlərin etibarsızlığı) maddəsində nəzərdə tutulan uydurma və yalan əqd olması ilə əlaqədar qeyd etmişdir ki, iddiaçı Ələsgərov Ələmşah İsbəndiyar oğlu ilə cavabdeh Paşayeva İradə Ehsan qızı arasında iddiaçının mülkiyyətində olan, Mingəçevir şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında 0,35856 ha torpaq sahəsində yerləşən əmlak kompleksinin şərq tərəfindən 2030,60 kv.m torpaq sahəsinin (tərtib olunmuş bölgü planı üzrə) alqı-satqısına dair Mingəçevir şəhər 2 saylı Xüsusi notariat kontorunda təsdiqlənmiş 24 sentyabr 2012-ci il tarixli AN-I seriyalı 0314388 nömrəli müqavilə qanuna uyğun surətdə, yəni iddiaçının könüllü, sərbəst və azad iradə ifadəsi əsasında deyil, başqa əqdi pərdələmək məqsədilə bağlanmışdır. Məhkəmə Kollegiyası bu zaman MPM-nin 337.1, 337.2, 337.4, 340.1, 340.2-ci maddələrinə əsaslanmışdır.

Məhkəmə kollegiyası hüquqi müəyyənlik prinsipi baxımından mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutaraq 24 sentyabr 2012-ci il tarixli AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsi bağlanılarkən iddiaçının izahatı ilə şahidlər Arif Paşayevin, Elçin Ələsgərovun ifadələri arasındakı ziddiyyətlər aydınlaşdırmaq məqsədi ilə qeyd etmişdir ki, Elçin Ələsgərov məhkəmə kollegiyasının iclasında ifadə verərkən qeyd etmişdir ki, əmisi (əmisi oğlu Ələmşah Ələsgərov nəzərdə tutulur) ondan xahiş etdiyinə görə 10.000 manat pulu İradə Paşayevanın adından “Texnika Bank”a ödəmiş və səhəri günü Ələmşah Ələsgərov ilə birlikdə bankdan götürmüşlər. Yəni, pul onun olmuş və bu pulu banka o, ödəmişdir. Həmin torpaq sahəsinin alqı-satqısı müqaviləsini Ələmşah Ələsgərova hədə-qorxu gələrək məcbur edib bağlamışlar. Əmisi bunların hamısını özünə və ailəsinə xəsarət yetirilmə qorxusu olduğundan etmişdir.

Məhkəmə Kollegiyası bununla əlaqədar qeyd etmişdir ki, əqdin bağlanması üçün hər şeydən əvvəl daxili iradənin mövcud olması, daha sonra isə daxili iradənin digər şəxslərə bildirilməsi, elan olunması lazımdır ki, bu da iradə ifadəsi formasında həyata keçirilir. İradə ifadəsinin aydın olmaması, bəyan edilməməsi nəticəsində yaranmış mülki hüquq münasibətləri heç bir hüquqi nəticələr yaratmır. İşin məhkəmə tərəfindən müəyyən edilmiş hallarından göründüyü kimi, alqı-satqı müqaviləsi üzrə şəxslər tərəfindən qeyd edilən hərəkətlər həyata keçirilməmişdir.

Belə ki, əvvəla, iddiaçıya qarşı torpağın alqı-satqı müqaviləsini bağlamağa məcbur edilməsi məqsədilə bu və ya digər şəkildə fiziki və digər təsirlər edilməsi, şahidlər Quliyev İsmi Ehsan oğlu, Məhərrəmov Fikrət İbrahim oğlu, Ələsgərov Elçin Dilən oğlu, Hümbətov Teymur Telman oğlu, Sadıqov Nəsrəddin Nüsrəddin oğlu, Şərifov Mais Abdulla oğlu, Novruzov Məzahir Yusifəli oğlu, Ələsgərov Ədalət İsbəndiyar oğlu və Ələsgərov Fazil Dilən oğlunun ifadələrində təsdiqini tapmışdır.

Bundan başqa, işdəki məhkəmə qərarlarında olan faktiki hallara dair məlumatlardan görünür ki, 24 sentyabr 2012-ci il tarixdə alqı-satqı müqaviləsi bağlanandan sonra Ələmşah Ələsgərov həmin müqaviləni mübahisələndirmək qərarına gəlmiş və 2013-cü ilin iyununda Şəki İnzibati-İqtisadi Məhkəməsində DƏDRX-nin Yevlax Ərazi İdarəsinə qarşı Paşayeva İradə Ehsan qızının adına verilmiş çıxarışın ləğv edilməsi və Mingəçevir şəhəri, M.Rəhimov küçəsində yerləşən 35885,6 kv.m torpaq sahəsinin adına rəsmiləşdirilməsi tələbinə dair iddia qaldırmış, Məhkəmənin 18 iyul 2013-cü il tarixli qərardadına əsasən həmin iddia mümkün sayılmamışdır. Ələmşah Ələsgərovun məhz bu dövrdə iddia qaldırmasına səbəb ona hədə-qorxu gəlib mülkiyyətində olan torpaq sahəsinin bir hissəsini “satmağa” (verməyə) məcbur etmiş şəxslərin özləri arasında həmin torpaqla (torpağın bölüşdürülməsi ilə) bağlı mübahisə və qarşıdurmanın yaranması olmuşdur. Ələmşah Ələsgərovdan torpaq sahəsinin məcburi alınmasında iştirak edən İsmi Quliyev sonradan aldadıldığını başa düşüb həmin dövrdə Mingəçevir Şəhər Məhkəməsində Arif Paşayev və qeyrilərinə qarşı torpaq və pul tələbinə dair iddia qaldırmış, onun iddiası təmin edilməmişdir. Belə vəziyyətdə Ələmşah Ələsgərov üçün ondan zorla alınmış torpaq sahəsinin geri tələb edilməsindən ötrü əlverişli

şərait yaranmış və o, hədə-qorxu və zor tətbiqi təhlükəsinin daha aradan qalxdığı qənaətinə gələrək, alqı-satqı müqaviləsini məhkəmə qaydasında mübahisələndirməyə, eyni zamanda, ona qarşı törədilmiş zorakılıq və əmlakının qanunsuz tələb edilməsi faktları ilə bağlı hüquq-mühafizə orqanlarına şikayətlər verməyə başlamışdır. Hər bir halda Ələmşah Ələsgərov məcburən bağladığı alqı-satqı müqaviləsini mübahisələndirmək üçün MM-nin 354.2-ci maddəsində nəzərdə tutulmuş müddəti ötürməmişdir.

İşin həqiqi hallarından göründüyü kimi, Ələmşah Ələsgərov ilə cavabdehin əri Arif Paşayevin aralarında əsası təqribən 2002-ci ildə qoyulan ortaqlıq səviyyəsində iş birliyi olmuşdur. Arif Paşayev Ələmşah Ələsgərovun razılığı və köməyi ilə sözügedən torpaq sahəsində yerləşən Mingəçevir avtonəqliyyat bazasının binasında əvvəl boş şüşə butulkalarının qəbulu ilə məşğul olmuş, sonra isə birlikdə orada limonad sexi yaratmışlar. Tərəflərin həmin fəaliyyətlə 2012-ci ildə torpaq sahəsi üstündə aralarında mübahisə yaranana kimi birlikdə, ortaq kimi məşğul olmaları işin danılmaz halıdır. Tərəflər Ələmşah Ələsgərovun rəhbəri olduğu Gəncə Təsərrüfat hesablı avtonəqliyyat bazasının Mingəçevir avtonəqliyyat bazasının Mingəçevir şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında yerləşən əmlak kompleksinin, o cümlədən kompleksin cəmi 35885,6 kv.m. olan torpaq sahəsinin özəlləşdirilməsini birlikdə həyata keçirmişlər. Bununla bağlı Ələmşah Ələsgərov və Arif Paşayev bir-birinə 02.01.2004-cü il tarixli və 05.09.2008-ci il tarixli etibarnamələr vermiş, bir-birlərinə borclu olmamaları haqqında 11 sentyabr 2012-ci il tarixli qəbzlər tərtib etmişər. Cavabdeh İradə Paşayeva və əri Arif Paşayev torpaq sahəsinin özəlləşdirilməsi üçün külli miqdarda pul xərclədiklərini, hətta bunun üçün şəxsi evlərini belə sataraq pulunu həmin iş üçün sərf etdiklərini, Ələmşah Ələsgərovun isə onları aldadaraq torpağı yalnız öz adına sənədləşdirdiyini, özəlləşməyə qoyduqları pulun əvəzində torpaq sahəsinin yarısını Ələmşahdan tələb etdiklərini, həmin çəkdikləri xərcin əvəzində Ələmşahın 24.09.2002-ci il tarixli alqı-satqı müqaviləsi ilə onlara torpaq sahəsi satdığını izahat və ifadələrində dəfələrlə bildirmişlər.

Ələmşah Ələsgərov Mingəçevir Şəhər Məhkəməsiin sədrinə ünvanlanmış 05 sentyabr 2012-ci il tarixli ərizəsində 2004-cü ildə tanışı Paşayev Arif Möylam oğlu ilə eyni məbləğdə pul vəsaiti qoyaraq sözügedən avtomobil sahəsini aldıqlarını, həmin torpaq sahəsinin özəlləşməsi zamanı aralarında olan razılaşmaya əsasən torpaq sahəsinin mülkiyyətə verilməsini təsdiq edən şəhadətnamənin onun adına verilməsini bildirərək aralarında olan razılaşmaya əsasən aldıqları torpaq sahəsinin 20 sot hissəsini onun  Arifin adına notariat qaydada rəsmiləşdirəcəyini və buna görə də Arif Paşayevin 20 sot torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən şəhadətnamə ona verilənə qədər birgə aldıqları torpaq sahəsi ilə bağlı özünün heç bir notariat hərəkəti həyata keçirməyəcəyini öhdəsinə götürmüşdür.

Məhkəmələrdə işə baxılarkən cavabdeh İradə Paşayevanın və əri Arif Paşayevin verdikləri izahat və ifadələrdən də görmək olur ki, onların iddiaçı Ələmşah Ələsgərovdan torpaq tələbləri olmuş və bu tələb mübahisəli torpaq sahəsinə dair alqı-satqı müqaviləsinin bağlanması ilə nəticələnmişdir. Paşayevlər tələb hüquqlarını onunla əsaslandırmışlar ki, onlar Mingəçevir avtomobil dəstəsinin istifadəsində olmuş torpaq sahəsinin özəlləşdirilməsi üçün Ələmşah Ələsgərova 32.000 ABŞ dolları məbləğində pul vermiş və həmin torpaq sahəsini şərikli almışlar, lakin Ə.Ələsgərov torpaq sahəsini təkcə öz adına sənədləşdirmiş və onların torpaq payını verməkdən boyun qaçırmağa başlamışdır.

Göstərilənlərə əsasən, apellyasiya məhkəməsi hesab etmişdir ki, Ələmşah Ələsgərovla Arif Paşayevin aralarında mübahisəli torpaq sahəsində yerləşən əmlak kompleksində mövcud olan limonad sexi, daha əvvəl isə tara qəbulu ilə bağlı ortaqlıq münasibəti yaranmış, həmin münasibət zəminində, daha dəqiqi isə Gəncə Təsərrüfat hesablı avtonəqliyyat bazasının Mingəçevir avtonəqliyyat bazasının Mingəçevir şəhəri, M.Rəhimov küçəsi, 11 ünvanında yerləşən əmlak kompleksinin cəmi 35885,6 kv.m. olan torpaq sahəsinin özəlləşdirilməsi üçün tərəflər birlikdə pul sərf etmiş, cavabdeh İradə Paşayevanın və sonuncunun əri Arif Paşayevin bildirməsinə görə, onlar bu işə 32000 ABŞ dolları miqdarında pul vəsaiti xərcləmiş, bunun

müqabilində isə sözügedən torpaq sahəsinin bir hissəsi olan 2030,60 m2 hissəsinin satılması barədə Mingəçevir şəhəri 2 saylı xüsusi notariat kontorunda 24 sentyabr 2012-ci il tarixli AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsi bağlanılmışdır.

Apellyasiya instansiyası məhkəməsinin Mülki Kollegiyası qeyd etmişdir ki, əslində həmin müqavilə bağlanan zaman tərəflərin həqiqi niyyəti torpaq sahəsinin alqı-satqısı olmamış, tərəflər bu niyyətlə notariat kontoruna getməmiş, tərəflərin həqiqi niyyəti ortaqlıq zamanı yaranmış bir-birilərinə olan pul borcunun əvəzləşdirilməsi olmuşdur. Ələmşah Ələsgərovun həmin müqaviləni bağlamasına cavabdehin və onun ailə üzvlərinin onun şəxsiyyəti üzərində zor göstərərək, onu təhqir edərək, onu və ailəsini öldürmə, əmlakını tələf etmə hədəsi ilə müşayiət olunan zorakılıq etmələrinin də təsirinin olması istisna olunmur və göründüyü kimi, tərəflər arasında bağlanmış alqı-satqı müqaviləsi tərəflərin həqiqi niyyətini əks edirmir. Tərəflərin həmin müqaviləni bağlamaqda məqsədləri əslində aralarında ortaqlıq zəminində yaranmış münasibətləri pərdələmək olmuşdur. Həmin müqavilənin bağlanması Ələmşah Ələsgərovun iradəsinə uyğun olmamış və onun həqiqi iradəsini əks etdirməmişdir. Ona görə də kollegiyaya görə 24 sentyabr 2012-ci il tarixli AN-I seriyalı 0314388 saylı alqı-satqı müqaviləsi etibarlı müqavilə hesab edilə bilməz.

Göstərilənləri hüquqi cəhətdən qiymətləndirən apellyasiya instansiyası məhkəməsinin məhkəmə kollegiyası iddianın təmin edilməsi barədə nəticəyə gəlmişdir.

İş üzrə apellyasiya instansiyası məhkəməsinin gəldiyi nəticə ilə razılaşmayan Ali Məhkəməsinin Mülki Kollegyası qeyd etmişdir ki, işə apellyasiya qaydasında baxan məhkəmə kollegiyası tərəfindən Ali Məhkəmənin icrası məcburi olan göstərişlərinə əsasən əməl edilmiş olsa da, iş üzrə müəyyən edilmiş xüsusatlar tam və hərtərəfli araşdırılmamış və nəticəsinə mötəbərlilik baxımından düzgün hüquqi qiymət verilməmişdir.

Belə ki, işə apellyasiya qaydasında baxılarkən şahid qismində dindirilmiş Elçin Ələsgərov izahatında bildirmişdir ki, müəssisəyə məxsus 2030,60 kv.m torpaq sahəsinin İradə Paşayevaya satılmasında o, da iştirak etmiş və torpaq sahəsinin dəyəri olan 10.000 manat pulu o, özü İradə Paşayevanın adından banka ödəmiş və səhərisi gün Ələmşahla Banka gəlib pulu almışlar.

Apellyasiya məhkəməsi bu izahatı mötəbər sübut qiymətləndirərək qəbul etmiş və bununla əlaqədar qeyd etmişdir ki, satıcı və alıcı kimi çıxış edən Ələmşah Ələsgərovla İradə Paşayeva 2 saylı Notariat Kontorunda, notarial qaydada alqı-satqı müqaviləsi bağlasalar da, işin müəyyən edilmiş halları ilə nəzərdə tutulmuş 10000 manat pulun alıcı tərəfindən satıcıya verilməsi qəbzdə göstərilsə də, həmin pul İradə Paşayeva tərəfindən deyil, Elçin Ələsgərov tərəfindən Banka ödənilmişdir və bununla əlaqədar məhkəmə kollegiyası belə bir qənaətə gəlmişdir ki, 24.09.2012-ci il tarixdə mübahisəli torpaq sahəsini Ələmşah Ələsgərov heç də könüllü, sülh şəraitində, tərəflərin qarşılıqlı razılığı ilə satmamışdır. Məhkəmə kollegiyası bu faktın iş üzrə şahid ifadələri ilə də təsdiq olunduğunu qeyd etmişdir.

Bununla əlaqədar Ali Məhkəmənin Mülki Kollegiyası vurğulamışdır ki, əgər mübahisəli torpaq sahəsini Ələmşah Ələsgərov heç də könüllü, sülh şəraitində, tərəflərin qarşılıqlı razılığı ilə satmamışdırsa onda, həmin torpaq sahəsinin dəyərinin şahid Elçin Ələsgərov tərəfindən Bank vasitəsi ilə İradə Paşayevanın əvəzindən Ələmşah Ələsgərova ödənilməsinin mənası nə olmuşdur? Elçin Ələsgərovu bu hərəkəti etməyə kim vadar etmişdir? Başqa sözlə, mübahisəli torpaq sahəsinin İradə Paşayevaya satılmasına Ələmşah Ələsgərov məcbur edilirdisə və bunu Elçin Ələsgərov bilirdisə, onda nə üçün Elçin Ələsgərov həmin torpaq sahəsinin dəyərini həm də İradə Paşayevanın əvəzindən Banka ödəməli olurdu?

Bundan əlavə, torpağın alqı-satqı müqaviləsi üzrə alıcı tərəfindən üzərinə düşən öhdəliyi yerinə yetirilməyərək müqavilədə nəzərdə tutulmuş pul məbləğinin ödənilməməsi həmin müqavilənin ləğvinə səbəb olur.

İş materiallarından görünür ki, torpağın alqı-satqı müqaviləsinin ləğv olunmasına dair iddiaçı tərəfindən əvvəl birinci instansiya məhkəməsində iddia qaldırılmış, bununla əlaqədar birinci instansiya məhkəməsinin 14 fevral 2014-cü il tarixli qətnaməsi ilə iddia tələbi təmin olunmamışdır.

Birinci instansiya məhkəməsinin həmin qətnaməsi Şəki Apellyasiya Məhkəməsinin 17 iyul 2014-cü il tarixli qətnaməsi ilə dəyişdirilmədən saxlanılmışdır. Həmin qətnamələrlə torpağın alqı-satqısına dair 24 sentyabr 2012-ci il tarixli müqavilənin qanunun tələblərinə uyğun olaraq bağlandığı qeyd olunmuşdur.

Hazırkı iş üzrə iddia tələbi əvvəlki iddia tələbindən fərqli olaraq müqavilənin etibarsızlığı ilə əlaqədar verilmişdir.

Qüvvədə olan mülki qanunvericiliyə görə, müddətin keçməsinə görə müqavilənin ləğv edilməsi üzrə tələblərə iddia müddəti tətbiq oluna bilər, müqavilənin etibarsızlığına dair tələblərə isə bundan fərqli olaraq qanunda nəzərdə tutulan "kəsici müddətlər" tətbiq edilməlidir.

Belə ki, MM-nin 354.2-ci maddəsinə görə maraqlı şəxs əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində əqdi mübahisə edə bilər.

Ali Məhkəmənin Mülki Kollegiyası Mülki Məcəllənin həmin maddəsinin hüquqi mahiyyəti ilə əlaqədar qeyd etmişdir ki, etibarsız əqdlər üzrə müddətlər qanunvericlik tərəfindən iddia müddəti kimi müəyyən edilməmişdir. 24 iyun 2005-ci il tarixdə qəbul edilmiş və 01 noyabr 2005-ci il tarixdə qüvvəyə minən "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 949-IIQ nömrəli Qanunu ilə 354-cü maddənin adında "iddia müddətləri" sözləri "müddətlər" sözü ilə, 354.1-ci maddəsində "on gün" sözləri "bir il" sözləri ilə əvəz edilmiş və 354.2-ci maddəsinə "Bu Məcəllənin 347.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, maraqlı şəxs əqdin bağlanmasına təsir etmiş zorakılığa və ya hədəyə son qoyulduğu gündən və ya əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində əqdi mübahisə edə bilər.

Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd mübahisəyə əsasın məlum olduğu andan bir ay ərzində mübahisə edilə bilər" redaksiyası verilmişdir.

Yuxarıda qeyd olunduğu kimi, MM-nin 354.2-ci maddəsinə əsasən, maraqlı şəxs əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində əqdi mübahisə edə bilər. Bu isə onu nəzərdə tutur ki, maraqlı şəxs əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi gündən bir il ərzində həmin əqdin etibarsızlığını mübahisə etmək hüququna malikdir. Həmin müddət keçdikdən sonra isə maraqlı şəxs bu hüququnu itirir.

Göründüyü kimi qeyd olunan müddət hüququn itirilməsi ilə bağlı olmaqla iddia müddətlərinə aid deyil, kəsici müddətlərə aiddir. Bununla bağlı iddia müddətinin tətbiqi ilə bağlı ərizənin verilməsinə zərurət də yoxdur.

Qanunvericliyə edilmiş dəyişikliklərdən müəyyən edilir ki, həmin müddətlər iddia müddəti kimi nəzərdə tutulmamış və iddia müddəti kimi nəzərdə tutulmadığından həmin müddətlərin tətbiq edilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci maddəsi ilə müəyyən edilmiş mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında deyil, məhkəmə tərəfindən müəyyən edildiyi halda məhkəmənin özü tərəfindən tətbiq edilməlidir.

İş materiallarından göründüyü kimi, torpağın alqı-satqısına dair müqavilə 24 sentyabr 2012-ci ildə bağlanıldığı halda, həmin müqavilənin etibarsızlığına dair hazırkı iş üzrə iddia tələbi ilə məhkəməyə 12 noyabr 2014-cü ildə müraciət olunmuşdur.

Apellyasiya instansiyası məhkəməsi yuxarıda qeyd olunan maddi hüquq normalarının tələblərini nəzərə almamış və məhkəmə araşdırmasını mülki-prosessual qanunvericiliyin tələblərinə uyğun aparmamaqla iş üzrə müəyyən edilmiş halları yuxarıda qeyd olunan maddi hüquq normaları baxımından düzgün qiymətlədirməmişdir.

Şərh olunanlara əsaslanaraq kassasiya kollegiyası iş üzrə qəbul etdiyi qərarla cavabdeh İ.E.Paşayevanın kassasiya şikayətini qismən təmin edərək Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 26 aprel 2017-ci il tarixli qətnaməsini ləğv etmiş və işi yenidən apellyasiya qaydasında baxılması üçün Şəki Apellyasiya Məhkəməsinə qaytarmışdır.

## CİNAYƏT İŞLƏRİ ÜZRƏ MƏHKƏMƏ TƏCRÜBƏSİNDƏN

### Şəxsin əməlində cinayət hadisəsinin müəyyən edilməməsi ilə bağlı cinayət işinin başlanmasının rədd edilməsi haqqında təhqiqatçının ləğv edilməmiş qərarı olduğu halda təqsirləndirilən şəxsə həmin əmələ görə də ittihamın elan olunması və zərər çəkmiş şəxs məhkəmə iclasdarında dindirilmədiyindən təqsirləndirilən şəxslərin ədalətli məhkəmə araşdırması hüququnun pozulması apellyasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsinə əsas olmuşdur.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 mart 2016-cı il tarixli hökmü ilə Əliyeva Tahirə Xasay qızı və Hüseynov Vasif Yolçu oğlu, hər birisi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra mətndə CM-nin) 178.3.2-ci maddəsi təqsirli bilinib T.X.Əliyeva 09 (doqquz) il müddətə, V.Y.Hüseynov isə 08 (səkkiz) il 06 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişlər.

Məhkəmənin hökmünə əsasən, Hüseynov Vasif Yolçu oğlu qabaqcadan əlbir olan bir qrup şəxs halında etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirərək zərərçəkən şəxsə külli miqdarda ziyan vurmaqla təkrarən dələduzluq etmişdir.

Belə ki, Hüseynov Vasif Yolçu oğlu tamah niyyəti ilə özgənin xeyli miqdarda əmlakını aldatma və etibardan sui-istifadə etmək yolu ilə ələ keçirmək barədə tanışı Əliyeva Tahirə Xasay qızı ilə əvvəlcədən razılaşıb cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs təşkil etmiş, bu məqsədlə cinayətkar plana uyğun olaraq Tahirə Əliyeva onunla birgə açacaqları lombarda Quliyeva Mətanət Vahid qızını işə qəbul edəcəklərini yalandan vəd verib aldatmış, Vasif Hüseynov 2013-cü ilin aprel ayında Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 14, 533-cü məhəllədə yerləşən «Beynəlxalq» Bankın Yasamal filialının inzibati binasının qarşısında Mətanət Quliyevanın 7.000 manat pulunu etabardan sui-istifadə etməklə ələ keçirib aralarında olan cinayətkar sövdələşməyə əsasən qrupun digər üzvü Tahirə Əliyeva ilə bölüşərək şəxsi ehtiyaclarına sərf edib zərər çəkmiş şəxs Mətanət Quliyevaya 7.000 manat məbləğində xeyli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

Bundan başqa o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin külli miqdarda əmlakını - 65.000 manat nağd pulunu ələ keçirmək barədə tanışı Əliyeva Tahirə Xasay qızı ilə əvvəlcədən razılaşıb cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs təşkil etmiş, bu məqsədlə cinayətkar plana uyğun olaraq Tahirə Əliyeva Laçın rayonundan məcburi köçkün kimi Bakı şəhərində müvəqqəti məskunlaşmış Gülməmmədova Gövhər Mehdi qızına Bakı şəhəri, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, E.Babayev küçəsi, 4 nömrəli evin 138,6 kv metr sahəsi olan 77 nömrəli 3 otaqlı mənzilini «Fortuna-N» şirkəti vasitəsi ilə alqı-satqısını təmin edəcəyini yalandan vəd edib aldatmış, 29 avqust 2013-cü il tarixdə Bakı şəhəri, Xəzər rayonu, Qala qəsəbəsində Gövhər Gülməmmədovadan 85.000 manat pulu alıb bundan həmin gün 20.000 manatını Bakı şəhəri, Nəsimi rayonu, 28 may metrosunun yaxınlığında yerləşən «Fortuna-N» şirkətinin ofisində mənzilin sahibi Şirəliyev Mahmud Eldar oğluna beh olaraq ödəmiş, qalan 65.000 manatını Vasif Hüseynov qrupun digər üzvü Tahirə Əliyeva ilə birlikdə aldatma və etibardan sui-istifadə etməklə ələ keçirib cinayətkar plana uyğun olaraq şəxsi ehtiyaclarına sərf edib zərərçəkmiş şəxs Gövhər Gülməmmədovaya 65.000 manat məbləğində külli miqdarda ziyan vurmaqla təkrarən dələduzluq etmişdir.

Hökmdən məhkum V.Y.Hüseynovun müdafiəçisi Səmədov Zaman Afrad oğlu, məhkum T.X.Əliyeva, zərər çəkmiş şəxslər Əhmədov Arif Qubat oğlu, Gülməmmədova Gövhər Mehti qızı, Hüseynova Tahirə Bahatur qızı tərəfindən verilmiş apellyasiya şikayətlərinə əsasən işə baxan Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 18 may 2017-ci il tarixli qərarı ilə apellyasiya şikayətləri təmin edilməmiş, hökm isə dəyişdirilmədən saxlanılmışdır.

Həmin qərardan zərər çəkmiş şəxslər G.M.Gülməmmədova, T.B.Hüseynova, zərər çəkmiş şəxsin hüquqi varisi Əhmədova Vəfa Vahid qızı, məhkum T.X.Əliyeva və məhkum V.Y.Hüseynovun müdafiəçisi Quliyev Feyruz Məhərrəm oğlu kassasiya şikayətləri vermişlər.

Kassasiya şikayətlərinə əsasən işə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası aşağıdakıları müəyyən etmişdir:

Cinayət işinin materiallarında olan Bakı şəhəri, Yasamal rayonu 27-ci PB-nin təhqiqatçısının 29 noyabr 2013-cü il tarixli qərarından görünür ki, T.X.Əliyevanın ərizəsi əsasında toplanmış material üzrə cinayət işinin başlanması rədd edilmişdir. Həmin qərarda göstərilir ki, T.X.Əliyeva Yasamal RPİ-nin 27-ci PB-nə ərizə ilə müraciət edərək bildirmişdir ki, 2013-cü ilin sentyabr ayında əvvəllər tanıdığı Vasif adlı şəxs biznes qurmaq məqsədilə ondan hissə-hissə 80.000 manat pul alıb geri qaytarmamışdır. Bir neçə ildir ki „Tərəkəmə" kredit ittifaqının idarə heyətinin sədri kimi tanıdığı Vasif adlı şəxs ondan yeni bank açmaq və orada onu da hər hansı bir işlə təmin etmək məqsədilə pul istədikdə onunla razılaşaraq Yasamal rayonu. İnşaatçılar prospektində yerləşən Beynəlxalq bankın filialının qarşısında Vasifə hissə-hissə 80.000 manat pul vermişdir. Araşdırma zamanı izahatı alınmış Hüseynov Vasif Yalçın oğlu bildirmişdir ki, bir neçə ildir ki „Tərəkəmə" kredit ittifaqının idarə heyətinin sədri vəzifəsində çalışır. 2011-ci ilin iyul ayında biznes qurmaq məqsədilə T.X.Əliyeva ondan əvvəlcə 16.000 manat, daha sonra isə lombarda qoyduğu qızıllarını oradan götürmək üçün müəyyən miqdarda pul almış və geri qaytarmamışdır. T.X.Əliyevanın ondan ümumilikdə 28.922 manat pul aldığını və hələ də ona borclu olduğunu bildirən V.Y.Hüseynov bu barədə Nəsimi RPİ-nin 19-cu PB-nə ərizə ilə müraciət etdiyini və onun barəsində yazılanların şər və böhtan olduğunu qeyd etmişdir. Beləliklə, təhqiqatçı belə nəticəyə gəlmişdir ki, T.X.Əliyevanın V.Y.Hüseynov barəsində verdiyi şikayət ərizəsində göstərilən hallarda cinayət hadisəsi müəyyən edilmədiyindən cinayət işinin başlanması rədd edilməli və Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 31.01.2002-ci il, 1 nömrəli qərarınının tövsiyələrinə uyğun olaraq onların mübahisələri mülki qanunvericilik əsasında tənzim olunmalıdır.

Buna görə, təhqiqatçının 17 aprel 2014-cü il tarixli qərarı ilə T.X.Əliyevanın ərizəsi əsasında toplanmış materiallar üzrə cinayət işinin başlanması yenidən rədd edilmişdir.

T.X.Əliyeva ifadələrində həmin faktla bağlı göstərmişdir ki, 2013-cü ilin sentyabr ayı ərzində Vasif Hüseynova hissə-hissə 80 min manat pul vermişdir. Həmin pulun 65 min manatı Gövhər Gülməmmədovanın, qalanı isə onun olub. Bu məbləğdə pulu ona verməkdə məqsədi açacağı bank və lombardda birlikdə işləyib pul qazanmaq olmuşdur. Vasif Hüseynova verdiyi pulu ondan geri almaq üçün 27-ci PB-ə 2013-cü ilin oktyabrında şikayət ərizəsi vermiş, ərizə ilə bağlı təhqiqatçı araşdırma aparmış, lakin fakt təsdiqini tapmamışdır.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra mətndə CPM-nin) 39.1.7-ci maddəsinə əsasən şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işinin başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarı olduqda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir).

CPM-nin 65.1 və 65.5-ci maddələrinin tələblərindən görünür ki, cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Cinayət prosesini həyata keçirən orqanın qərarı, şəxsin cinayət təqibini istisna edən qərarlardan başqa, hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarılması ilə əlaqədar məcburi qüvvəyə malik deyildir. Məhkəmə cinayət təqibinə xitam verilməsi haqqında təhqiqatçının, müstəntiqin və ya prokurorun qərarını məhkəmə nəzarəti funksiyalarını həyata keçirərkən ləğv edə bilər, məhkəmə baxışı nəticəsində isə həmçinin xüsusi qərar çıxara bilər.

Qanunun bu tələblərinə baxmayaraq istər birinci, istər sə də apellyasiya instansiyası məhkəməsi cinayət işinin başlanmasının rədd edilməsi barədə Bakı şəhəri Yasamal RPİ-si 27-ci PB-nin təhqiqatçısının 29 noyabr 2013-cü il

tarixli və 17 aprel 2014-cü il tarixli qərarlarının mötəbərliyini, həmin qərarlar qüvvədə olmaqla onların ləğv edilməməsini, belə olan halda V.Y.Hüseynova qeyd edilən qərarlalrla cinayət hadisəsinin müəyyən edilmədiyi əməllərə görə ittihamın irəli sürülməsi mümkünsüzlüyünü nəzərə almamış və bu hala qanuna müvafiq qaydada hüquqi qiymət verməmişlər.

Müdafiə tərəfinin apellyasiya şikayətində bu barədə göstərilmiş dəlillərini apellyasiya instansiyası məhkəməsi diqqətdən kənarda qoymuşdur.

Bundan başqa cinayət işinin materialları ilə müəyyən edilir ki, həmin iş üzrə məhkəməyədək icraat zamanı müstəntiqin 19 aprel 2014-cü il tarixli qərarı ilə Quliyeva Mətanət Vahid qızı zərər çəkmiş şəxs qismində tanınmış və ona müvafiq protokol tərtib edilməklə hüquq və vəzifələri izah olunmuş, işə isə onun zərər çəkmiş şəxs qismində dindirilməsi barədə protokolun fotosurəti əlavə edilmişdir. Həmçinin işə M.Quliyevanın müxtəlif tarixlərdə yazılmış ərizələrinin surətləri də əlavə edilmişdir.

Lakin, həm birinci, həm də apellyasiya instansiyası məhkəmələrində Quliyeva Mətanət Vahid qızının iştirakı təmin edilmədiyindən və o, məhkəmə iclaslarında dindirilmədiyindən təqsirləndirilən şəxslərin də onu dindirmək hüquqları təmin edilməmişdir.

V.Y.Hüseynova elan olunmuş ittihamın Quliyeva Mətanət Vahid qızı ilə əlaqədar hissəsində göstərilir ki, o, tamah niyyəti ilə özgənin xeyli miqdarda əmlakını aldatma və etibardan sui-istifadə etmək yolu ilə ələ keçirmək barədə tanışı Əliyeva Tahirə Xasay qızı ilə əvvəlcədən razılaşıb cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs təşkil etmiş, bu məqsədlə cinayətkar plana uyğun olaraq Tahirə Əliyeva onunla birgə açacaqları lombarda Quliyeva Mətanət Vahid qızını işə qəbul edəcəyini yalandan vəd verib aldatmış, Vasif Hüseynov 2013-cü ilin aprel ayında Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 14, 533-cü məhəllədə yerləşən «Beynəlxalq» Bankın Yasamal filialının inzibati binasının qarşısında Mətanət Quliyevanın 7.000 manat pulunu etabardan sui-istifadə etməklə ələ keçirib aralarında olan cinayətkar sövdələşməyə əsasən qrupun digər üzvü Tahirə Əliyeva ilə bölüşərək şəxsi ehtiyaclarına sərf edib zərər çəkmiş şəxs Mətanət Quliyevaya 7.000 manat məbləğində xeyli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

CPM-nin 19.4.5-ci maddəsinə əsasən. cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada onun əleyhinə ifadə vermiş şahidləri məhkəmə istintaqı zamanı dindirmək hüququnu təmin etməlidir.

"İnsan Hüquqlarının və Əsas Azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının (bundan sonra mətndə Konvensiyanın) 6-cı maddəsinin 3 (d) bəndinə görə, cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir: onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq.

Göründüyü kimi cinayət işinə birinci və apellyasiya instansiyası məhkəmələrində baxılarkən V.Y.Hüseynovun və T.X.Əliyevanın CPM-nin 19.4.5-ci maddəsi və müvafiq olaraq Konvensiyanın 6-cı maddəsinin 3(d) bəndinin tələbləri pozulmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası bu pozuntuları apellyasiya instansiyası məhəməsinin qərarının ləğv edilməsi üçün CPM-nin 416.0.1, 416.0.2 və 416.0.11-ci maddələrində nəzərdə tutulmuş əsaslar kimi qiymətləndirərək cinayət işi üzrə Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 18 may 2017-ci il tarixli qərarının zərərçəkmişlər Gülməmmədova Gövhər Mehti qızına və Quliyeva Mətanət Vahid qızına qarşı törədilmiş cinayət epizodları üzrə və məhkumlar Əliyeva Tahirə Xasay qızına və Hüseynov Vasif Yolçu oğluna cəza təyin edilməsinə dair hissələrdə ləğv edilməsi və işin həmin hissələrdə yeni apellyasiya baxışına təyin olunması haqqında qərar qəbul etmişdir.

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsi və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinin IV hissəsi nəqliyyat vasitəsini idarə edən şəxsin yol nəqliyyat hadisəsi yerində qalmaq vəzifəsini, onun baş vermiş hadisədə özünü təqsirli saymasından deyil, yol nəqliyyat hadisəsinin iştirakçısı olmasını bilib dərk etməsindən asılı edir.

Abşeron Rayon Məhkəməsinin 03 iyun 2016-cı il tarixli hökmü ilə Əsgərov Vəli Əsgər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra mətndə CM-nin) 263.2-ci maddəsi ilə təqsirli bilinib 2 (iki) il müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 4 (dörd) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Eyni zamanda Vəli Əsgərov CM-nin 264-cü maddəsində nəzərdə tutulmuş cinayətin törədilməsində təqsirsiz hesab edilmiş, əməlində cinayət tərkibi olmadığından, həmin maddədə ilə ona bəraət verilmişdir.

Həmin hökmlə həmçinin Rəhmanov Nadir Sabit oğlu CM-nin 263.2-ci maddəsi ilə təqsirli bilinib 2 (iki) il müddətə nəqliyyat vasitələrini idarə etmək hüququndan məhrum edilməklə 4 (dörd) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Cinayət təqibi orqanı tərəfindən Əsgərov Vəli Əsgər oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263.2 və 264-cü maddələri ilə ittiham irəli sürülmüşdür ona görə ki, o 10 dekabr 2015-ci il tarixdə, saat 08 radələrində texniki cəhətdən saz vəziyyətdə idarə etdiyi “Daewoo Espero” markalı, Az 20-DH-419 dövlət qeydiyyat nişanlı avtomobillə Bakı şəhəri istiqamətində hərəkətdə olarkən Bakı-Şamaxı-Yevlax yolunun Abşeron rayonu ərazisindən keçən 16-cı kilometrliyində, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinin 9-cu hissəsinin tələblərini pozaraq, yəni yol ayrıcından kənarda sola və ya geriyə dönərkən relssiz nəqliyyat vasitəsinin sürücüsü qarşıdan gələn nəqliyyat vasitələrinə yol verməli, bununla da hadisənin qarşısını almağa texniki imkanı olduğu halda, bunu etməyib, geriyə dönmək üçün nəzərdə tutulan yerdən Rəhmanov Nadir Sabit oğlunun texniki cəhətdən saz vəziyyətdə 60 km/saat sürətlə idarə etdiyi “Mitsubishi Pajero” markalı, Az 50-CF-896 dövlət qeydiyyat nişanlı avtomobillə hərəkətdə olarkən, Bakı şəhəri istiqaməti üçün nəzərdə tutulmuş hərəkət zolağına daxil olub hərəkətini davam etdirdikdən sonra sol sıranı boşaltmaq üçün avtomobili sağa manevr etdirib orta sıra ilə 30 km/saat sürətlə yoluna davam etmiş, N.Rəhmanov idarə etdiyi “Mitsubishi Pajero” markalı avtomobillə onun avtomobilinin sağ yan tərəfindən ötüb keçərkən həmin avtomobilin arxa sağ qanadının tin hissəsi ilə “Daewoo Espero” markalı avtomobilin arxa sol qapı hissəsi Bakı şəhəri istiqamətindəki hərəkət zolağında sürtündükdən sonra “Mitsubishi Pajero” markalı avtomobil 20 metr hərəkət edib yolun sağ kənarında dayanmış Qurbanov Yusif Qüdrət oğluna məxsus “Mercedes Benz C200” markalı, Az 99-GM-625 dövlət qeydiyyat nişanlı avtomobilin sol tərəfində dayanan piyada Əhmədova Əlvan Möylə qızını avtomobilin qabaq sağ tərəfi ilə vurmuş və idarəetməni itirərək avtomobilin qabaq sağ qanadı “Mercedes Benz C200” markalı avtomobilin sol yan tərəfinə dəyərək toqquşmuş, Əsgərov Vəli Əsgər oğlu “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun 37-cı maddəsinin 4-ci hissəsinin tələblərini pozaraq hadisədən sonra zərərçəkmişə yardım göstərmədən və müvafiq icra hakimiyyəti orqanlarına xəbər vermədən və onların gəlməsini gözləmədən yol nəqliyyat hadisəsi yerindən qaçaraq ehtiyatsızlıqdan zərərçəkmiş şəxs Əlvan Əhmədovaya həyat üçün təhlükəli olan sağlamlığına ağır zərər vuran bədən xəsarətləri yetirməklə 20 dekabr 2015-ci il tarixdə, saat 10:00 dəqiqədə M.Ə.Mirqasımov adına Respublika Kliniki Xəstəxanasında ölməsinə, habelə “Mercedes Benz C200” markalı Az 99-GM-625 dövlət qeydiyyat nişanlı avtomobilin əzilərək sahibi Qurbanov Yusif Qüdrət oğluna 920 manat məbləğində, “Mitsubishi Pajero” markalı Az 50-CF-896 dövlət qeydiyyat nişanlı avtomobilin əzilərək Rəhmanov Nadir Sabit oğluna 2360 manat məbləğində ziyan yetirməsinə səbəb olmuşdur.

Abşeron Rayon Məhkəməsi Vəli Əsgərovun əməlində CM-nin 264-cü maddəsində nəzərdə tutulmuş cinayətin

tərkibinin olmaması haqqında nəticəyə gəlib, ittihamın həmin hissəsi üzrə ona bəraət vermişdir.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 03 mart 2017-ci il tarixli qərarı ilə dövlət ittihamçısı tərəfindən hökmdən verilmiş apellyasiya protesti və təqsirləndirilən şəxs V.Ə.Əsgərovun müdafiəçisi Alıyev Vahid Qurban oğlu tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməmiş, Abşeron Rayon Məhkəməsinin 03 iyun 2016-cı il tarixli hökmü Vəli Əsgərova aid hissədə dəyişdirilmiş, V.Ə.Əsgərovun həbsdə və ev dustaqlığında olduğu 1 (bir) il 12 (on iki) gün ona təyin edilmiş əsas cəzadan çıxılmış və onun üzərində əsas cəza olaraq 3 (üç) il 5 (beş) ay 18 (on səkkiz) gün müddətə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 03 mart 2017-ci il tarixli qərarından dövlət ittihamçısı kassasiya protesti verərək həmin protestini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi cinayət-prosessual qanunun sübutların tədqiqinə və qiymətləndirilməsinə dair normalarının tələblərini pozmaqla cinayət işinə baxıb, əsassız olaraq – yalnız təqsirləndirilən şəxs V.Ə.Əsgərovun ziddiyyətli ifadələrinə əsaslanmaqla onun əməlində CM-nin 264-cü maddəsində nəzərdə tutulmuş cinayətin tərkibinin olmaması haqqında nəticəyə gəlib ittihamın həmin hissəsi üzrə ona əsassız və qanunsuz olaraq bəraət vermiş, apellyasiya instansiyası məhkəməsi isə dövlət ittihamçısının apellyasiya protestini təmin etməyib həmin hissədə hökmü dəyişdirilmədən saxlamışdır.

Dövlət ittihamçısı kassasiya protestində göstərilənləri Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra mətndə CPM-nin) 416.0.2 və 416.0.15-ci maddələrində nəzərdə tutulmuş halları yaradan pozuntular (sübutların CPM-nin 143-146-cı maddələrinin tələblərinə müvafiq surətdə tədqiq edilməməsi və əməlin hüquqi tövsifində səhvin buraxılması) kimi qiymətləndirərək, həmin əsaslarla Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 03 mart 2017-ci il tarixli qərarının ləğv edilməsini, cinayət işinin apellyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası kassasiya protestinin dəlilləri ilə əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 03 mart 2017-ci il tarixli qərarının qanuniliyini və əsaslılığını yoxlayıb, araşdırmanın nəticələri olaraq aşağıdakıları qeyd etmişdir.

Abşeron Rayon Məhkəməsinin hökmündən və onunla razılaşan apellyasiya instansiyası məhkəməsinin qərarından görünür ki, məhkəmələr tərəfindən V.Ə.Əsgərova əməlində cinayət tərkibinin olmaması əsası ilə CM-nin 264-cü maddəsi ilə bəraət verilməsi üçün əsasən iki dəlil irəli sürülmüşdür.

Birincisi - məhkəmə hökmdə bəraətin verilməsinə əsas yaradan hal kimi ona istinad etmişdir ki, yol nəqliyyat hadisəsindən sonra Vəli Əsgərovun avtomobilində olmuş arvadı Sultan Əsgərovanın halı pisləşərək təzyiqi qalxmış, bu səbədən o, hadisə yerini tərk edib onu tibbi yardımın göstərilməsi üçün həkimə aparmışdır.

Məhkəmənin bəraətin verilməsi barədə qərarını əsaslandırdığı ikinci dəlil isə odur ki, CM-nin 264-cü maddəsinin nəzərdə tutduğu yol nəqliyyat hadisəsi yerindən qaçma cinayəti qəsdən törədilən cinayətdir, Vəli Əsgərov isə yol nəqliyyat hadisəsinin zərəçəkmiş Əhmədova Əlvan Möylə qızının ağır xəsarətlər alıb xəstəxanada ölməsinə birbaşa səbəb olmuş iştirakçısı deyildi və bu səbəbdən hadisə yerində (qabaqcadan) araşdırmanın sonrakı mərhələsində CM-nin 263.2-ci maddəsi ilə təqsirli bilinəcəyini görə bilməzdi. Cinayətin törədilmə hallarına (ötmə əməliyyatını düzgün aparmayan Nadir Rəhmanovun avtomobili onun idarə etdiyi avtomobilə sürtündükdən sonra yolun kənarında dayanmış piyada Əlvan Əhmədovanı vurduğuna) görə o, ağlabatanlıqla özünü həmin ağır nəticəyə səbəb olmuş yol nəqliyyat hadisəsində (yol hərəkəti qaydalarının pozuntusunda) təqsirli hesab etməyərək hadisə yerindən getmiş, yəni onun hərəkətlərində sözügedən cinayətin subyektiv cəhətini xarakterizə edən zəruri əlamət – cinayətin qəsdən törədilməsi (CM-nin 263.2-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin törədilməsində təqsirli olduğunu bilə-bilə yol nəqliyyat hadisəsi yerindən getməsi) mövcud olmamışdır.

Məhkəmə kollegiyası bəraətin əsasına qoyulmuş birinci dəlillə əlaqədar ilk növbədə qeyd etmişdir ki, CM-nin 264-cü maddəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş norma şəxsin yol nəqliyyat hadisəsi yerindən getməsinə bəraət qazandıran (onun həmin maddə ilə cinayət məsuliyyətinə cəlb olunmasını istisna edən) yeganə hal kimi “zərərçəkmiş şəxsə kömək göstərilməsi ilə əlaqədar” şəxsin yol nəqliyyat hadisəsi yerini tərk etməsini göstərir.

Lakin, CM-nin Xüsusi hissəsinin normaları tətbiq edilərkən Məcəllənin Ümimi hissəsinin normaları da nəzərdə saxlanılmalıdır.

Məsələyə bu aspektdən yanaşdıqda görünür ki, şəxsin CM-nin 264-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsini sitisna edən əsas qismində CM-in VIII fəslində əməlin cinayət olmasını aradan qaldıran hallar sırasında nəzərdə tutulmuş son zərurət vəziyyəti də çıxış edə bilər (CM-nin 38-ci maddəsi).

CM-nin 264-cü maddəsində nəzərdə tutulmuş əməllə əlaqədar son zərurət vəziyyəti o halda mövcud ola bilər ki, yol nəqliyyat hadisəsi yerini tərk etmədən, yəni başqa vasitələrlə şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin, cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq mümkün olmasın.

Yol nəqliyyat hadisəsi yerini tərk etmiş şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün zəruri olan daha bir şərt Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair” 10 aprel 2012-ci il tarixli qərarında göstərilmişdir. Bu şərt nəqliyyat vasitəsini idarə edərək yol nəqliyyat hadisəsi törətmiş şəxsin hadisə yerində şəxsiyyəti barədə məlumatları zərərçəkmiş şəxsə (tərəfə) bu və ya digər şəkildə çatdırmaq öhdəliyini yerinə yetirməsidir.

Belə ki, Konstitusiya Məhkəməsinin Plenumu həmin qərarda rəsmən belə təfsir vermişdir ki, “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin mənasına görə yol nəqliyyat hadisəsi törətmiş şəxs hadisə yerində qalaraq şəxsiyyəti barədə məlumatları zərərçəkmiş şəxsə (tərəfə) bu və ya digər vasitə ilə çatdırmaq öhdəliyi daşıyır. Bu öhdəliyə riayət etməklə nəqliyyat vasitəsini idarə edən şəxsin yol nəqliyyat hadisəsi yerini hər hansı bir səbəbdən tərk etməsi, o cümlədən zərərçəkmiş şəxsi tibb müəssisəsinə aparması hadisə yerindən qaçma kimi qiymətləndirilə bilməz”.

Göründüyü kimi, yol nəqliyyat hadisəsinin iştirakçısı olan nəqliyyat vasitəsinin sürücüsü hər hansı məqsədlə hadisə yerini tərk etməzdən əvvəl öz şəxsiyyətini bəlli etməlidir. Bundan başqa, istər Konstitusiya Məhkəməsi Plenumunun qərarında, istərsə də CM-nin 264-cü maddəsinin “Qeyd” hissəsində cinayət məsuliyyətini aradan qaldıran hal kimi istənilən şəxsə deyil, məhz yol nəqliyyat hadiəsindən zərər çəkmiş şəxsə köməklik göstərilməsindən, bu məqsədlə hadisə yerinin tərk edilməsindən bəhs olunur.

Hazırki işin müəyyən olunmuş hallarına görə isə yol nəqliyyat hadisəsindən zərər çəkmiş (ağır xəsarətlər almış və bu səbəbdən xəstəxanada ölmüş) şəxs Ə.M.Əhmədovadır ki, onu da V.Əsgərov deyil, yol nəqliyyat hadisəsinin ikinci iştirakçısı (“Mitsubishi Pajero” markalı avtomobilin sürcüsü) Nadir Rəhmənov xəstəxanaya aparmışdır. V.Əsgərov isə, özünün ifadəsinə görə, onun avtomobilində olmuş, hadisədən sonra halı pisləşərək təzyiqi qalxmış arvadı Sultan Əsgərovanı həkimə aparmış və məhz bu məqsədlə, həm də özünü bəlli etmədən yol nəqliyyat hadisəsi yerini tərk etmişdir.

CM-nin 38-ci maddəsində nəzərdə tutulmuş son zərurəti şərtləndirən əlamətlər prizmasından isə Sultan Əsgərovanın vəziyyəti və bununla bağlı öz hərəkətləri haqqında V.Əsgərovun verdiyi məlumatlar məhkəmə tərəfindən ümumiyyətlə təhlil edilməmiş, həmin məlumatların mötəbərliyi belə yoxlanılmamışdır.

Halbuki, bir tərəfdən həmin məlumatların səthiliyi və qeyri-müəyyənliyi, digər tərəfdən isə bu xüsusatla bağlı Vəli Əsgərovun icraatın müxtəlif mərhələlərində verdiyi izahat və ifadələr arasında olan ziddiyyətlər Sultan Əsgərovanın vəziyyətinin pisləşməsinə (təzyiqinin qalxmasına) və ona tibbi yardım göstərilməsi üçün V.Əsgərovun hadisə yerindən getməsinə dair məlumatların yoxlanılmasını xüsusilə tələb edirdi.

Belə ki, Vəli Əsgərov məhkəmə iclasında yol nəqliyyat hadisəsini görəndən sonra arvadı

Sultan Əsgərovanın vəziyyətinin "pisləşdiyini", "təzyiqinin qalxdığını", bu səbəbdən hadisə yerindən onu "həkimə apardığını" bildirsə də, bu məlumatları konkretləşdirməmiş (pisləşmənin nədə ifadə olunduğunu, təzyiqin hansı həddə qaldığını, hansı tibb müəssisəinə, hansı həkimə müraciət etdiyini, hansı diaqnozun qoyulduğunu, nə kimi müalicə tədbirlərinin görüldüyünü, yerində ilkin yardım edilməməsinin səbəblərini göstərməmiş), eyni zamanda həmin xüsusat barədə ibtidai istintaqda – 16 dekabr 2016-cı il tarixdə verdiyi ilk izahatında fərqli məlumat verərək, arvadının halı pisləşdiyindən və təzyiqi qalxdığından, onu hadisə yerindən evə apardığını (evdən də hadisə yerinə qayıtdığını) qeyd etmiş, həkimə müraciət etdiklərini (dolayısı ilə S.Əsgərovanın vəziyyətinin tibbi müdaxilə tələb edəcək dərəcədə ağır olduğunu) göstərməmişdir.

Qeyd olunanlar məhkəmələrin bəraətin əsasına qoyulmuş həmin faktiki halın müəyyən edilmiş sayılmasına (mövcudluğuna) dair qənaətlərinin CPM-nin 143-146-cı maddələrinə müvafiq surətdə tədqiq edilmiş (hərtərəfli, tam və obyektiv araşdırılmış) sübutlara əsaslanmadığını, eyni zamanda cinayət qanununun, Konstitusiya Məhkəməsi Plenumunun nəzərdə tutduqları şəxsin CM-nin 264-cü maddəsi ilə məsuliyyətini istisna edən əsaslarla uzlaşmadığını göstərir.

Birinci instansiya məhkəməsinin Vəli Əsgərova CM-nin 264-cü maddəsi ilə bəraət verərkən istinad etdiyi (apellyasiya məhkəməsinin də razılaşdığı) ikinci dəlilə gəldikdə, məhkəmə kollegiyası, əslində həmin dəlilın də (CM-nin 264-cü maddəsinin düzgün təfsirinə əsaslanmadığına və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini nəzərə almadığına görə) V.Əsgərovun əməlində cinayət tərkibinin olmaması haqqında nəticəyə gəlmək üçün əsas vermədiyini hesab etmişdir.

Çünki, CM-nin 264-cü maddəsini "Yol hərəkəti haqqında" Qanunun 37-ci maddəsinin IV hissəsi ilə əlaqəli şəkildə təfsir etdikdə, görünür ki, qanunverici nəqliyyat vasitəsini idarə edən şəxsin yol nəqliyyat hadisəsi yerində qalmaq vəzifəsini, onun baş vermiş hadisədə özünü təqsirli saymasından (təqsirli olduğunu qəbul etməsindən) deyil, yol nəqliyyat hadisəsinin, qəzanın (o cümlədən, CM-nin 263 və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrə səbəb olmuş hadisənin) iştirakçısı olmasını bilib dərk etməsindən asılı etmişdir (burada və qərarın digər yerlərində "hadisənin iştirakçısı" ifadəsi CM-in VII fəslində təsbit edilən "cinayətdə iştirakçılıq", "cinayətin iştirakçısı" terminlərinin hüquqi mənasında işlədilmir).

Belə ki, "Yol hərəkəti haqqında" Qanunun 37-ci maddəsinin IV hissəsində təsbit edilmiş qaydalar mexaniki nəqliyyat vasitəsinin sürücüsünün bu normalarda göstərilən, o cümlədən yol nəqliyyat hadisəsi yerində qalmaq (xəsarət almış zərərçəkəni tibb müəssisəsinə öz avtomobili ilə apardıqda belə geri qayıtmaq) vəzifəsini yol nəqliyyat hadisəsi zamanı yerinə yetirməli olduğu öhdəliklər kimi təsbit etməklə, bu öhdəliklərin yaranmasını həmin yol nəqliyyat hadisəsində iştirak etmiş sürücülərin sayı, kimin və nə dərəcədə təqsirli olması, sürücünün hadisədə öz rolunu düzgün dəyərləndirib-dəyərləndirməməsi, o cümlədən özünü təqsirli sayıb-saymaması kimi məsələlərlə əlaqələndirməmişlər. Bu normaların mənasına görə özü-özlüyündə hadisənin baş verməsi, yəni mexaniki nəqliyyat vasitəsinin sürücüsü tərəfindən sadəcə yol nəqliyyat hadisəsi iştirakçısı olmasının dərk edilməsi artıq onun hadisə yerini tərk etməmək (qalıb özünü bəlli etmək) vəzifəsini müəyyən edən haldır və qanun sürücüyə yol nəqliyyat hadisəsinə görə məsuliyyətə cəlb olunmayacağını (hətta vicdanlı olaraq) ehtimal elədiyi üçün "hadisə yerində qalmaq", "hadisə yerini tərk etmək" kimi davranış aktları arasında seçim etmək hüququ vermir.

Bundan görsənir ki, mexaniki nəqliyyat vasitəsi sürcüsünün yol nəqliyyat hadisəsinin iştirakçısı olduğunu bildiyi (dərk etdiyi) halda hadisə yerini tərk etməsi qəsdən edilən hərəkət kimi çıxış edir.

"Yol hərəkəti haqqında" Qanunun 37-ci maddəsini bu cür təfsir etdikdə, CM-nin 263, 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin meydana gəldiyi hallarda da mexaniki nəqliyyat vasitəsinin sürcüsünün həmin yol nəqliyyat hadisəsinin iştirakçısı olduğunu bilə-bilə (zərərli nəticələrə subyektiv münasibətindən, o cümlədən özünü deyil, hadisənin iştirakçısı olan digər sürücünü hadisənin baş verməsində, nəticələrin meydana

gəlməsində təqsirli hesab etməsindən asılı olmayaraq) zərərçəkmişə yardım etmək üçün deyil, başqa məqsədlərlə özünü bəlli etmədən yol nəqliyyat hadisəsi yerini tərk etməsi, qəsdən törədilən və bu üzdən CM-nin 264-cü maddəsi ilə məsuliyyətə səbəb olan hal kimi qiymətləndirilməlidir.

Çünki, artıq yuxarıda qeyd olunduğu kimi, CM-nin 264-cü maddəsi ilə məsuliyyətə cəlb olunma məsələsi həll edilərkən qəsdin olub-olmamasının müəyyən edilməsi üçün yol nəqliyyat hadisəsinin iştiarkçısı olan sürücünün yol nəqliyyat hadisəsinə, baş vermiş nəticələrə subyektiv münasibəti (yol nəqliyyat hadisəsi yerini tərk etməzdən əvvəl həmin hadisə və nəticələrə görə gələcəkdə cinayət məsuliyyətinə cəlb olunacağını görüb-görməməsi) deyil, bu hadisəsinin iştirakçısı olmasını dərk edib-etməməsi həlledici amil olaraq nəzərə alınmalıdır (əks halda, hadisə yerində qalmaq vəzifə yox, sürücünün mülahizəsinə (təqsirlilik barədə subyektiv qiymətləndirməyə) buraxılmış məsələ olacaqdır).

Baxmayaraq ki, CM-nin 264-cü maddəsinin dispozisiyası "Bu Məcəllənin 263-cü və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin baş verdiyi hallarda nəqliyyat vasitəsini idarə edən və yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarını pozan şəxsin yol nəqliyyat hadisəsi yerindən qaçması" məzmununda omaqla şəxsin həmin maddə ilə məsuliyyətə cəlb edilməsini onun müəyyən edilmiş qaydaları pozması, yəni baş vermiş ağır nəticələrə görə təqsirli olması ilə şərtləndirmişdir, yuxarıda cinayətin subyektiv cəhəti ilə bağlı söylənilən fikirlər bu maddənin dispozisiyası ilə ziddiyyət təşkil etmir. Çünki, CM-nin 264-cü maddəsinin dispozisiyası hüquq tətbiq edənin (araşdırmacının) qiymətləndirilməsini tələb edən, bu cinayətin obyektiv cəhətinə aid halları əks etdirən normadır və onun heç bir müddəası avtomobili idarə edən şəxsin iştirakçısı olduğu yol nəqliyyat hadisəsi yerində qalmaq vəzifəsinin (müvafiq olaraq CM-nin 264-cü maddəsi ilə məsuliyyətə cəlb olunmasının mümkünlüyünün) onun törətdiyi digər cinayətə (CM-nin 263 və ya 263-1-ci maddələri ilə nəzərdə tutulmuş əmələ) subyektiv münasibətindən (özünü yol hərəkəti qaydalarının pozuntusuna yol verməkdə, CM-nin 263 və ya 263-1-ci maddələrində nəzərdə tutulmuş nəticələrin baş verməsində təqsirli sayıb-saymamasından) asılı olduğuna işarə etmir.

Yuxarıda qeyd olunanlar, yəni məhkəmə kollegiyasının yol nəqliyyat hadisəsi iştirakçısı olduğunu dərk edən sürücünün hadisə yerində qalıb özünü bəlli etməsini (o cümlədən, CM-nin 263 və ya 263-1-ci maddələrində göstərilən nəticələr baş verdiyi hallarda) "Yol hərəkəti haqqında" Qanunun 37-ci maddəsinin IV hissəsinə əsaslanmaqla qeyd-şərtsiz yerinə yetirilməli olan vəzifə kimi təfsir etməsi təqsirsizlik prezumpsiyası, özünə qarşı ifadə verməmək hüququ ilə bir araya sığmayan yanaşma kimi də təfsir edilə bilməz.

İlk növbədə ona görə ki, "Yol hərəkəti haqqında" Qanunun 37-ci maddəsinin IV hissəsi avtomobilin yüksək təhlükə mənbəyi (ictimai təhlükəsizlik üçün təhlükə mənbəyi) olmasından irəli gələn ictimai marağa əsaslanır, bu ictimai maraq isə avtomobillərlə törədilmiş yol nəqliyyat hadisələrinin səmərəli araşdırılmasını, dolayısı ilə yol nəqliyyat hadisələrinin, bu hadisələrdən zərərçəkənlərin sayının azalmasını təmin edən (sürücünün yol nəqliyyat hadisəsi yerində qalmaq vəzifəsini müəyyən sözügedən qanun, yol nəqliyyat hadisəsi yerindən yayınmağa görə inzibati məsuliyyət nəzərdə tutan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 327.6-cı maddəsi, yol nəqliyyat hadisəsi yerindən qaçmağa görə cinayət məsuliyyəti müəyyən edən CM-nin 264-cü maddəsi kimi) normalar sisteminin yaradılmasını labüd edir.

Həmçinin, o da nəzərə alınmalıdır ki, sürücünün yol nəqliyyat hadisəsi yerində qalıb özünü bəlli etməsi – bu onun idarə etmək üçün avtomobil əldə etdiyi andan, əslində könüllü olaraq üzərinə götürdüyü öhdəlikdir (odlu silah sahibinin onu başqalarının təhlükəsizliyini təmin edən şəraitdə saxlamaq öhdəliyi kimi).

Bundan başqa, şərh edilən vəzifə (öhdəlik) sürücünün iştirakçısı olduğu yol nəqliyyat hadisəsi yerində qalib özünü bəlli etməsi kimi məsələ ilə məhdudlaşır və onun üzərinə təfsilatı ilə hadisə barədə ifadə vermək öhdəliyi qoymur.

Eləcə də, şəxsin hadisə yerində qalıb avtomobili idarə edən şəxs olmasını bəlli etməsi müstəsna olaraq hadisənin ilkin səmərəli araşdırılmasına xidmət edir və heç bir şəkildə onun təqsirli olması (hadisənin deyil, məhz

cinayətin ona aid edilməsi) anlamına gəlmir (çünki, konkret sürücüyə münasibətdə təqib xarakteri daşımayan bu ilkin araşdırma sürücünün də maraqlarına xidmət etməklə onun təqsirsiz olmasının, digər şəxsin təqsirli olmasının müəyyən edilməsi üçün ilkin məlumatların əldə edilməsi ilə nəticələnə bilər).

Qeyd etmək lazımdır ki, anoloji məsələni araşdırmış İnsan Hüquqları üzrə Avropa Məhkəməsi "O.Halloran və Frensis Birləşmiş Krallığa qarşı iş" üzrə 29 iyun 2007-ci il tarixli qərarında Böyük Britaniya və Şimali İrlandıya Birləşmiş Krallığının qanunverciliyində ("Yol hərəkəti qaydaları haqqında" 1988-ci il Qanununun 172-ci maddəsində) cinayət məsuliyyəti təhdidi altında mexaniki nəqliyyat vasitəsinin sahibinin üzərinə yol hərəkəti qaydalarının pozulduğu yerdə və anda avtomobilin sükanı arxasında kimin olması barədə məlumat vermək öhdəliyinin qoyulmasını Konvensiyanın 6-cı maddəsində nəzərə tutulmuş ədalətli məhkəmə araşdırması hüququ və bu hüququn ehtiva etdiyi təqsirsizlik prezumpsiyası və özünə qarşı ifadə verməmək hüququ ilə bir araya sığmayan, həmin hüquqları pozan hal kimi şərh etməkdən imtina etmişdir.

Avropa Məhkəməsi hesab etmişdir ki, O.Halloran həmin qanunun tələbinə əsasən yol hərəkəti qaydalarının pozulduğu anda və yerdə məhz özünün avtomobilin sükanı arxasında olması barədə (özünə qarşı) verdiyi məlumat əsasında məhkəmənin hökmü ilə yol hərəkəti qaydalarının pozuntusunda təqsirli bilinib cinayət cəzasına məhkum edilsə də, Frensis isə həmin qanunun tələbinə əməl etməkdən və özünə qarşı ifadə verməkdən (pozuntu yerində və anında kimin avtomobilin sükanı arxasında olması barədə məlumat verməkdən) imtina etdiyinə görə cinayət məsuliyyətinə cəlb edilib cəzalandırılsa da, bununla ərizəçilərin "İnsan Hüquqların və Əsas Azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndi ilə nəzərdə tutulmuş hüququ pozulmamış, Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndi nöqteyi-nəzərindən məsələnin araşdırılmasına isə ümumiyyətlə zərurət qalmamışdır.

Yuxarıda təsvir edilənlərlə və məhkəmə kollegiyasının hüquqi mövqeyi ilə müqayisə etməklə hazırki işin müəyyən olunmuş hallarına baxdıqda isə aydın olur ki, Vəli Əsgərov bilə-bilə ki, baş vermiş yol nəqliyyat hadisəsinin iştirakçısıdır (piyada Əlvan Əhmədovanın ağır xəsarətlər alması ilə nəticələnən hadisə Nadir Rəhimovun avtomobilinin ötmə əməliyyatı zamanı onun idarə etdiyi avtomobilə sürtünməsindən sonra baş vermişdir), özünü bəlli etmədən CM-nin 264-cü maddəsinin "Qeyd" hissəsinin və Konstitusiya Məhkəməsinin Plenumunun müəyyən etdikləri məqsədlər üçün deyil, başqa məqsədlə yol nəqliyyat hadisəsi yerini tərk etmiş və bundan 6 gün keçdikdən sonra – 16 dekabr 2016-cı il tarixdə Baş Dövlət Yol Polisi İdarəsinə, cinayət işi üzrə ibtidai istintaqı aparan müstəntiqin yanına gəlmişdir.

Belə olan halda, məhkəmələrin yol nəqliyyat hadisəsi yerini tərk etməsinə münasibətdə Vəli Əsgərovun qəsdinin müəyyən edilməməsi və bu üzdən V.Əsgərovun sözügedən əməlində cinayət tərkibinin olmaması haqqında nəticələri sübutların CPM-nin 143-146-cı maddələrinə müvafiq surətdə, yəni tam, hərtərfli və obyektiv araşdırılmasına, eləcə də cinayət qanunu normalarının, o cümlədən CM-nin 264-cü maddəsinin düzgün təfsir olunmasına əsaslanan yekun qənaət kimi qiymətləndirilə bilməz.

Təsvir edilənlər kassasiya protestinin əsaslı olduğunu, məhkəmələrin CPM-nin 416.0.2 və 416.0.15-ci maddələrində nəzərdə tutulan, məhkəmə qərarının kassasiya qaydasında ləğv edilməsini tələb edən pozuntulara yol verdiklərini göstərir.

Buna görə, kassasiya prootestinin dəlilləri ilə razılaşan məhkəmə kollegiyası tərəfindən iş üzrə qəbul edilmiş qərarla kassasiya protestini təmin edilərək Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının Əsgərov Vəli Əsgər oğlunun barəsində olan 03 mart 2017-ci il tarixli qərarı ləğv olunmuş və cinayət işi apellyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilmişdir.

# Cinayət məsuliyyətinə cəlb edilməsinə imkan verən yaşa çatmamış şəxsin barəsində intizam təsir tədbiri tətbiq edilərkən qanunvericilikdə nəzərdə tutulmuş tələblərə əməl edilmədiyindən və apellyasiya şikayətinə ilkin baxış və məhkəmə baxışı iclasında ədalətli məhkəmə araşdırması hüququnun pozulmasına yol verildiyindən apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilmişdir.

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 22 iyun 2017-ci il tarixli qərarı ilə A.F.-nin Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin barəsində tərbiyəvi xarakterli məcburi tədbir kimi onun qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinə dair vəsatəti təmin edilmiş və A.F.-nin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinə dair qərarın icrası Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya və Sabunçu Rayon Polis İdarəsinə həvalə edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 17 iyul 2017-ci il tarixli qərarı ilə A.F.-nin müdafiəçiləri Qədirov İlqar Hümmət oğlu və Cəfərov Məmmədvəli Yusif oğlu tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməmiş, Sabunçu Rayon Məhkəməsinin 22 iyun 2017-ci il tarixli qərarı isə dəyişdirilmədən saxlanılmışdır.

Bu qərardan barəsində qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmə növündə intizam təsir tədbiri tətbiq edilmiş A.F.-nin müdafiəçi M.Y.Cəfərov kassasiya şikayəti verərək həmin şikayətini onunla əsaslandırmışdır ki, A.F. ehtiyatsızlıqdan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra mətndə CM-nin) 263-1.3 və 264-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin əlamətlərini daşıyan ictimai təhlükəli əməlləri törətdiyi üçün, eləcə də onun təhsil aldığı orta məktəbdən, ailəsindən ayrılmasına zərurət olmadığına görə, məhkəmənin onun barəsində qapalı tipli xüsus təlim-tərbiyə müəssisəsinə göndərmə şəkildə ən ağır növ tədbiri tətbiq etməsi və apellyasiya instansıyası məhkəməsinin də bu tədbiri dəyişdirilmədən saxlaması əsassız və qanunsuz olmuşdur.

Həmçinin, apellyasiya instansiyası məhkəməsinin qərarının əsassız olduğuna, ümumiyyətlə apellyasiya baxışının ədalətli məhkəmə araşdırıması hüququnun ehtiva etdiyi tələblərə cavab vermədiyinə dəlalət edən hallar kimi kassasiya şikayətində qeyd olunmuşdur ki, apellyasiya məhkəməsində mühüm əhəmiyyətli halların müəyyən edilməsi üçün kifayət qədər araşdırma aparılmamış, apellyasiya icraatında nə A.F.-nin, nə də ki, qanuni nümayəndəsinin iştirakı təmin olunmamış, məhkəmə onların üzrlü səbəbdən məhkəmə prosesində iştirak etmədiklərini və prosesdə bilavasitə iştirak etmək istədiklərini göstərən sənədlərə, o cümlədən A.F.-nin xəstələnməsi səbəbindən Naxçıvan şəhərində Psixi Xəstəliklər Dispanserində stasionar müalicədə olmasına dair müvafiq teleqramlara əhəmiyyət verməmişdir.

Müdafiəçi kassasiya şikayətində göstərilənlərə əsasən Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 17 iyul 2017-ci il tarixli qərarının ləğv edilməsini, A.F.-nin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatətinin rədd edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası müdafiəçinin kassasiya şikayətini Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra mətndə CPM-nin) 419-cu maddəsinin tələbləri baxımından səlahiyyətlərinə aid olan kassasiya müraciəti kimi görərək bu müraciətlə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 17 iyul 2017-ci il tarixli qərarının qanuniliyini və əsaslılığını yoxlayıb, araşdırmanın nəticələri olaraq aşağıdakıları qeyd etmişdir.

Müdafiəçinin iddiasına görə, apellyasiya instansiyası məhkəməsi baxılan məsələnin həlli üçün mühüm əhəmiyyət kəsb edən halları, onlarla bağlı olan sübutları kifayət qədər araşdırmadan, araşdırmanın ədalətliliyini, o cümlədən müdafiə tərəfinin prosessual hüquqlarını təmin etmədən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış A.F.-nin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatətinin təmin edilməsi haqqında birinci instansiya məhkəməsinin qərarını dəyişdirilmədən saxlamışdır.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi və saxlanılması məsələləri əsasən CPM-nin 435-1, 435-2-ci maddələri, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının 24 may 2005-ci il tarixli Qanunu, Azərbaycan Respublikasının 31 may 2002-ci il tarixli Qanunu ilə təsdiq edilmiş “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında” Əsasnamə, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 noyabr 2005-ci il tarixli qərarı ııə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində saxlanılmasına yol verməyən xəstəliklərin Siyahısı" ilə tənzimlənir.

İlk növbədə məhkəmə diqqəti ona yönəltmişdir ki, qeyd olunan “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Qanunda (məsələn, maddə 23.2.1) və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında” Əsasnamədə (maddə 9) cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi tərbiyəvi xarakterli məcburi tədbir kimi deyil, intizam təsir tədbirlərinin bir növü kimi təsbit edilmişdir.

CPM-nin 435-1.1 və 435-1.2-ci maddələrinə əsasən ağır və xüsusilə ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün cinayət qanununda nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət işinə xitam verildikdə, yaxud cinayət işinin başlanılması rədd edildikdə, xitam verilmiş cinayət işi və yaxud cinayət işi başlanılmasının rədd edilməsi haqqında materiallar həmin şəxslərin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi məqsədilə cinayət prosesini həyata keçirən orqan tərəfindən 3 gün müddətində yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya göndərilir. Öz növbəsində komissiya təqdim olunmuş materiallar əsasında qanunvericiliklə müəyyən olunmuş qaydada zəruri olan digər sənədləri toplayır və cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinin mümkünlüyü məsələsinə baxılması üçün həmin şəxsin yaşayış yeri üzrə birinci instansiya məhkəməsi qarşısında vəsatət qaldırır.

“Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikası Qanununa əsasən (maddə 21), Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın toplamalı və vəsatəti ilə birlikdə məhkəməyə təqdim etməli olduğu sənədlər aşağıdakılardır:

_yetkinlik yaşına çatmayanlar barəsində cinayət işinə xitam verilməsi və ya cinayət işinin başlanmasının rədd edilməsi haqqında materiallar;

_ yetkinlik yaşına çatmayanın təhsil (iş) yerindən xasiyyətnamə;

_ yetkinlik yaşına çatmayanın ailə-məişət şəraiti haqqında arayış;

_ yetkinlik yaşına çatmayan tərəfindən əvvəllər törədilmiş hüquq pozuntuları və bununla əlaqədar görülmüş tədbirlər haqqında arayış;

_yetkinlik yaşına çatmayanın sağlamlığının vəziyyəti və onun qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinin mümkünlüyü barədə səhiyyə müəssisəsinin rəyi.

Qanunun 20.3 və 20.4-cü maddələrinin tələblərinə görə, Komissiyanın təşkil etməli olduğu yetkinlik yaşına çatmayanların tibbi

müayinəsi, psixi müayinəni də nəzərdə tutmalı və müayinə zamanı yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərilməsinə yol verməyən xəstəliklər aşkar edildikdə, həmin şəxslər tibbi-tərbiyə müəssisələrinə yerləşdirilməlidir.

Yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində saxlanılmasına yol verməyən xəstəliklərin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 noyabr 2005-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Yuxarıda təsvir edilən normalardan çıxış etməklə hazırki işin hallarına baxdıqda, aşağıdakılar müəyyən olunur.

30 avqust 2001-ci ildə doğulmuş A.F. 3 may 2007-ci ildə sürücülük hüququ olmadan atasına məxsus minik avtomobilini Bakı şəhərinin Sabunçu rayonu ərazisində idarə edərkən müəyyən olunmuş sürət həddini aşaraq Yol Hərəkəti Haqqında Azərbaycan Respublikası Qanununun tələblərini pozmuş, nəticədə ehtiyatsızlıqdan yolun işlək hissəsində piyadanı vurmuş və yol-nəqliyyat hadisəsi yerindən qaçmışdır. Zərər çəkmiş şəxs aldığı ağır bədən xəsarətlərindən Bakı Şəhər 3 saylı Kliniki Xəstəxanada ölmüşdür.

A.F. yol-nəqliyyat hadisəsini törədərkən CM-nin 263-1.3 və 264-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb olunmağa imkan verən yaş həddinə - 16 yaşa çatmadığı üçün Sabunçu Rayon Polis İdarəsinin İstintaq şöbəsinin müstəntiqinin 20 may 2017-ci il tarixli qərarı ilə cinayət işi üzrə icraata xitam verilmiş, eyni zamanda onun törətdiyi ictimai təhlükəli əməl CM-in 263-1.3-cü maddəsində nəzərdə tutulmuş ağır cinayətin əlamətlərini daşıdığından, A.F.-nin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə yerləşdirilməsi məsələsinə baxılması üçün qərar Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya göndərilmişdir.

Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya 02 iyun 2017-ci il tarixli qərarla Sabunçu Rayon Məhkəməsi qarşısında A.F.-nin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında vəsatət qaldırmış və bu vəsatəti əks etdirən Komissiyanın qərarı Sabunçu Rayon İcra Hakimiyyəti başçısının birinci müavininin 13 iyun 2017-ci il tarixli məktubu ilə Sabunçu Rayon Məhkəməsinə göndərilmişdir.

Lakin, Sabunçu Rayon İcra Hakimiyyətində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatətlə birlikdə Sabunçu Rayon Məhkəməsinə göndərdiyi materiallardan görünür ki, Komissiya CPM-nin 435-1.2-ci maddəsi, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanunu ilə üzərinə qoyulmuş vəzifələri tam olaraq yerinə yetirməmiş, həmin Qanunun 21-ci maddəsinin tələb etdiyi sənədlərdən müstəsna olaraq A.F.-nin barəsində cinayət işi üzrə icraata xitam verilməsi haqqında Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsinin müstəntiqinin qərarını və sonuncunun təhsil aldığı Məktəb-Liseyin xasiyyətnaməsini məhkəməyə təqdim etmişdir. Qanunun 21-ci maddəsində göstərilən digər məsələlər üzrə isə Komissiya tərəfindən müvafiq araşdırmalar aparılmamış, o cümlədən A.F.-nin tibbi müayinəsi keçirilməmiş, sözügedən normanın ziddinə olaraq yetkinlik yaşına çatmayanın ailə-məişət şəraiti haqqında arayış, yetkinlik yaşına çatmayan tərəfindən əvvəllər törədilmiş hüquq pozuntuları və bununla əlaqədar görülmüş tədbirlər haqqında arayış, habelə yetkinlik yaşına çatmayanın sağlamlığının vəziyyəti və onun qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinin mümkünlüyü barədə səhiyyə müəssisəsinin rəyi məhkəməyə təqdim olunmamışdır.

Səhiyyə müəssisəsinin rəyinin məhkəməyə təqdim olunmamasından irəli gələn məhkəmə araşdırmalarının natamamlığının əhəmiyyətini, yəni yol verilən pozuntunun ciddiliyini xüsusilə aşkara çıxaran hal kimi məhkəmə kollegiyası onu qeyd etmişdir ki, yetkinlik yaşına çatmayan A.F.-nin yol-nəqliyyat hadisəsindən sonra sarsıntı keçirməsi və bununla əlaqədar Naxçıvan Şəhər Psixi Xəstəliklər Dispanserində müalicədə olması həm onun valideyni, həm də müdafiəçisi tərəfindən müvafiq olaraq teleqram və məhkəmə tərkibinə yazılı etiraz vasitəsi ilə 17 iyul 2017-ci il tarixli məhkəmə iclasında apellyasiya

instansiyası məhkəməsinin nəzərinə çatdırılsa da, məhkəmə bu müraciətlərə əhəmiyyət verməmiş, A.F.-nin tibbi, o cümlədən psixi müayinəsini keçirməməklə onun sağlamlıq vəziyyətini (nəticə etibarı ilə, bu aspektdən onun qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinin mümükünlüyünü) araşdırmamışdır (Ali Məhkəməyə kassasiya şikayəti ilə birlikdə verilən sənədlər sırasında A.F.-nin 15, 16, 17 iyul 2017-ci il tarixlərində Naxçıvan MR Səhiyyə Nazirliyinin Psixi Xəstəliklər Dispanserində müalicə almasının qeyd olunduğu tibbi arayış təqdim olunmuşdur).

CPM-nin 435-1.8.4-cü maddəsinə əsasən məhkəmə qərar çıxararkən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin hansı müddətə qapalı xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinə ehtiyac olduğunu həll etməlidir.

Məhkəmə qərarında şəxsin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərildiyi müddətin göstərilməsini “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikası Qanunu da tələb edir.

Belə ki, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Qanunun 13.3 və 13.5-ci maddələrinə əsasən qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinə on bir yaşından böyük olan yetkinlik yaşına çatmayanlar on səkkiz yaşına çatana qədər, lakin 3 ildən artıq olmamaq şərtilə göndərilirlər.

Qanunun 23.2.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında məhkəmənin qərarında intizam təsir tədbirinin tətbiq edilmə müddəti göstərilməklə, yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında nəticə öz əksini tapmalıdır.

Lakin, qeyd olunan normaların ziddinə olaraq birinci instansiya məhkəməsinin qərarında A.F.-nin barəsində hansı müddətə sözügedən intizam təsir tədbirinin tətbiq olunduğu, yəni onun hansı müddətə qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərildiyi göstərilməmiş, bu pozuntu apellyasiya məhkəməsi tərəfindən də aradan qaldırılmamışdır.

Kassasiya şikayətində irəli sürülümüş, apellyasiya instansiyası məhkəməsinin barəsində intizam təsir tədbiri tətbiq edilmiş A.F.-nin və onun qanuni nümayəndəsi F.F.-nin iştirakı olmadan birinci instansiya məhkəməsinin qərarından verilmiş apellyasiya şikayətlərinə baxmaqla onların prosessual hüquqlarını, nəticə etibarı ilə “İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında” Avropa Konvensiyasının 6-cı maddəsində nəzərdə tutulmuş “ədalətli məhkəmə araşdırması” konsepsiyasının ehtiva etdiyi tələbləri pozması haqqında dəlillə də razılaşmamaq mümkün deyil.

Belə ki, CPM-nin 435-1.3-cü maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında materiala məhkəmə iclasında baxılmasında aşağıdakı şəxslər iştirak etmək hüququna malikdirlər:

_ cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs, onun müdafiəçisi, valideynləri və ya digər qanuni nümayəndələri;

_ yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının nümayəndəsi;

_ dövlət ittihamçısı;

_ cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin yaşayış yeri və ya ictimai təhlükəli əməlin törədildiyi ərazi üzrə daxili işlər orqanının yetkinlik yaşına çatmayanlarla iş üzrə bölməsinin nümayəndəsi.

CPM-nin 435-1.6-cı maddəsinə görə müdafiəçi istisna olmaqla cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin qapalı tipli təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında materiala baxılma yeri və vaxtı haqqında məlumatlandırılmış yuxarıda qeyd olunan şəxslərin məhkəmə iclasına gəlməməsi məhkəmə iclasının keçirilməsinə mane olmur.

Prosessual qanunvericilikdə təsbit olunmuş həmin normanı təfsir edərkən nəzərə almaq lazımdır ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin və yaxud onun qanuni nümayəndəsinin məhkəmə iclasında iştirak etməsi barədə müddəa CPM-nin 435-1.3-cü maddəsində

onların malik olduqları hüquq kimi təsbit edilmişdir.

Odur ki, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs və yaxud onun qanuni nümayəndəsi bu hüquqdan imtina etmədikdə, əksinə əvvəlcədən məhkəməyə hüquqdan istifadə etmək niyyətində olduqlarını bildirib çağırıldıqları məhkəmə iclasına gələ bilməmələrinin üzrlü hallarla bağlı olması barədə məlumat verdikdə, məhkəmə həmin şəxslərin məhkəməyə gəlməmələrinin üzrsüz hallardan irəli gəldiyini müəyyən etməyibsə, onların iştirakı olmadan məhkəmə iclasını keçirməyə haqlı deyil.

Təsvir olunan vəziyyətdə məhkəmə baxışının cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxsin və yaxud onun qanuni nümayəndəsinin iştirakı olmadan keçirilməsi onların məhkəmədə iştirak etmək və bundan irəli gələn digər prosessual hüquqlarının pozuntusu, Avropa Konvensiyasının 6-cı maddəsinin təsbit ediyi ədalətli məhkəmə araşdırması hüququ baxımından yolverilməz hal kimi çıxış edəcəkdir.

Hazırki işin materiallarından isə görünür ki, apellyasiya məhkəməsinə əvvəlcədən mobil telefon və teleqramlar vasitəsi ilə A.F.-nin və onun qanuni nümayəndəsi F.F.-nin sonuncunun atasının vəfat etməsi ilə bağlı Naxçıvan Muxtar Respublikasında olmaları haqqında məlumat verilmiş və 17 iyul 2017-ci il tarixə təyin olunmuş məhkəmə iclasının başqa vaxta keçirilməsi barədə vəsatət qaldırılmışdır.

Bundan başqa, artıq yuxarıda qeyd olunduğu kimi, teleqramla məhkəməyə A.F.-nin emosional stres keçirməsi ilə əlaqədar Naxçıvan Şəhər Psixi Xəstəliklər Dispanserində müalicə alması barədə də məlumat verilmişdir.

Həmin məlumatları məhkəmə qarşısında A.F.-nin müdafiəçisi bir daha təkrarlayıb məhkəmədən apellyasiya şikayətlərinə baxılmasının təxirə salınmasını xahiş etmiş, hətta bu müraciətlər rədd edildiyi üçün məhkəmə tərkibinə yazılı etiraz da təqdim etmişdir.

Bununla belə, məhkəmə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış A.F.-nin və onun qanuni nümayəndəsi F.F.-nin iştirakı olmadan 17 iyul 2017-ci il tarixə təyin olunmuş məhkəmə iclasını keçirib müdafiəçilərin apellyasiya şikayətlərinin rədd olunması, A.F.-nin qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi haqqında birinci instansiya məhkəməsinin qərarının dəyişdirilmədən saxlanılması haqqında yekun qərar qəbul etmişdir.

Halbuki, həmin şəxslər qanuni nümayəndənin atasının vəfat etməsi ilə bağlı Naxçıvan Muxtar Respublikasında olduqlarını apellyasiya şikayətlərinə ilkin baxılması üzrə məhkəmə iclasından bilavasitə əvvəl də hakim köməkçisinə mobil telefon danışığı zamanı bildirmiş (işə müvafiq telefonoqram əlavə edilmişdir), lakin 13 iyul 2017-ci il tarixli ilkin baxış iclası da cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış A.F.-nin və onun qanuni nümayəndəsi F.F.-nin iştirakı olmadan keçirilmişdir.

İlkin baxış iclası ilə apellyasiya şikayətlərinə mahiyyəti üzrə baxılmasına dair məhkəmə iclasları arasında olan zamana nəzər yetirdikdə, görünür ki, məhkəmə ilkin baxış iclasında CPM-nin 393.2-ci maddəsində təsbit olunmuş qaydaya görə yol verilən ən qısa müddətdən (3 gündən) sonraya məhkəmə baxışının keçirilməsini təyin etmişdir.

İlkin baxış iclası da A.F.-nin barəsində material birinci instansiya məhkəməsindən apellyasiya məhkəməsinə daxil olduqdan bir gün sonra keçirilmişdir (material 12 iyul 2017-ci ildə daxil olmuş, həmin gün ilkin baxış iclasının 13 iyul 2017-ci il tarixə təyin edilməsi barədə proses iştirakçılarına ünvanlanmış məktublar tərtib olunmuş və 13 iyul 2017-ci ildə ilkin baxış iclası keçirilmişdir).

CPM-nin 391 və 392.4-cü maddələri ilə işin apellyasiya məhkəməsinə daxil olmasından sonra müvafiq olaraq ilkin baxış iclasının keçirilməsi üçün 15 (müstəsna hallarda 30) gün, məhkəmə baxışının keçirilməsi üçün isə 30 (müstəsna hallarda 45) gün ayrıldığı halda, məhkəmənin prosesdə iştirak etmək hüququ olan şəxslərin Azərbaycan Respublikasının əsas hissəsindən ayrı olan Naxçıvan Muxtar Respublikasında (həm də yaxın qohumun yas mərasimində) olmalarını bilməsinə və müdafiə tərəfinin məhkəmə baxışının təxirə salınması barədə israrlı müraciətlərinə baxmayaraq, belə qısa müddətlər ərzində ilkin baxış və mahiyyət üzrə baxış iclaslarını təyin edib keçirməsi, hər

halda qanunun həmin iclaslarının keçirilməsi üçün müəyyən etdiyi müddətlərlə və yaxud hansısa başqa – ədalət mühakiməsinin maraqları ilə uzlaşan zərurətlə şərtləndirilən vəziyyət kimi görsənmir.

Əksinə, qeyd olunan halların məcmusundan görünür ki, məhkəmə belə tələskənliyə yol verməklə nəinki cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış A.F.-nin və onun qanuni nümayəndəsi F.F.-nin məhkəmədə iştirak etmək və bununla bağlı olan hüquqlarını pozmuş, həmçinin özünü də işi lazımınca öyrənmək, keyfiyyətli araşdırma aparmaq, nəticə etibarı ilə qanuni və əsaslı qərar qəbul etmək imkanından məhrum etmişdir.

Təsvir edilənlər baxılan işdə CPM-nin 416.0.1, 416.0.2-ci maddələrində nəzərdə tutulmuş məhkəmə qərarının kassasiya qaydasında ləğv edilməsini və işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilməsini tələb edən pozuntulara yol verildiyini, yəni kassasiya şikayətinin qismən təmin edilməsi üçün əsasların olduğunu göstərir.

Odur ki, məhkəmə kollegiyası kassasiya şikayətinin təmin edilməsinə dair barəsində intizam təsir tədbiri tətbiq edilmiş yetkinlik yaşına çatmayan A.F.-nin və onun müdafiəçisi M.Y.Cəfərovun, habelə kassasiya şikayətinin təmin edilməməsinə dair dövlət ittihamçısının və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın nümayəndəsinin çıxışlarını dinləyib, şərh edilən əsaslara görə kassasiya şikayətinin qismən təmin olunması, Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının A.F.-nin barəsində olan 17 iyul 2017-ci il tarixli qərarın ləğv edilməsi və işin apellyasiya qaydasında baxılması üçün yeni məhkəmə baxışına təyin edilməsi barədə qərar qəbul etmişdir.

## Talama cinayətlərini xarakterizə edən ümumi əlamətlərdən və CM-nin 178.1-ci maddəsinin dispoziyasından irəli gələn mənaya görə, dələduzluğun törədilməsi zamanı təqsirkarın zərəçəkmiş şəxsin mövcud olan əmlakını ələ keçirməsi (mövcud əmlak kütləsindən hansısa hissəsini ayırıb özünün və yaxud üçüncü şəxsin nəfinə keçirməsi) tələb olunduğundan belə zərərçəkmiş şəxsin maddi zərər görməsi onun gözlənilən artımı, qazancı almamasında deyil, mövcud olan əmlak kütləsinin ələ keçirilmiş əmlak hesabına azalmasında (malik olduğu əmlakdan məhrum edilməsində) ifadə olunmalıdır.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 16 fevral 2017-ci il tarixli hökmü ilə Qəhrəmanov Ələddin Süliddin oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra mətndə CM-nin) 178.3.2, 192.1, 213.1-ci maddələri ilə təqsirli bilinib, CM-nin 178.3.2-ci maddəsi ilə 9 (doqquz) il 6 (altı) ay müddətə, CM-nin 192.1-ci maddəsi ilə 6 (altı) ay müddətə, CM-nin 213.1-ci maddəsi ilə 2 (iki) il müddətə dövlət və bələdiyyə orqanlarında rəhbər və maddi məsul vəzifə tutmaq hüququndan məhrum edilməklə 2 (iki) il müddətə azadlıqdan məhrum etmə cəzasına, CM-nin 66.3 və 66.4-cü maddələrinə əsasən isə cəzaların qismən toplanılması yolu ilə qəti olaraq 2 (iki) il müddətə dövlət və bələdiyyə orqanlarında rəhbər və maddi məsul vəzifə tutmaq hüququndan məhrum edilməklə 11 (on bir) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Hökmə əsasən Qəhrəmanov Ələddin Suliddin oğlu təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirməklə zərərçəkmiş şəxslərə külli miqdarda ziyan vurmaqla dəbduzluq etmiş, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına (vergi uçotuna) ahnmadan və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla xeyli miqdarda gəlir əldə etmiş və xeyli miqdar təşkil edən vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

Belə ki, o, etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə tanışı Əliyev Azər Rasim oğluna Bakı şəhəri Səbail rayonu, 20-ci sahədəki yaşayış massivində Əfəndiyev Siracəddin Şəmsəddin oğlu tərəfindən inşa olunan

hündürmərtəbəli binanın fasadının şüşələnməsi işlərinin görülməsi müqabilində 125.000 manat məbbğində pul verilməsini vəd etmiş, Azər Əliyevin 2012-ci ilin əvvəllərindən 2013-cü ilin yay aylarına kimi olan dövr ərzində vəd etdiyi işləri görməsinə baxmayaraq o, vədinə əməl etməyərək Siracəddin Əfəndiyevdən aldığı pulları özünə götürərək Azər Əliyevə ümumilikdə 125.000 manat məbbğində külli miqdarda ziyan vurmaqla dəbduzluq etmişdir.

Bundan başqa, o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə Əliyev Azər Rasim oğluna Bakı şəhəri Xətai rayonu, N.Rəfıyev küçəsi 13, 1176-cı məhəllədə inşa olunan binanın fasadının şüşələnməsi və kompozit materiallarla üzlənməsi işlərini birlikdə görməyi və qazancı bölməyi təklif edərək razılığa gəlmiş və sonuncu 10 yanvar 2013-cü ildə fasad işlərinin görülməsi üçün öz vəsaiti hesabına 18.720 manat dəyərində ayaqaltıları binanın ətrafına quraşdırmış, lakin o, bir müddət keçəndən sonra binanın fasad işlərini özünün görəcəyini Azər Əliyevə bildirərək onu şəriklikdən uzaqlaşdırıb, vədinə əməl etməyərək sonuncunun sərf etdiyi 18.720 manat vəsaiti ona verməyib Azər Əliyevə külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

Bundan başqa, o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin külli miqdarda əmlakını ələ keçirmək məqsədi ilə tanışı Əliyev Azər Rasim oğluna Bakı şəhərində birlikdə şirkət açmağı və plastik profıllərin satışını təşkil etməyi təklif edərək, qeyd olunan iş üçün 400.000 manat pul lazım olmasını, həmin pulun 250.000 manatının özü tərəfindən, 150.000 manat məbbğində pulun isə Azər Əliyev tərəfindən qoyulmasına dair razılığa gəlmiş, 2013-cü ilin avqust ayının əvvəllərində Bakı Metropoliteninin «Qara Qarayev» stansiyası yaxınlığında yerləşən «Ruslan» marketin yanında Azər Əliyevdən həmin dövrün məzənnəsi ilə 32.949 manat təşkil edən 42.000 ABŞ dollarını, 2013-cü ilin sentyabr ayında isə Gəncə şəhərində yerləşən həmin dövrün məzənnəsi ilə 70.605 manat təşkil edən 90.000 ABŞ dolları dəyərində üçotaqlı mənzili almaqla ümumilikdə həmin dövrün məzənnəsi ilə 103.554 manat təşkil edən 132.000 ABŞ dolları məbbğində pulu ələ keçirərək zərərçəkmiş şəxs Azər Əliyevə külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

Bundan başqa o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə Bakı şəhəri Xətai rayonu, N.Rəfıyev küçəsi 13, 1176-cı məhəllədə inşa olunan binanın üz fasadının kompozit materialları ilə üzlənməsi işlərinin görülməsi məqsədi ilə Məlikov Kamran Yadulla oğlu ilə razılaşmış, Kamran Məlikov 2013-cü ilin yanvar ayından oktyabr ayına kimi 145.728 manat dəyərində olan işləri görmüş, lakin Ələddin Qəhrəmanov binanı inşa edən Mürvələdov Aydın Qurban oğlundan 190.000 manat pulu almasına baxmayaraq Kamran Məlikova ümumilikdə 103.000 manat pul verməklə 42.728 manat pulu ələ keçirərək sonuncuya külli miqdarda ziyan vurmaqla dəbduzluq etmişdir.

Bundan başqa o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə Nəbiyev Fuad Məhəmməd oğlunun rəhbərlik etdiyi Bakı şəhəri Sabunçu rayonu, Balaxanı qəsəbəsində yerləşən «Tekoplast» şirkətindən sonuncunun inamını qazanaraq 07 noyabr 2013-cü ildən başlayaraq 10 yanvar 2015-ci il tarixə kimi 297.614,29 manat məbləğində müxtəlif çeşiddə plastik məmulatlar götürərək qeyd olunan müddət ərzində götürdüyü malların pulunu hissə-hissə bir qismini 146.303,56 manat məbləğdə pul şəklində, digər qismini isə 9.038,93 manat məbləğində plastik məmulatlar şəklində qaytararaq, ümumi olaraq 42.272,80 manat məbləğində pulu qaytarmayaraq zərərçəkmiş Fuad Nəbiyevə külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

Bundan başqa o, təkrarən etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədi ilə tanışı Qurbanov Vüqar Faiq oğluna Bakı şəhəri Yeni Yasamal yaşayış massivində olan «Qismət» şadlıq sarayının yanında yerləşən yeni tikilən binanın onuncu mərtəbəsində 130 kv.metr sahədə olan üçotaqlı mənzili 100.000 ABŞ dollarına satacağını vəd edib, sonuncudan 2014-cü ilin iyun ayının sonlarında Bakı şəhəri Nərimanov rayonu, Xan Şuşinski küçəsi, məhəllə 955-də yerləşən «Real» MTK-nın inşa etdiyi binanın qarşısında həmin dövrün məzənnəsi ilə 47.064 manat təşkil edən 60.000

ABŞ dolları məbləğində pulu və 2014-cü ilin dekabr ayına kimi hissə-hissə həmin dövrün məzənnəsi ilə 31.380 manat təşkil edən 40.000 (qırx min) ABŞ dolları məbləğində pulu alaraq vəd etdiyi mənzili verməmiş və həmin dövrün məzənnəsi ilə 78.444 manat təşkil edən 100.000 ABŞ dolları məbləğində pulu ələ keçirərək zərərçəkmiş şəxs Vüqar Qurbanova külli miqdarda ziyan vurmaqla dələduzluq etmişdir.

Bundan başqa, o, Kərbəlayev Əhəd Eldar oğlunun (VÖEN 1601166842) Novruzov Anar Rabil oğlu ilə Bakı şəhəri Xətai rayonu, N.Rəfıyev küçəsi 13, 1176-cı məhəllədə inşa edilən onmərtəbəli binanın fasadının şüşə örtüklə (cəbhə sistemi ilə) bağlanması və binanın pəncərələrinin (alüminium sistemi ilə) düzəldilib, alkopon örtük ilə quraşdırılması işlərinin yerinə yetirilməsi barədə bağladığı 15.12.2012-ci il tarixli podrat müqaviləsi üzrə işləri özü yerinə yetirərək Azərbaycan Respublikası Prezidentinin «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» 02.09.2002-ci il tarixli 782 nömrəli fərmanına və həmin fərmana əlavə və dəyişiklik edilməsinə dair Azərbaycan Respublikası Prezidentinin 29.12.2006-cı il tarixli 510 nömrəli fərmanına əsasən həmin işlərin görülməsi üçün xüsusi razılıq (lisenziya) tələb olunduğu halda, belə razılıq (lisenziya) almadan, yəni sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq, 01 yanvar 2013-cü il tarixdən 31 dekabr 2015-ci il tarixədək xeyli miqdar təşkil edən 48.812,87 manat məbləğində qanunsuz gəlir əldə etmişdir.

Bundan başqa, o, Kərbəlayev Əhəd Eldar oğlunun (VÖEN 1601166842) Novruzov Anar Rabil oğlu ilə Bakı şəhəri Xətai rayonu, N.Rəfıyev küçəsi 13, məhəllə 1176 ünvanda inşa edilən onmərtəbəli binanın fasadının şüşə örtüklə (cəbhə sistemi ilə) bağlanması və binanın pəncərələrinin (alüminium sistemi ilə) düzəldilib, alkopon örtük ilə quraşdırılmasi işlərinin yerinə yetirilməsi barədə bağladığı 15.12.2012-ci il tarixli podrat müqaviləsi üzrə işləri özü yerinə yetirmiş, həmin işlərin görülməsi müqabilində əldə etdiyi gəlirləri vergi orqanına bəyan etməyərək, yəni vergi orqanına bəyannamə təqdim etməməklə 2014-cü ilin 2-ci rübü üzrə 12.560 (on iki min beş yüz altmış) manat sadələşdirilmiş vergini, 2013-cü ilin 1-ci 2015-ci ilin 4-cü rübləri üzrə 32.226,99 manat (otuz iki min iki yüz iyirmi altı manat, 99 qəpik) ödəmə mənbəyində tutulan vergini, 2014-cü il üzrə 2.259,89 manat (iki min iki yüz əlli doqquz manat, 89 qəpik) gəlir vergisini və həmin ilin iyul-avqust ayları üzrə 12.203,39 manat (on iki min iki yüz üç manat, 39 qəpik) əlavə dəyər vergisini, ümumilikdə isə xeyli miqdar təşkil edən 59.250,27 manat (əlli doqquz min iki yüz əlli doqquz manat, 27 qəpik) məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 18 may 2017-ci il tarixli qərarı ilə məhkum Ə.S.Qəhrəmanovun müdafiəçiləri Məmmədov Adəm Məhərrəm oğlu və Əliyev Akif Zakir oğlu tərəfindən verilmiş apellyasiya şikayətləri təmin edilməmiş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 16 fevral 2017-ci il tarixli hökmü dəyişdirilmədən saxlanılmışdır.

Həmin qərardan müdafiəçi A.Z.Əliyev kassasiya şikayəti verərək həmin şikayətini onunla əsaslandırmışdır ki, məhkəmələr tərəfindən sübutlar düzgün tədqiq edilib-qiymətləndirilməmiş, nəticədə zərərçəkmiş şəxslərlə Ələddin Qəhrəmanovun arasında olan hüquq münasibətlərinin mülki xarakter daşımasına, onun sahibkarlıq fəaliyyəti ilə məşğul olmamasına və vergi məsuliyyətindən azad edilməsinə dair səlahiyyətli orqanın qərarının, yəni əməlində cinayət tərkibinin əlamətlərinin olmamasına və təqsirliliyinin sübuta yetirilməməsinə baxmayaraq, o, əsassız olaraq CM-nin 178.3.2, 192.1 və 213.1-ci maddələri ilə təqsirli bilinmiş, bu qanunsuz və əsassız nəticə ilə apellyasiya instansiyası məhkəməsi də lazımi araşdırma aparmadan razılaşmışdır.

Müdafiəçi A.Z.Əliyev kassasiya şikayətində göstərilənləri Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra mətndə CPM-nin) 416.0.6-cı maddəsində nəzərdə tutulmuş halı yaradan pozuntular kimi qiymətləndirərək, həmin əsasla Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 18 may 2017-ci il tarixli qərarının ləğv edilməsini və Ə.S.Qəhrəmanovun barəsində cinayət təqibinə xitam verilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası

müdafiəçinin kassasiya şikayətini CPM-nin 419-cu maddəsinin tələbləri baxımından səlahiyyətlərinə aid olan kassasiya müraciəti kimi görmüş və bu müraciətlə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 18 may 2017-ci il tarixli qərarının qanuniliyini və əsaslılığını yoxlayıb, araşdırmanın nəticələri olaraq aşağıdakıları qeyd etmişdir.

Cinayət məsuliyyətinin əsaslarından bəhs edən CM-nin 3-cü maddəsində təsbit edilir ki, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

CPM-nin 139-cu maddəsi də bu maddədə təsbit olunmuş digər hallarla yanaşı cinayət hadisəsinin baş vermə faktının və hallarının, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətlərinin sübutlara əsasən müəyyən edilməsini tələb edir.

CPM-nin 33.2-ci maddəsinə əsasən cinayət mühakimə icraatı həyata keçirilərkən həmin Məcəllənin 125, 144-146-cı maddələrinin müddəalarının pozulması yolverilməzdir.

CPM-nin 144-cü maddəsinə görə cinayət təqibi üzrə toplanmış sübutlar tam, hərtərfli və obyektiv yoxlanılmalıdır. Yoxlama zamanı cinayət təqibi üzrə toplanmış sübutlar təhlil olunur və bir-biri ilə müqayisə edilir, yeni sübutlar toplanır, əldə olunmuş sübutların mənbəyinin mötəbərliyi müəyyənləşdirilir.

CPM-nin 145-ci maddəsində təsbit olunmuşdur ki, cinayət təqibi üzrə toplanmış bütün sübutların məcmusuna ittihamın həlli üçün onların kifayət etməsinə əsasən qiymət verilməlidir.

CPM-nin 146.1-ci maddəsinə əsasən cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin.

Məhkəmənin hökmünə dair CPM-nin 349.3-cü maddəsi hökmün qanuni və əsaslı olmasını tələb edir.

CPM-nin 349.5-ci maddəsinə əsasən məhkəmənin hökmü aşağıdakı hallarda əsaslı hesab edilir:

_ məhkəmənin gəldiyi nəticələr yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslandıqda (maddə 349.5.1);

_ bu sübutlar ittihamın qiymətləndirilməsi üçün kifayət etdikdə (maddə 349.5.2);

_ məhkəmənin müəyyən etdiyi hallar onun tədqiq etdiyi sübutlara uyğun gəldikdə (maddə 349.5.3).

CPM-nin 353.2.2-ci maddəsinə əsasən məhkəmənin ittiham hökmünün təsviri-əsaslandırıcı hissəsində məhkəmənin nəticəyə gəlməsi üçün əsaslandığı sübutlar və onun tərəfindən digər sübutların rədd edilməsinin motivləri göstərilməlidir.

Təsvir olunan normaların işığında kassasiya şikayətinin dəlillərini baxılan işin materialları, o cümlədən iş üzrə qəbul edilmiş yekun qərarlarla müqayisə etməklə yoxladıqda aşağıdakılar müəyyən olunur.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 16 fevral 2017-ci il tarixli hökmündən göründüyü kimi, məhkəmə hökmün təsviri-əsaslandırıcı hissəsində məhkəmədə tədqiq olunmuş sübutları təsvir etdikdən sonra onların məcmusunun Ələddin Qəhrəmanovu ittiham aktında göstərilən əməllərdə CM-nin 178.3.2-ci maddəsi ilə təqsirli bilmək üçün əsas verməsi, eləcə də onun əməllərində həmin maddənin nəzərdə tutduğu cinayətin tərkibinin olması haqqında nəticəyə gəlmiş, bu nəticə ilə apellyasiya məhkəməsi də razılaşmışdır.

Halbuki, Ələddin Qəhrəmanovdan, zərərçəkmiş şəxslərdən, şahidlərdən alınmış ifadələri, digər sübutları ittihamda göstərilən dələduzluğu təşkil edən əksər epizodlar üzrə müəyyən edilmiş sayılan hallar və talama cinayətlərini xarakterizə edən obyektiv və subyektiv əlamətlər, Ələddin Qəhrəmanovun təqsirli bilindiyi CM-nin 178.3.2-ci maddəsinin dispozisiyası ilə müqayisə etdikdə, həmin sübutların və işin faktik hallarının sözügedən epizodlarda dələduzluq cinayətinin zəruri əlamətlərinin mövcud olması haqqında nəticə ilə uzlaşmadığı aydın olur.

Cinayət-hüquq ədəbiyyatında talama cinayətlərini xarakterizə edən, eyni zamanda onları əmlak zərəri ilə müşayiət edilən digər cinayətlərdən ayırmağa imkan verən obyektiv və subyektiv əlamətlər göstərilmişdir.

Talama cinayətlərinin obyektiv, yəni cinayətlərin obyektini və obyektiv cəhətlərini

səciyyələndirən əlamətlər kimi aşağıdakılar qeyd olunur:

_ özgə əmlakının ələ keçirilməsi, yəni götürülməsi (zərərçəkmişin əmlakının kütləsindən ayrılması) və (və ya) təqsirkarın özünün və yaxud digər şəxslərin nəfinə keçirilməsi;

_ götürülmənin və nəfinə keçirilmənin hüquqa zidd olması;

_ bunların əvəzsiz olması;

_ cinayətin predmeti kimi özgə əmlakının (əmlaka olan hüququn) çıxış etməsi;

_ mülkiyyətçiyə və yaxud əmlaka sahiblik edən digər şəxsə birbaşa əmlak zərərinin vurulması.

Subyektiv, yəni talama cinayətlərini xarakterizə edən daxili əlamətlərə isə aşağıdakılar aid edilir:

_ birbaşa qəsd;

_ tamah məqsədi

Talama cinayətlərindən sayılan dələduzluq CM-nin 178.1-ci maddəsinin dispozisiyasında etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgə əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə kimi təsbit edilmişdir.

Bu müddəaya və talama cinayətlərinin ümumi əlamətlərini xarakterizə edən əlamətlərə görə aldatmadan, etibardan istifadə edən şəxsin qəsdi birbaşa və məhz həmin üsulların köməkliyi ilə əmlakın ələ keçirilməsinə, əmlak hüquqlarının əldə edilməsinə yönəlməlidir.

Odur ki (əməl hüququn əldə edilməsində deyil, əmlakın ələ keçirilməsində ifadə olunduqda), dələduzluq cinayətinin subyektiv cəhəti aldatma və etibardan sui-istifadə etməklə özgə əmlakını ələ keçirən şəxsin əmlakı ələ keçirmək niyyətinin həmin əmlakın ona verilməsinədək mövcud olmasını və buna müvafiq olaraq məqsədinin digər talama cinayətlərində olduğu kimi, əmlakın əvəzsiz olaraq ələ keçirilməsinə yönəlməsini ehtiva edir.

Dələduzluq cinayət qanununda maddi tərkibli cinayət olaraq təsbit edildiyindən, əməl özgə əmlakının aldatma yolu ilə ələ keçirilməsinə yönəldikdə, əmlakın faktiki olaraq ələ keçirilməsi (təqsirkarın həmin əmlak üzərində real olaraq sərəncam vermək imkanı əldə etməsi) anından bitmiş olur.

Bu səbəbdən əmlakı sahibliyinə keçirərkən (məsələn, müəyyən razılaşmaya, müqaviləyə əsasən) şəxsdə bu cür (aldatma, etibardan sui-istifadə etməklə özgə əmlakını əvəzsiz olaraq ələ keçirmə) niyyətinin olmaması, sonrakı dövrdə əmlak, əmlakın əvəzi maliyyə çətinlikləri, iflasa uğrama kimi səbəblərlə əlaqədar mülkiyyətçiyə qaytarılmadıqda və yaxud şəxs əldə etdiyi əmlakın müqabilində üzərinə götürdüyü öhdəliyi yerinə yetirə bilmədikdə, onun belə hərəkət etməsi CM-nin 178-ci maddəsinin dispozisiyası nöqteyi-nəzərindən cinayət-hüquqi məna kəsb etməyərək əvvəlki razılaşmanın (müqavilə üzrə öhdəliyin) lazımınca icra olunmaması, yəni mülki-hüquqi xarakterli pozuntu kimi çıxış edir və göstərilən hal şəxsi mülki-hüquq münasibətlərinin sübyektindən dələduza çevirmir.

Hətta, zərəçəkmiş şəxsin maddi zərər görməsi təqsirkarın kriminal xarakterli niyyət və məqsədləri ilə bağlı olduqda belə, müstəsna olaraq bundan çıxış etməklə CM-nin 178-ci maddəsinin tərkibinin mövcudluğu barədə mühakimə yürütmək düzgün deyil.

Çünki, yuxarıda təsvir edilmiş talama cinayətlərini xarakterizə edən ümumi əlamətlərdən və CM-nin 178.1-ci maddəsinin dispoziyasından irəli gələn mənaya görə, söhbət özgə əmlakının ələ keçirilməsində ifadə olunmuş dələduzluq cinayəti üzrə ittihamından gedirsə, təqsirkarın zərəçəkmiş şəxsin mövcud olan əmlakını ələ keçirməsi (mövcud əmlak kütləsindən hansısa hissəsini ayırıb özünün və yaxud üçüncü şəxsin nəfinə keçirməsi) tələb olunur. Belə (əmlakın ələ keçirilməsi ilə bağlı) dələduzluqda zərərçəkmiş şəxsin maddi zərər görməsi onun gözlənilən artımı, qazancı almamasında deyil, mövcud olan əmlak kütləsinin ələ keçirilmiş əmlak hesabına azalmasında (malik olduğu əmlakdan məhrum edilməsində) ifadə olunmalıdır.

Zərərçəkmiş şəxs Əliyev Azər Rasim oğlunun verdiyi ifadələrdən isə görünür ki, ittihamda ona qarşı törədilən dələduzluq cinayətləri kimi göstərilmiş bütün epizodlarda onunla Ələddin Qəhrəmanov arasında birgə iş görmək, qazanc götürmək və bu qazancı aralarında bölüşdürmək barədə razılaşma olmuş və epizodların əksəriyyətində (yəni 125.000 manat məbbğində və 18.720 manat məbləğində ziyanın vurulması ilə bağlı epizodlarda) onun ziyan çəkməsi Ələddin Qəhrəmanovun onu

əmlakından məhrum etməsində (Azər Əliyevin mövcud olan əmlak kütləsinin azalmasında) deyil, gördüyü işin müqabilində gözlədiyi pulu (mövcud əmlak kütləsinə artımı) almamasında ifadə olunmuşdur.

Eynilə zərərçəkmiş Məlikov Kamran Yadulla oğlunun da məhkəmədə verdiyi ifadəsinə görə onunla Ələddin Qəhrəmanov arasında inşaat işi görmək barədə razılaşma olmuş və işi görüb qurtardıqdan sonra Ələddin Qəhrəmanov ona verməli olduğu pulu tam olaraq verməmiş, yəni Azər Əliyev kimi o, da mövcud əmlakından məhrum olunmamış, əmlak kütləsinə gözlədiyi artımı ala bilməmişdir (o, birinci instansiya məhkəməsində elan edilmiş ibtidai istintaq zamanı verdiyi ifadəsində bildirmişdir ki, gördüyü işə görə Ələddin Qəhrəmanov ona verməli olduğu 145.728 manatdan 103.000 manatını vermiş, 42.728 manat pulu isə verməmişdir).

Zərərçəkmiş Nəbiyev Fuad Məhəmməd oğlu da ifadəsində göstərmişdir ki, rəhbərlik etdiyi «Tekoplast» şirkətindən plastik məmulatların Ələddin Qəhrəmanova nisyə (pulunu sonradan ödəmək şərti ilə) satılması haqqında aralarında razılşama olmuş, Ə.Qəhrəmanov aldığı malın pulunu əsasən (297.614,29 manat dəyərində malın 146.303,56 manat məbləğində hissəsini - pul şəklində, 9.038,93 manat dəyirində hissəsini – malı geri qaytarmaqla) ödəmiş, satılmış məmulatlara görə ümumilikdə 42.272,80 manatı ödəməmişdir.

Nə Fuad Nəbiyevin, nə də ki, Azər Əliyevin və yaxud Kamran Məlikovun ifadələrindən, eləcə də birinci instansiya məhkəməsində tədqiq olunmuş digər sübutlardan Ələddin Qəhrəmanovun bu şəxslərlə razılığa gələrkən həqiqi niyyətinin razılaşmanın şərtlərinə əməl etmək olmadığı (onları aldadıb hansısa əmlaklarını əvəzsiz olaraq ələ keçirmək olduğu) görünmür. Əksinə, Ələddin Qəhrəmanovun Fuad Nəbiyevə və Kamran Məlikova onlarla razılaşdırılmış məbləğlərin əksər hissələrini ödəməsi razılaşmalardan əvvəl Ə.Qəhrəmanovda belə bir niyyətin olması haqqında nəticəni ciddi şəkildə şübhə altına alır (Ələddin Qəhrəmanovun özü isə birinci instansiya məhkəməsində verdiyi ifadəsində zərərçəkmiş qismində tanınmış şəxslərlə əldə olunmuş işlərin görülməsi, malın satılması barədə bütün razılaşmaları həmin razılaşmaların geçək məzmununa uyğun olan niyyətlə bağladığını, heç vaxt onları aldatmaq, bu yolla onların əmlakını ələ keçirmək məqsədində olmadığını və reallıqda da belə halların baş vermədiyini göstərmişdir. Onun ifadəsinə görə əslində, zərərçəkmiş şəxslərin narazı olmaları ondan asılı olmayan səbəblərdən, hətta bəzi hallarda onların özlərinin razılşamaların şərtlərinə əməl etməmələrindən irəli gəlmişdir).

Bundan başqa, artıq yuxarıda əsaslandırıldığı kimi, dələduzluq cinayəti üzrə ittihama daxil edilmiş zərərçəkmiş Azər Əliyevlə bağlı epizodların əksəriyyətində, eləcə də zərərçəkmiş şəxs Kamran Məlikovla bağlı epizodda Ələddin Qəhrəmanovun həmin şəxslərin mövcud əmlakını ələ keçirməsi (mövcud olan əmlak kütləsindən bir hissəsini ayırmaqla onları həmin əmlakdan məhrum etməsi) müəyyən edilməmişdir.

Hətta ittiham aktında və məhkəmə qərarlarında belə sözügedən əməllər zərərçəkmiş Kamran Məlikovun və Azər Əliyevin mövcud əmlaklarından məhrum edilmələri kimi deyil, razılaşmaya əsasən almaları olduqları əmlakı (artımı, qazancı) almamaları kimi təsvir edilmişdir.

Həmin təsvirlərlədən və bu təsvirlərin əsasına qoyulmuş zərərçəkmiş şəxslər Azər Əliyevin və Kamran Məlikovun ifadələrindən o da görünmür ki, onlar hansısa əmlakını aldatmanın və yaxud Ələddin Qəhrəmanova olan inam və etibarın təsiri altında, lakin zahirən könüllü olaraq Ə.Qəhrəmanova vermişlər.

Halbuki, bu əlamət də dələduzluq cinayətini səciyyələndirən, onu digər, o cümlədən əmlakın zərərçəkmiş şəxslərin iradəsi ziddinə olaraq ələ keçirilməsində ifadə olunan talama cinayətlərindən fərqləndirən mühüm xüsusiyyətdir.

Belə olan halda, məhkəmələr tərəfindən dələduzluq cinayətinin tərkibinin subyektiv və obyektiv cəhətlərinə aid olan əlamətlərin mötəbərliliklə müəyyən edilməsi haqqında nəticə çıxarmaq mümkün deyil.

Təsvir olunanlardan görünür ki, birinci və apellyasiya instansiyası məhkəmələri Ələddin Qəhrəmanova qarşı CM-nin 178.3.2-ci maddəsi ilə irəli sürülmüş ittiham üzrə yekun nəticəyə gələrkən sübutların tədqiqinə və qiymətləndirilməsinə dair CPM-nin 144, 145 və

146-cı maddələrinin tələblərinə əməl etməmiş, yəni məhkəmə qərarının kassasiya qaydasında ləğv edilməsini tələb edən CPM-nin 416.0.2-ci maddəsində nəzərdə tutulmuş pozuntuya yol vermişlər.

Sübutetmə qaydalarının pozuntuları ilə əldə olunmuş Ələddin Qəhrəmanovun şərh edilən əməllərində dələduzluq cinayətinin tərkibinin olması və həmin əməllərə görə onun CM-nin 178.3.2-ci maddəsi ilə təqsirli bilinməsi barədə nəticə isə mötəbər sayıla bilməz.

Məhkəmə kollegiyası Ələddin Qəhrəmanovun yalnız CM-nin 178.3.2-ci maddəsi ilə (şərh olunan epizodlar üzrə) deyil, digər epizodlar və maddələr üzrə də təqsirli bilinməsi hissəsində birinci instansiya məhkəməsinin gəldiyi nəticələrin yoxlanılması məqsədilə apellyasiya baxışının təkrarlanmasını məqsədəuyğun saymış və bunu zəruri edən əsaslar kimi aşağıdakıları qeyd etmişdir.

CPM-nin 419.11-ci maddəsinə görə, kassasiya instansiyası məhkəməsi birinci və apellyasiya instansiyası məhkəməsində məhkəmə baxışının predmeti olmayan faktları müəyyən edə və ya onları sübuta yetirilmiş hesab edə bilməz.

Bu normanın mənasına görə, kassasiya məhkəməsi kassasiya müraciətlərinə baxarkən bilavasitə özü sübutları təhlil etməklə işin faktiki hallarını müəyyən etməyə haqlı deyil. Həmin halların müəyyən edilməsi qanunla birinci və apellyasiya instansiyası məhkəmələrinin səlahiyyətlərinə aid edilmişdir. Kassasiya instansiyası məhkəməsi isə müvafiq kassasiya müracəti olduqda birinci və apellyasiya instansiyası məhkəmələri tərəfindən müəyyən edilmiş faktiki hallara cinayət qanunu normalarının tətbiqini və həmin halların müəyyən edilməsi, ümumiyyətlə cinayət prosesinin həyata keçirilməsi zamanı cinayət-prosessual qanunun tələblərinə əməl olunub-olunmadığını yoxlaya bilər.

Başqa sözlə, kassasiya instansiyası məhkəməsinin hüquqi məsələlər üzrə nəticələrə gəlməsi üçün maddi əsas rolunda onun özünün işin faktik hallarına dair qənaəti, sübutların qiymətləndirilməsinə dair mülahizələri deyil, birinci və apellyasiya instansiyası məhkəmələrinin sübutların qiymətləndirilməsi və faktlar barədə qənaətləri çıxış etməlidir.

Bu səbəbdən, birinci instansiya məhkəməsinin sübutların qiymətləndirilməsi, faktların müəyyən edilməsi üzrə nəticələrini mübahisələndirən dəlillərlə məhkum edilmiş şəxslərə barətin verilməsi haqqında tələblər əsaslandırıldıqda, həmin dəlillərin apellyasiya instansiyası məhkəməsində lazımınca yoxlanılması kassasiya instansiyası məhkəməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Çünki, özü bilavasitə sübutları tədqiq edib faktları müəyyən etmək səlahiyyətində olmayan kassasiya instansiyası məhkəməsi yalnız bu məsələlər apellyasiya instansiyası məhkəməsində tam, hərtərəfli və obyektiv yoxlanıldıqda, onların (həqiqiliyi şübhə doğurmayan faktların) üzərində öz mülahizə və nəticələrini qura bilər.

Apellyasiya məhkəməsində aparılmış araşdırmanın həmin meyarlara cavab verməməsi kassasiya instansiyası məhkəməsinin sübutetmənin, faktların mübahisələndirildiyi və belə dəlillərlə məhkəmə qərarlarının ləğv edilməsi haqqında tələblərin irəli sürüldüyü kassasiya müraciətləri üzrə nəticiələrə gəlməsi üçün ciddi maneə yaradır.

Apellyasiya məhkəməsində aparılmış araşdırmanın keyfiyyətli və onun nəticələrinin inandırıcı olması üçün isə belə araşdırma zamanı sübutların bilavasitə tədqiq edilməsi və faktların bir daha araşdırılması tələb olunur ki, bunu da məhkəmə istintaqı aparmadan həyata keçirmək mümkün deyil.

Hazırki işdə isə apellyasiya instansiyası məhkəməsi məhkumun müdafiəçiləri tərəfindən ayrı-ayrılıqda verimiş Ələddin Qəhrəmənovun CM-nin 178.3.2, 192.1, 213.1-ci maddələri ilə təqsirli bilinməsinin mübahisələndirildiyi və ona bəraət verilməsi haqqında tələblərin irəli sürüldüyü apellyasiya şikayətlərinə məhkəmə istintaqı aparmadan, faktları və sübutları bilavasitə araşdırmadan baxmış və həmin müracətlərin rədd edilməsi haqqında qərar çıxarmışdır.

Odur ki, məhkəmə kollegiyası kassasiya şikayətinin təmin edilməsinə dair müdafiəçinin və kassasiya şikayətinin təmin edilməməsinə dair dövlət ittihamçısının çıxışlarını dinləyib, şərh edilən əsaslara görə müdafiəçi Z.Əliyev tərəfindən verilmiş kassasiya şikayətinin qismən təmin edilməsi və Bakı Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının

Qəhrəmanov Ələddin Süliddin oğlunun barəsində olan 18 may 2017-ci il tarixli qərarının ləğv edilməsi, cinayət işinin isə apellyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilməsi haqqında qərar qəbul etmişdir.

## Məhkəmələr araşdırılmış sübutları qanuna müvafiq qaydada qiymətləndirərək və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinə, habelə formalaşmış məhkəmə təcrübəsinə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-cü maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "könüllü azad etmə" ifadəsini düzgün təfsir etdiklərindən və təqsirləndirilən şəxslərin qrup şəklində xuliqanlıq cinayətini törətmələri barədə əsaslı nəticəyə gəldiklərindən apellyasiya instansiyası məhkəməsinin qərarından verilmiş kassasiya protesti və kassasiya şikayətləri təmin edilməmişdir.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 04 mart 2016-cı il tarixli hökmü ilə Səlimov Cəfər Qəfər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bundan sonra mətndə CM-nin) 144.3, 221.2.1 və 221.2.2-ci maddələri ilə təqsirli bilinib, CM-nin 144.3-cü maddəsi ilə 10 (on) il 6 (altı) ay müddətə, CM-nin 221.2.1 və 221.2.2-ci maddələri ilə 2 (iki) il müddətə, CM-nin 66.3-cü maddəsinə əsasən isə həmin cəzaları qismən toplamaq yolu ilə cinayətlərin məcmusu üzrə 11 (on bir) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, şübhəli şəxs qismində tutulub saxlanıldığı 3 (üç) gün cəzadan çıxılmaqla üzərində qəti olaraq 10 (on) il 11 (on bir) ay 27 (iyirmi yeddi) gün müddətə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

Həmin hökmlə həmçinin Səmədov Elnur Əli oğlu CM-nin 144.3, 221.2.1 və 221.2.2-ci maddələri ilə təqsirli bilinərək, CM-nin 144.3-cü maddəsi ilə 10 (on) il müddətə, CM-nin 221.2.1 və 221.2.2-ci maddələri ilə 2 (iki) il müddətə, CM-nin 66.3-cü maddəsinə əsasən isə həmin cəzaları qismən toplamaq yolu ilə cinayətlərin məcmusu üzrə 10 (on) il 6 (altı) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, şübhəli şəxs qismində tutulub saxlanıldığı 3 (üç) gün cəzadan çıxılmaqla üzərində qəti olaraq 10 (on) il 5 (beş) ay 27 (iyirmi yeddi) gün müddətə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

Məhkəmənin hökmünə əsasən, Səlimov Cəfər Qəfər oğlu 08 iyun 1998-ci il təvəllüdlü Cəbrayılova Məryəm Səyyar qızını evlənmək məqsədi ilə oğurlamaq qərarına gəlib həmin oğurluqda ona yardımçı olmağı bacısının əri Səmədov Elnur Əli oğluna təklif edib axırıncının bu təkliflə razılığını alaraq onunla qabaqcadan əlbir olan bir qrup təşkil etmiş və aralarındakı razılaşmaya əsasən 25 may 2015-ci il tarixdə, saat 13 radələrində Elnur Səmədovun idarə etdiyi VAZ-2106 markalı 54-BD-332 dövlət nömrə nişanlı avtomobillə Məryəm Cəbrayılovanın təhsil aldığı Sabirabad şəhərində yerləşən Sabirabad Dövlət Sosial İqtisadi Kollecinin qarşısına gəlib gözləmişlər. Təxminən saat 13:30 radələrində tələbə yoldaşları arasında kollecdən çıxıb evə gedən Cəbrayılova Məryəm Səyyar qızı onların avtomobilinin yanından keçib gedərkən, aralarında müəyyən etdikləri rol bölgüsünə əsasən Cəfər Səlimov avtomobildən düşərək, Məryəm Cəbrayılovanın digər tələbə yoldaşları arasında olması və ona qarşı zor işlətməsinin həmin şəxslərdə də qorxu və narahatlıq yaradacağının fərqinə varmadan, onu tələbə yoldaşları və digər çoxsaylı şəxslərin gözü qarşısında əlləri ilə tutub, qışqırıb köməyə çağırmasına baxmayaraq, zor tətbiq etməklə avtomobillərinə gətirib arxa oturacaqda oturdub qolları arasında sıxmaqla saxlayaraq Məryəm Cəbrayılovaya sol əl barmaqlarında kəskin ağrı və hərəkət məhdudluğu ilə müşayiət olunan, sol əlin üst səthində qançır, şişkinlik, sol kürəküstü nahiyədə, sol bazunun yuxarı 1/3-də iç səthdə qançırla nəticələnən sağlamlığın qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərər vurmaya aid xəsarətlər yetirməklə ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, yəni ictimai və şəxsi mənafeylərə əhəmiyyətli ziyan vuran, cəmiyyətdə insanlar arasında bərqərar olmuş ədəb qaydalarının qərəzli sürətdə pozulmasında ifadə olunan, ətrafdakı insanlarda qorxu və narahatlıq yaradan hərəkətlər, yəni qərəzli

hərəkətlər etmiş, eləcə də həmin vaxt Cəfər Səlimovla Elnur Səmədov tərəfindən tələbə yoldaşı olan Məryəm Cəbrayılovanı oğurlamalarının və bunun müşayiət edildiyi ictimai qaydanın axırıncı üzərində zor göstərməklə kobud surətdə pozulmasının qarşısını, yəni ictimai qaydanın pozulmasının qarşısını almaq üçün kollecin tələbəsi Qurbanəliyev Elmar Əlifağa oğlunun avtomobilə daxil olub Məryəm Cəbrayılovanı onu tutub saxlamış Cəfər Səlimovun əlindən almaq istəyərkən buraxmayıb ona müqavimət göstərməklə, Elnur Səmədovun isə Elmar Qurbanəliyevə onlara mane olmasına imkan verməmək və bununla da öz niyyətlərini həyata keçirmək məqsədi ilə, həmin vaxt axırıncının bədəninin yarıyadək avtomobilin salonunda olmasına baxmayaraq, idarə etdiyi avtomobili qəsdən arxaya hərəkət etdirmiş və müvazinətini saxlamaq üçün özünü salondan çıxarmağa məcbur olmuş Elmar Qurbanəliyevi avtomobilin açıq qalmış sağ qabaq qapısı ilə sıxmaqla ona sağ diz oynağının hərəkət məhdudluğu və kəskin ağrı ilə müşayiət olunan, sağ diz oynağının ön səthində qançır, şişkinlik, sağ məmə xətti üzrə 10-cu qabırğa səviyyəsində qançırla nəticələnən sağlamlığın qısa müddətə pozulmasına səbəb olan sağlamlığa yüngül zərər vurmaya aid xəsarət yetirmiş, daha sonra Məryəm Cəbrayılovanı oğurlayıb hadisə yerindən uzaqlaşmış və beləliklə də, Səlimov Cəfər Qəfər oğlu Səmədov Elnur Əli oğlu ilə bir qrupda ictimai qaydanın pozulmasının qarşısını alan digər şəxsə müqavimət göstərməklə xuliqanlıq etmişlər və qabaqcadan əlbir olan bir qrupda yetkinlik yaşına çatmayan şəxsi oğurlamışlar.

Hökmdən dövlət ittihamçısı apellyasiya protesti, məhkum Q.C.Səlimov, onun müdafiəçisi Məmmədov Məmmədqulu Calal oğlu, məhkum E.Ə.Səmədov və müdafiəçisi Həsənov İbarət Əhəd oğlu isə apellyasiya şikayətləri vermişlər.

Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 28 noyabr 2016-cı il tarixli qərarı ilə dövlət ittihamçısının apellyasiya protesti təmin edilməmiş, apellyasiya şikayətləri isə təmin edilərək Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 04 mart 2016-cı il tarixli hökmü dəyişdirilmiş, CM-nin 144-cü maddəsinin "Qeyd" hissəsinə əsasən – oğurladıqları adamı könüllü azad etdiklərinə görə Cəfər Səlimov və Elnur Səmədov cinayət məsuliyyətindən azad edilməklə, C.Q.Səlimova və E.Ə.Səmədova qarşı CM-nin 144.3-cü maddəsi ilə irəli sürülmüş ittiham üzrə cinayət təqibinə xitam verilmiş, hökmdən onlara CM-nin 66.3-cü maddəsinə əsasən cinayətlərin məcmusu üzrə cəzaların təyin edilməsinə dair müddəalar xaric edilmiş, C.Səlimova və E.Səmədova CM-nin 221.2.1, 221.2.2-ci maddələri ilə təyin olunmuş 2 (iki) il müddətə azadlıqdan məhrum etmə cəzalarından onların şübhəli şəxs qismində tutulub saxlanıldıqları 3 (üç) gün çıxılmış, hər birinin üzərində qəti olaraq 1 (bir) il 11 (on bir) ay 27 (iyirmi yeddi) gün müddətə azadlıqdan məhrum etmə cəzası saxlanılmış, C.Səlimovun və E.Səmədovun cəzalarını ümumi rejimli cəzaçəkmə müəssisələrində çəkməsi qərara alınmış, qalan hissələrdə isə hökm dəyişdirlmədən saxlanılmışdır.

Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 28 noyabr 2016-cı il tarixli qərarından dövlət ittihamçısı kassasiya protesti, məhkum C.Q.Səlimovun müdafiəçisi R.T.Alışov və məhkum E.Ə.Səmədovun müdafiəçisi C.İ.İsgəndərov isə kassasiya şikayətləri vermişlər.

Zərərçəkmiş Cəbrayılova Məryəm Səyyar qızının qanuni nümyəndəsi Cəbrayılov Səyyar Məcnun oğlu müdafiə tərəfinin kassasiya şikayətlərinə qarşı etiraz vermişdir.

Dövlət ittihamçısı kassasiya protestini onunla əsaslandırmışdır ki, məhkəmələr sübutetməyə dair cinayət-prosessual qanunun tələblərini pozmuş, nəticədə əsassız olaraq Səlimov Cəfər Qəfər oğlunun və Səmədov Elnur Əli oğlunun zərərçəkmiş şəxs Məryəm Cəbrayılovanı könüllü olaraq azad etmələri barədə işin həqiqi hallarına uyğun olmayan nəticəyə gəlmiş və apellyasiya məhkəməsi həmin əsasla CM-nin 144-cü maddəsinin "Qeyd" hissəsinə istinad etməklə C.Səlimovu və E.Səmədovu CM-nin 144.3-cü maddəsi ilə irəli sürülmüş ittiham üzrə cinayət məsuliyyətindən azad etmişdir.

Dövlət ittihamçısı kassasiya protestində göstərilənləri Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra mətndə CPM-nin) 416.0.2, 416.0.3, 416.0.15-ci maddələrində nəzərdə tutulmuş halları yaradan pozuntular kimi qiymətləndirərək, həmin

əsaslarla Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 28 noyabr 2016-cı il tarixli qərarının ləğv edilməsini, cinayət işinin apellyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilməsini xahiş etmişdir.

Müdafiəçilər kassasiya şikayətlərini onunla əsaslandırmışlar ki, Cəfər Səlimovun və Elnur Səmədovun hərəkətlərində xuliqanlıq cinayətinin tərkibi olmadığı, onlar cəmiyyətə qarşı hörmətsizlik etməyib, yalnız zərərçəkmiş şəxs Məryəm Cəbrayılovanı qaçırmaq barədə məqsədlərini həyata keçirdikləri halda əsassız və qanunsuz olaraq CM-nin 221.2.1, 221.2.2-ci maddələri ilə təqsirli bilinmişlər.

Müdafiəçilər kassasiya şikayətlərində göstərilənlərə əsasən Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 28 noyabr 2016-cı il tarixli qərarının ləğv edilməsini, cinayət işi üzrə icraata xitam verilməsini xahiş etmişlər.

Zərərçəkmiş M.S.Cəbrayılovanın qanuni nümyəndəsi Cəbrayılov Səyyar Məcnun oğlu müdafiə tərəfinin kassasiya şikayətlərinə qarşı etirazında həmin şikayətlərin əsassız olduğunu bildirmişdir.

Aərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası dövlət ittihamçısının kassasiya protestini, eləcə də müdafiəçilərin kassasiya şikayətlərini CPM-nin 419-cu maddəsinin tələbləri baxımından səlahiyyətlərinə aid olan kassasiya müraciətləri kimi görərək müraciətlərlə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 28 noyabr 2016-cı il tarixli qərarının qanuniliyini və əsaslılığını yoxlayıb, araşdırmanın nəticələri olaraq aşağıdakıları qeyd etmişdir.

Dövlət ittihamçısının Səlimov Cəfər Qəfər oğlunun və Səmədov Elnur Əli oğlunun hərəkətlərinə əsassız olaraq şamil olunduğunu iddia etdiyi CM-nin 144-cü maddəsinin "Qeyd" hissəsində deyilir:

"Əməllərində başqa cinayətin tərkibi olmayan və oğurlanmış adamı könüllü azad edən şəxs cinayət məsuliyyətindən azad olunur".

Göründüyü kimi, adam oğurluğu cinayətini törətmiş şəxsin həmin əmələ görə (CM-nin 144-cü maddəsi ilə) cinayət məsuliyyətindən azad edilməsinin zəruri şərti oğurlanmış adamı məhz könüllü olaraq azad etməsidir ki, dövlət ittihamçısı da həmin əlamətin mövcudluğunu inkar edir.

Bu səbəbdən məhkəmə kollegiyası ilk növbədə "könüllü azad etmə" ifadəsinin təfsirinə dair məhkəmələrin hüquqi mövqeyinə, daha sonra isə iş üzrə müəyyən edilmiş faktiki halların zərərçəkmiş Məryəm Cəbrayılovanın cinayət törətmiş şəxslər tərəfindən məhz könüllü olaraq azad edilməsi barədə nəticə çıxarmaq üçün əsas verib-verməməsinə münasibətini bildirəcəkdir.

Birinci instansiya məhkəməsinin hökmündən və şərh edilən məsələdə onunla razılaşan apellyasiya instansiyası məhkəməsinin yekun qərarından görünür ki, onlar adam oğurluğu cinayətində "könüllü azad etmə"ni təqsirkarın bu cinayəti uzatmaq, yəni zərərçəkmiş şəxsi saxlamaq üçün real imkanı olduğu halda onu sərbəst buraxması kimi başa düşmüşlər.

Məhkəmələr hesab etmişlər, təqsirkar oğurladığı şəxsi saxlamağa real imkanı olduğu halda sərbəst buraxarsa, onun bu cür davranmasının hansı motivlə şərtləndirilməsi əhəmiyyətli deyil. Hətta, təqsikarın cinayət məsuliyyətinə cəlb olunacağından ehtiyatlandığı üçün zərərçəkmişi sərbəst buraxması belə azad etmənin könüllülüyünü, müvafiq olaraq da cinayət törətmiş şəxsin CM-nin 144-cü maddəsinin qeydinə əsasən cinayət məsuliyyətindən azad edilməsini istisna etmir.

Məhkəmə kollegiyası "könüllü azad etmə" anlayışının bu cür təfsir olunması ilə razılaşmamaq üçün əsas görmür.

Çünki, məhkəmələrin yanaşması Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin CM-nin 59.1.9-cu maddəsində cəzanı yüngülləşdirən hal qismində nəzərdə tutulmuş "könüllü gəlib təqsirini boynuna alma"nın təfsir edilməsi ilə əlaqədar "könüllülük" anlayışına verdiyi izaha, CM-nin 144-cü maddəsinin qeydi ilə eyni məzmunda stimullaşdırıcı normanı nəzərdə tutan qonşu ölkələrin hüquqtətbiqetmə təcrübəsinə, cinayət-hüquq ədəbiyyatında hakim mövqe kimi təqdim olunan alimlərin yanaşmasına tam uyğundur.

Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2 aprel 2012-ci il tarixli

qərarında CM-nin 59.1.9-cu maddəsinin “könüllü gəlib təqsirini boynuna alma” müddəası törədilmiş və ya hazırlanan cinayətdə iştirak etməsi barədə şəxsin azad və könüllü surətdə (hər hansı bir psixi və ya fiziki təsirə məruz qalmadan) istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanlara və ya digər dövlət orqanına gələrək yazılı və ya şifahi şəkildə məlumat verməsi kimi təfsir edilmişdir.

Konstitusiya Məhkəməsi hüquq-mühafizə orqanlarına törədilmiş cinayət və onu törədən şəxsin məlum olduğu, lakin onun tapılması üçün əməliyyat-axtarış tədbirlərinin heç bir nəticə vermədiyi halda şəxsin könüllü gəlib təqsirini boynuna almasını da CM-nin 59.1.9-cu maddəsində göstərilən cəzanı yüngülləşdirən halı meydana gətirən əsas kimi təfsir etmişdir.

Qərarın təsviri-əsaslanıdırcı hissəsində Konstitusiya Məhkəməsinin gətirdiyi mülahizələrdən aydın olur ki, şəxsin fiziki və ya psixi təsirə məruz qalması nəticəsində müvafiq orqanlara gəlib təqsirini boynuna alması onun öz iradəsi ziddinə hərəkət etməsini, bu cür davranışa məcbur edilməsini nəzərdə tutur.

Belə ki, qərarda qeyd olunur ki, “könüllü gəlib təqsirini boynuna alma heç bir məcburiyyət olmadan təqsirkar şəxsin könüllü olaraq öz-özünü istintaq, təhqiqat və əməliyyat axtarış fəaliyyətini həyata keçirən orqanlara və ya digər dövlət orqanına təqdim etməsini, törədilmiş və ya hazırlanan cinayət və ya həmin cinayətdə iştirak etməsi barədə bu orqanlara dürüst məlumat verməsini ehtiva edir”.

Daha sonra Konstitusiya Məhkəməsi vurğulayır: “könüllülük özü-özlüyündə şəxsin öz hərəkətlərinə şüurlu şəkildə yanaşması ilə bağlı olduğundan, bu zaman onun iradəsinə zidd hər hansı formada məcburi xarakter daşıyan hərəkətlər yolverilməzdir. Bu isə cinayət prosesini həyata keçirən orqanın üzərinə könüllülüyün məcburi olmamasının hərtərəfli araşdırılması vəzifəsini qoyur”.

Göründüyü kimi, kənar təsir məcburedici xarakterə malik olduqda və bunun nəticəsi olaraq şəxsin iradəvi hərəkət etmək, öz davranışı barədə müstəqil qərar vermək imkanlarını məhdudlaşdırdıqda, davranış aktının könüllülüyünü (o cümlədən təqsirkarın könüllü gəlib təqsirini boynuna alması, adam oğurluğu cinayətini törətmiş şəxsin zərərçəkmişi könüllü olaraq azad etməsi hallarının mövcudluğunu) istisna edən xüsusat kimi qəbul edilə bilər.

Hətta, şəxsin onun törətdiyi cinayət haqqında üçüncü şəxslərin (məsələn, özünün və yaxud zərərçəkmiş şəxsin yaxınlarının) məlumatlı olmasını, onlar tərəfindən axtarılmasını bilməsi belə məcburi şəkildə onun sonrakı davranışını müəyyənləşdirən hallar deyil. Çünki, qeyd olunan hallar özü-özlüyündə cinayət törətmiş şəxsin əməlini davam etdirməkdən vaz keçmək və yaxud qaçıb daha yaxşı saxlanmaq (zərərçəkmiş şəxsi daha etibarlı mühafizə etmək) kimi davranış aktları arasında seçim etmək imkanını onun əlindən almır. Və bu cür (təqsirkar tərəfindən dərk edilən obyektiv) imkanlar olduğu vəziyyətdə o, gizlənməyi, oğurladığı adamı daha etibarlı saxlamağı yox, məhz sərbəst buraxmağı seçirsə, bu onun iradəsinin ifadəsi kimi çıxış edir, şüurlu və sərbəst şəkildə ictimai faydalı və ictimai ziyanlı davranış modelləri arasında seçimi birincinin xeyrinə etdiyini göstərir.

Eynilə, məzmunca məsləhət, nəsihət, tövsiyə kimi çıxış edən müraciətlər (o cümlədən, təqsirkarın və ya zərərçəkmişin yaxınlarının cinayətin pis sonluqla, məsuliyyətə cəlb olunma ilə nəticələnə biləcəyi barədə xəbərdarlıqları) da özü-özlüyündə məcbur etmə kimi xarakterizə edilə, məsləhətin (nəsihətin, tövsiyənin, xəbərdarlığın) yönəldiyi subyektin iradə sərbəstliyini məhdudlaşdıran əsaslar kimi qiymətləndirilə bilməzlər (cinayət törədən şəxs əməlini davam etdirməyə imkanı olduğu halda başqasının müraciətindən sonra zərərçəkmiş şəxsi sərbəst buraxdığı hallarda).

Hətta, şəxsin əvvəlcə bir cür davranış modelini seçib, ona verilən məsləhətdən (tövsiyədən, nəsihətdən, xəbərdarlıqdan) sonra davranışını həmin müraciətə uyğun olaraq dəyişməsi onun belə davranmağa məcbur edilməsi kimi şərh edilməməlidir. Ona görə ki, üçüncü şəxslərin cinayət barədə bilməsi vəziyyətində olduğu kimi, bu halda da özü-özlüyündə verilmiş məsləhət (nəsihət, özünün və yaxud zərərçəkmişin yaxınlarının xəbərdarlığı) cinayət törətmiş şəxsin öz iradəsi ilə hərəkət etmək imkanını məhdudlaşdırmır və onu seçim sərbəstliyindən məhrum etmir. Odur ki, məsləhətdən (nəsihətdən, tövsiyyədən, yaxınların xəbərdarlığından) sonra şəxsin davranışını dəyişib oğurlanmış adamı sərbəst

buraxması da mahiyyət etibarı ilə onun özünün seçimi, iradə ifadəsinin nəticəsi (müraciətlərdən düzgün nəticə çıxarması) kimi qəbul edilməlidir.

Qeyd olunmalıdır ki, Rusiya Federasiyasının adam oğurluğu cinayətinə görə məsuliyyət müəyyən edən Cinayət Məcəlləsinin 126-cı maddəsinin "Qeyd" hissəsində təsbit edilmiş eyni məzmunlu normanı həmin ölkənin məhkəmələri yuxarıda şərh olunan qaydada təfsir edirlər.

Belə ki, Rusiya Federasiyası Ali Məhkəməsinin Prezidiumunun Fatkullina və başqaları haqqında 28n98k saylı 1999-cu il tarixli, eləcə də Dışekova, Kuşxova və başqaları haqqında 18 avqust 1999-cu il tarixli qərarlarından görünür ki, bu ölkənin ali məhkəmə orqanının hüquqi mövqeyinə görə RF CM-nin 126-cı maddəsinin "Qeyd" hissəsində oğurlanmış adamın könüllü azad edilməsi dedikdə, elə azad etmə başa düşülür ki, bu hərəkət zərərçəkmiş şəxsi saxlamaq imkanlarının tükənməsi, təqsirkar tərəfindən irəli sürülən tələbin yerinə yetirilməsi və yaxud belə tələbin yerinə yetirilməsinə razılığın alınması ilə şərtləndirilmiş olmasın. Rusiya Federasiyası məhkəmələrinin yanaşmasına, eləcə də bu ölkənin cinayət-hüquq ədəbiyyatında CM-nin 126-cı maddəsinin "Qeyd" hissəsinə verilmiş şərhlərə görə də, təqsirkarın oğurlanmış adamı saxlamağa real imkanı olduğu halda sərbəst buraxması, bunun motivlərindən asılı olmayaraq (hətta məsuliyyətdən qorxaraq sərbəst buraxdığı halda belə) könüllü azad etmə kimi qiymətləndirilməlidir.

Hazırki işin məhkəmələr tərəfindən müəyyən olunmuş faktik hallarından isə görünür ki, Cəfər Səlimov Elnur Səmədovla birgə 25 may 2015-ci ildə evlənmək məqsədi ilə zərərçəkmiş Məryəm Cəbrayılovanı Sabirabad Dövlət Sosial İqtisadi Kollecin qarşısında E.Səmədovun idarə etdiyi avtomobilə zorla mindirib oğurladıqdan təxminən 30 dəqiqə sonra Şəhriyar kəndinin ərazisində hərəkətdə olduqları vəziyyətdə Cəfər Səlimovun atası mobil telefonla Elnur Səmədovla danışıb əgər Məryəm Cəbrayılovanı qaytarmasalar onun atasının polisə məlumat verəcəyi barədə xəbərdarlıq etmişdir. Bundan sonra Elnur Səmədov və Cəfər Səlimov zərərçəkmiş şəxsi başqa avtomobillə onların arxasınca gələn Məryəm Cəbrayılovanın atasına qaytarmaq barədə razılığa gəlib avtomobili olduqları yerdən geriyə döndərmiş (irəliləmək, daha da uzaqlaşmaq, zərərçəkmiş şəxsin etibarlı mühafizəsini təmin etmək üçün real imkanların olmasına, polisə məlumatın verilmədiyini bilmələrinə baxmayaraq) M.Cəbrayılovanın atasının olduğu yerə doğru hərəkət etmiş, ehtiyatlandığı üçün Cəfər Səlimov yolda avtomobildən düşmüş, Elnur Səmədov isə zərərçəkmiş şəxsin atası ilə Kürkəndi kəndinin ərazisində qarşılaşdıqda, avtomobili saxlayıb M.Cəbrayılovanı sərbəst buraxmışdır.

Qeyd olunan faktiki hallar müəyyən edilərkən (kassasiya protestində göstərilənlərin əksinə olaraq) məhkəmələr tərəfindən sübutlar və sübutetməyə dair cinayət-prosessual normalara, o cümlədən CPM-nin 125, 143-146-cı maddələrinin tələblərinə əməl olunduğundan, məhkəmə kollegiyası nə işin faktiki hallarının müəyyən edilməsi, nə də ki, müəyyən olunmuş hallara cinayət qanunu normasının tətbiqi məsələləri üzrə apellyasiya məhkəməsinin gəldiyi nəticəni, yəni Cəfər Səlimovun və Elnur Səmədovun hərəkətlərinin CM-nin 144-cü maddəsinin qeydində nəzərdə tutulmuş müddəanın təsiri altına düşməsi haqqında qənaətini şübhə altına almaq üçün heç bir əsas görməmişdir (birinci instansiya məhkəməsinin hökmündə və apellyasiya məhkəməsinin qərarında bütün sübutlar ətraflı təsvir edilib onların həqiqi məzmununa uyğun olaraq şərh edildiyindən, kollegiya hazırki qərarda həmin sübutların yenidən təsvir və şərh edilməsini zəruri saymamışdır).

Beləliklə, məhkəmə kollegiyası yuxarıda gətirilən dəlillərə görə dövlət ittihamçısının kassasiya protesti ilə razılaşmamışdır.

Məhkəmə kollegiyası müdafiəçilərin (C.Səlimovun və E.Səmədovun CM-nin 221.2.1, 221.2.2-ci maddələri ilə təqsirli bilinmələrinin mübahisələndirilməsinə həsr olunmuş) kassasiya şikayətləri ilə də razılaşmaq üçün əsas görməmişdir.

Çünki, ittihamın bu hissəsi üzrə də məhkəmələr CPM-nin 143-146-cı maddələrinə müvafiq surətdə tədqiq edilib-qiymətləndirilmiş sübutların həqiqi məzmununa tam uyğun olaraq Cəfər Səlimovun və Elnur Səmədovun Sabirabad Dövlət Sosial İqtisadi Kollecin qarşısı

kimi ictimai yerdə, çox sayda tələbələrin kollecdən çıxdığı vaxt özlərinin şəxsiyyətlərini ətrafdakıların fövqündə qoyub, evlənmək məqsədi ilə Məryəm Cəbarıyılovanı oğurlamaq barədə niyyətlərini həyata keçirmək naminə həmin yerdə ictimai qaydanı kobud şəkildə, ictimai qaydanın pozulmasının qarşısını alan digər şəxsə müqavimət göstərməklə pozmuş, cəmiyyətə qarşı açıqca hörmətsizlik ifadə edərək zərərçəkmiş şəxslərin üzərində zor göstərilməsi ilə müşayiət edilən qərəzli hərəkətlər etmişlər.

Həmin hərəkətlər aşkar surətdə CM-nin 144.3-cü maddəsinin (adam oğurluğu cinayətinin) obyektiv cəhətinin hüdudlarından kənara çıxmaqla CM-nin 221-ci maddəsi ilə qorunan ictimai-hüquq münasibətlərinə zərər vurduğundan (ictimai qayda əleyhinə yönəldiyindən) birinci instansiya məhkəməsi düzgün olaraq Cəfər Səlimovun və Elnur Səmədovun əməllərində xuliqanlıq cinayətinin tərkibinin olması haqqında nəticəyə gəlib onları CM-nin 221.2.1, 221.2.2-ci maddələri ilə təqsdirli bilmiş, apellyasiya məhkəməsi isə qanuni və əsaslı olaraq həmin nəticə ilə razılaşmışdır.

Cəfər Səlimovun və Elnur Səmədovun CM-nin 221.2.1, 221.2.2-ci maddələri ilə təqsirli bilinmələri həmin maddələrin (xuliqanlıq cinayətinin əsas tərkibini nəzərdə tutan CM-in 221.1-ci maddəsi ilə birlikdə götürülməklə) dispozisiya şərtləri ilə uzlaşmaqla yanaşı, həm də Cinayət Məcəlləsinin 144-cü maddəsinin “Qeyd” hissəsindən irəli gələn nəticədir.

Çünki, CM-nin 144-cü maddəsinin qeydi oğurlanmış adam könüllü azad edildikdə yalnız adam oğurluğuna görə təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsini, onun əməlində başqa cinayətlərin də tərkibi olduqda isə, həmin cinayətlərə görə məsuliyyət daşımasını ehtiva edir.

Qeyd olunanlar dövlət ittihamçısının kasssasiya protestinə və müdafiəçilərin kassasiya şikayətlərinə baxılması nəticəsində həmin müraciətlərlə ehtiva olunan CPM-nin 416.0.2, 416.0.3, 416.0.6 və 416.0.15-ci maddələrində təsbit olunmuş pozuntuların müəyyən edilmədiyini, istər kassasiya protestinə, istərsə də kassasiya şikayətlərinə münasibətdə mübahisələndirilən qərarın ləğv edilməsi və yaxud dəyişdirilməsi üçün əsasların olmadığını göstərir.

Buna görə, məhkəmə kollegiyası kassasiya protestinin təmin edilməsinə, kassasiya şikayətlərinin isə təmin edilməməsinə dair dövlət ittihamçısının, habelə kassasiya şikayətlərinin təmin edilməsinə, kassasiya protestinin isə təmin edilməməsinə dair müdafiəçilərin çıxışlarını dinləyib, şərh edilən əsaslara görə iş üzrə qəbul etdiyi yekun qərarla kassasiya protestini və kassasiya şikayətlərini təmin etməmiş, Şirvan Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının Səlimov Cəfər Qəfər oğlunun və Səmədov Elnur Əli oğlunun barəsində olan 28 noyabr 2016-cı il tarixli qərarını isə dəyişdirilmədən saxlamışdır.

## Cinayətin qabaqcadan əlbir olmuş bir qrup şəxs tərəfindən törədilməsi ilə bağlı ibtidai araşdırma orqanının və birinci instansiya məhkəməsinin gəldikləri nəticə ilə razılaşan apellyasiya instansiyası məhkəməsi bunun ziddinə olaraq cinayətin məhz qrup şəklində törədilməsini inkar edən, lakin araşdırılmış sübutlarla təkzib olunan hallara istinad edərək təqsirləndirilən şəxslərə təyin olunmuş cəzaları əsassız olaraq yüngülləşdirmişdir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin 26 may 2015-ci il tarixli hökmü ilə Zülfüqarov Vahib Vahid oğlu, Tağıyev Niyal Xeyirbala oğlu, Qədirov Elbəy Nurbaba oğlu və Xankişiyev Amlet İldırım oğlu, hər birisi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra mətndə CM-nin) 144.2.3 və 157.2-ci maddələri ilə təqsirli bilinib, CM-nin 66.3-cü maddəsinə əsasən təyin olunmuş cəzaların qismən toplanılması yolu ilə qəti olaraq V.V.Zülfüqarov 12 (on iki) il müddətə, N.X.Tağıyev 10 (on) il 6 (altı) ay müddətə, E.N.Qədirov 11 (on bir) il müddətə, A.İ.Xankişiyev isə 11 (on bir) il 3 (üç) ay müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişlər.

Həmin hökmlə həmçinin Zülfüqarov Vahid Şahkərəm oğlu CM-nin 144.2.3-cü maddəsi ilə təqsirli bilinib 10 (on) il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən Qədirov Elbəy Nurbaba oğlu, Zülfüqarov Vahib Vahid oğlu, Tağıyev Niyal Xeyirbaba oğlu, Zülfüqarov Vahid Şahkərəm oğlu və Xankişiyev Amlet İldırım oğlu qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan Qobustan rayonu, Xilmilli kəndində yaşayan, 15 fevral 1996-cı il təvəllüdlü Əfsanə Qazxan qızı Alpaşayevanın iradəsinə zidd yaşadığı mənzilə zor tətbiq etməklə daxil olub mənzil toxunulmazlığını pozaraq Əfsanə Alpaşayevanı Vahib Zülfüqarovla evlənməsi məqsədilə bir qrup şəxs halında oğurlamaq haqqında 2014-cü ilin aprel ayında birgə qərara gəlmişlər.

Belə ki, cinayətkar niyyətlərini həyata keçirmək üçün 08 aprel 2014-cü il tarixdə saat 22 radələrində Elbəy Qədirov, Vahib Zülfüqarov və Amlet Xankişiyev birlikdə Niyal Tağıyevə məxsus və sonuncunun idarə etdiyi VAZ 21011 markalı AZ 23 BD 110 dövlət nömrə nişanlı avtomobillə Əfsanə Alpaşayevanın yaşadığı Qobustan rayonunun Xilmilli kəndində yerləşən evlərinə gəlmiş, əvvəlcə küçə və ev ətrafında müşahidə aparıb, guya xarab olmuş avtomobilə su lazım olduğunu ev sahibinə bildirməklə, evdə kimlərin olmasını öyrəndikdən, bununla da zərərçəkmiş şəxs Əfsanə Alpaşayevanın atası Qazxan Alpaşayevin evdə olmadığını dəqiqləşdirdikdən sonra Elbəy Qədirov, Vahib Zülfüqarov, Niyal Tağıyev və Amlet Xankişiyev birgə həyətə daxil olub orada ümumi niyyətlə çıxış edib hərəkətlərini bir-biri ilə uzlaşdıraraq, Amlet Xankişiyev orada onları qarşılayan Əfsanənin yetkinlik yaşına çatmayan qardaşı Alpaşayev Mehdi Qazxan oğlunun boynunun sol bayır səthində və sol saidin arxa səthinə sağlamlığa zərər vurmayan xəsarətlər yetirərək onu tutub saxlamış, Elbəy Qədirov isə bundan istifadə edib Niyal Tağıyevlə birlikdə Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan, zor tətbiq edərək mənzildə olan Əfsanə Alpaşayevanın və anası Sərgül Alpaşayevanın onların niyyətlərini başa düşərək qəti olaraq evə daxil olmamalarını tələb etmələrinə, qapını açmalarına mane olmalarına baxmayaraq iradələri ziddinə onların mənzil toxunulmazlığını pozaraq mənzilə daxil olub, orada Niyal Tağıyev Əfsanə Alpaşayevanın anası Alpaşayeva Sərgül Məhəmməd qızına qarşı zor tətbiq edib boynunun bayır səthinə qançır kimi sağlamlığa zərər vurmayan xəsarətlər yetirərək onu qollarından tutub saxladıqdan sonra, Elbəy Qədirov həmin mənzildə olan Əfsanə Alpaşayevanın iradəsinə zidd onun əllərindən tutub gizləndiyi çarpayının altından çıxararaq aktiv fiziki müqavimət göstərməsinə məhəl qoymayıb, anası Sərgül Alpaşayevanın və orada olmuş sonuncunun qonşusu Limon Osmanovanın gözü qarşısında sürüməklə ona həyat və sağlamlığı üçün təhlükəli olmayan fiziki zor tətbiq edərək həyətə çıxarmış, həmin vaxt həyətdə Mehdi Alpaşayevi tutub saxlamış Amlet Xankişiyev Elbəy Qədirova kömək edib Əfsanə Alpaşayevanı məcburi olaraq küçədə dayanmış Niyal Tağıyevin avtomobilinin arxa oturacağına əyləşdirdikdən sonra, Amlet Xankişiyev Niyal Tağıyevlə birgə Əfsanənin avtomobildən düşüb qaçmasının qarşısını almaq məqsədi ilə hər iki tərəfində oturduqdan sonra özü sükan arxasına keçib avtomobili idarə edərək zərərçəkmiş şəxs Əfsanə Alpaşayevanı Vahib Zülfüqarovla evlənməsi məqsədilə iradəsinə zidd olaraq ona sağ bazunun iç səthində, sol bazunun ön və bayır səthində çoxsaylı qançırla müşayiət olunan sağlamlığa zərər vurmayan xəsarətlər yetirməklə əvvəlcə Vahib Zülfüqarovun yaşadığı Xilmilli kəndinin kənarındakı fermaya aparmış, orada cinayətkar əməllərini başa çatdırması üçün onlara qoşulmuş və yola bələdçilik etmiş Vahib Zülfüqarovla birlikdə “Ağdərə” adlanan yerdən torpaq yolla Sumqayıt şəhəri istiqamətində hərəkət edərək asfalt yola çıxardıb sonuncunun qızı Sevil Zülfüqarovanın yaşadığı Bakı şəhəri, Qaradağ rayonu, Qobustan qəsəbəsindəki Yeni yaşayış massivindəki evinə aparıb orada 9 aprel 2014-cü il tarixədək saxlayaraq zərərçəkmiş Əfsanə Alpaşayevanı oğurlamışlar.

Həmçinin Zülfüqarov Vahid Şahkərəm oğlu qabaqcadan əlbir olub cinayət əlaqəsinə girdiyi bir qrup şəxs halında Alpaşayevə Əfsanə Qazxan qızını iradəsinə zidd olaraq oğlu Vahib Zülfüqarovla evlənmək məqsədi ilə Zülfüqarov Vahib Vahid oğlu ilə, habelə həmkəndliləri və

oğlunun tanışları Tağıyev Niyal Xeyirbala oğlu, Qədirov Elbəy Nurbaba oğlu və Xankişiyev Amlet İldırım oğlu ilə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək Qobustan rayonu Xilmilli kəndində yaşayan 15 fevral 1996-cı il təvəllüdlü Alpaşayeva Əfsanə Qazxan qızını iradəsinə zidd oğlu Vahib Zülfüqarovla bir qrup şəxs halında oğurlamaq haqqında 2014-cü ilin aprel ayında birgə qərara gəlmişlər. Həmin razılığa əsasən, onun oğlu Vahib Zülfüqarov öz tanışları Niyal Tağıyev, Elbəy Qədirov və Amlet Xankişiyevlə qabaqcadan əlbir olan bir qrup şəxs halında 08 aprel 2014-cü il tarixdə saat 22 radələrində Əfsanə Alpaşayevanı yaşadığı Qobustan rayonunun Xilmilli kəndində yerləşən evlərindən oğlu Vahib Zülfüqarovla evləndirmək məqsədi ilə oğurlayıb Niyal Tağıyevə məxsus VAZ 21011 markalı 23 BD 110 dövlət nömrə nişanlı avtomobillə onun yaşadığı Qobustan rayonu ərazisində yerləşən fermaya gətirdikdən sonra Əfsanə Alpaşayevanın ondan da təkidlə evlərinə qaytarılmasını tələb etməsinə və oğlu Vahiblə evlənmək istəmədiyini bildirməsinə baxmayaraq, habelə onun müqavimət göstərməsinə və etiraz etməsinə məhəl qoymayıb, əvvəlcədən əldə etdikləri razılığa əsasən cinayətkar əməllərini həyata keçirmək üçün Niyal Tağıyevə, Elbəy Qədirova və Amlet Xankişiyevə fermanın yerləşdiyi və istifadəsində olan “Ağdərə” adlanan yerdən iştirakçılardan yalnız onun tanıdığı dağ yollarını göstərərək bələdçilik etmiş və Sumqayıt şəhəri istiqamətində hərəkət edərək asfalt yola çıxardıb, sonuncunun qızı Sevil Zülfüqarovanın yaşadığı Bakı şəhəri, Qaradağ rayonu, Qobustan qəsəbəsində yeni yaşayış massivindəki evinə aparıb orada 09 aprel 2014-cü il tarixədək saxlayaraq zərərçəkmiş şəxs Əfsanə Alpaşayevanı oğurlamışlar.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 dekabr 2016-cı il tarixli qərarı ilə təqsirləndirilən şəxslər N.X.Tağıyev, A.İ.Xankişiyev, E.N.Qədirov və sonuncunun müdafiəçisi T.S.Seyidov tərəfindən ayr-ayrılıqda verilmiş apellyasiya şikayətləri təmin edilmiş, təqsirləndirilən şəxs V.V.Zülfüqarov və onun müdafiəçisi S.R.Əliyeva, təqsirləndirilən şəxs N.X.Tağıyevin müdafiəçisi Y.Y.İsmayılov, təqsirləndirilən şəxs A.İ.Xankişiyevin müdafiəçisi K.H.Axundov və təqsirləndirilən şəxs V.Ş.Zülfüqarovun müdafiəçisi S.R.Əliyeva tərəfindən ayrı-ayrılıqda verilmiş apellyasiya şikayətləri qismən təmin edilmiş, Bakı Ağır Cinayətlər Məhkəməsinin 26 may 2015-ci il tarixli hökmü təqsirləndirilən şəxslərin hamısına münasibətdə aşağıdakı qaydada dəyişdirilmişdir:

-Zülfüqarov Vahib Vahid oğluna CM-nin 144.2.3-cü maddəsi ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti 11 (on bir) ildən 8 (səkkiz) ilədək endirilmiş, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə V.V.Zülfüqarovun CM-nin 157.2-ci maddəsi ilə məhkum edilməsi hissəsində cinayət işi üzrə icraata xitam verilmiş, ona CM-nin 66.3-cü maddəsinə müvafiq qaydada cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsinə dair müddəalar hökmün nəticəvi hissəsindən xaric edilmiş;

-Tağıyev Niyal Xeyirbala oğluna CM-nin 144.2.3-cü maddəsi ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti CM-nin 62-ci maddəsi tətbiq edilməklə 10 (on) ildən 4 (dörd) ilədək endirilmiş, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə N.X.Tağıyevin CM-nin 157.2-ci maddəsi ilə məhkum edilməsi hissəsində cinayət işi üzrə icraata xitam verilmiş, ona CM-nin 66.3-cü maddəsinə müvafiq qaydada cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsinə dair müddəalar hökmün nəticəvi hissəsindən xaric edilmiş;

-Xankişiyev Amlet İldırım oğluna CM-nin 144.2.3-cü maddəsi ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti CM-nin 62-ci maddəsi tətbiq edilməklə 10 (on) ildən 4 (dörd) ilədək endirilmiş, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə A.İ.Xankişiyevin CM-nin 157.2-ci maddəsi ilə məhkum edilməsi hissəsində cinayət işi üzrə icraata xitam verilmiş, ona CM-nin 66.3-cü maddəsinə müvafiq qaydada cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsinə dair müddəalar hökmün nəticəvi hissəsindən xaric edilmiş;

-Qədirov Elbəy Nurbaba oğluna CM-nin 144.2.3-cü maddəsi ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti CM-nin 62-ci maddəsi tətbiq edilməklə 10 (on) ildən 4 (dörd) ilədək endirilmiş, cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə E.N.Qədirovun CM-nin 157.2-ci maddəsi ilə məhkum edilməsi

hissəsində cinayət işi üzrə icraata xitam verilmiş, ona CM-nin 66.3-cü maddəsinə müvafiq qaydada cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsinə dair müddəalar hökmün nəticəvi hissəsindən xaric edilmiş;

-Zülfüqarov Vahid Şahkərəm oğluna CM-nin 144.2.3-cü maddəsi ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının müddəti CM-nin 62-ci maddəsi tətbiq edilməklə 10 (on) ildən 4 (dörd) ilədək endirilmiş, hökm qalan hissədə isə dəyişdirilmədən saxlanılmışdır.

Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 dekabr 2016-cı il tarixli qərarından dövlət ittihamçısı kassasiya protesti, məhkumlar Zülfüqarov Vahib Vahid oğlunun və Zülfuqarov Vahid Şahkərəm oğlunun müdafiəçisi Əliyeva Sevda Rufulla qızı isə kassasiya şikayətləri vermişlər.

Dövlət ittihamçısı kassasiya protestini onunla əsaslandırmışdır ki, apellyasiya instansiyası məhkəməsi əsas olmadan məhkum Zülfüqarov Vahib Vahid oğlunun cəzasını CM-nin 144.2.3-cü maddəsinin sanksiyası daxilində, məhkumlar Tağıyev Niyal Xeyirbala oğlunun, Qədirov Elbəy Nurbaba oğlunun, Xankişiyev Amlet İldırım oğlunun və Zülüfüqarov Vahid Şahkərəm oğlunun cəzalarını isə CM-nin 62-ci maddəsinin qaydaları əsasında CM-nin 144.2.3-cü maddəsinin sanksiyasında nəzərdə tutulmuş aşağı hədddən də az olan müddətək azaltmaqla məhkumlara şəxsiyyətlərinə, təqsirli bilindikləri cinayətin xarakterinə, ictimai təhlükəliliyinə, törədilmə hallarına uyğun olmayan həddindən artıq yüngül cəzalar təyin etmiş, bununla da CM-nin 8, 41.2, 58.3, 59 və 62-ci maddələrinin tələblərini pozmuşdur.

Dövlət ittihamçısı kassasiya protestində göstərilənləri Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra CPM-nin) 416.0.21-ci maddəsində nəzərdə tutulmuş halı yaradan pozuntular kimi qiymətləndirərək, həmin əsasla Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 dekabr 2016-cı il tarixli qərarının ləğv edilməsini, cinayət işinin apellyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilməsini xahiş etmişdir.

Məhkumlar Zülfüqarov Vahib Vahid oğlunun və Zülfuqarov Vahid Şahkərəm oğlunun müdafiəçisi Əliyeva Sevda Rufulla qızı kassasiya şikayətini onunla əsaslandırmışdır ki, Vahib Zülfüqarov zərərçəkmiş Əfsanə Alpaşayevanı könüllü olaraq azad etmək istəmiş, bu məqsədlə Ə.Alpaşayevanı atası Vahid Zülüfüqarov və bacısı Sevil Zülfüqarova ilə birlikdə Qaradağ rayonunun Qobustan qəsəbəsindən avtomobillə valideynlərinə təhvil vermək üçün Qobustan rayonunun Xilmilli kəndinə aparmaq üçün yola çıxmış, lakin Əfsanə avtomobildən düşüb qaçdığına görə onu valideynlərinə təhvil verə bilməmişdir.

Müdafiəçi həmin xüsusatlara əsasən hesab etmişdir ki, Vahib Zülfüqarovun əməllərində CM-nin 144-cü maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş zərərçəkmiş şəxsin könüllü olaraq azad edilməsi halı olmuş, buna baxmayaraq, o, əsassız olaraq məsuliyyətdən azad edilməmişdir.

Müdafiəçi kassasiya şikayətində göstərilənlərə əsasən Vahib Zülfüqarova aid hissədə Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 dekabr 2016-cı il tarixli qərarının dəyişdirilməsini, CM-nin 144-cü maddəsinin "Qeyd" hissəsinə əsasən V.Zülfüqarovun Cinayət Məcəlləsinin 144.2.3-cü maddəsi ilə təqsirli bilinməsinə dair cinayət işi üzrə icraata xitam verilməsini, onun cinayət məsuliyyətindən azad edilməsini xahiş etmişdir.

Müdafiəçi Sevda Əliyeva məhkum Zülfüqarov Vahid Şahkərəm oğlunun barəsində verdiyi kassasiya şikayətini yuxarıda göstərilən (zərərçəkmiş şəxsin könüllü olaraq azad edilməsi barədə) dəlillə yanaşı, həm də onunla əsaslandırmışdır ki, Vahid Zülfüqarov zərərçəkmiş Əfsanə Alpaşayevanın oğurlanması barədə heç kimlə qabaqcadan razılığa gəlməmiş, adam oğurlama cinayəti başa çatdıqdan və Əfsanə digər şəxslər tərəfindən avtomobildə Xilmilli kəndinin qırağında olan fermaya gətirildikdən sonra o, Əfsanənin olduğu avtomobildə qızı Sevil Zülfüqarovanın yaşadığı Qardağ rayonunun Qobustan qəsəbəsinə getmişdir.

Qeyd olunan xüsusatlara görə müdafiəçi hesab etmişdir ki, Vahid Zülfüqarov əməlində cinayət tərkibi olmadığı halda Azərbaycan Respublikası CM-nin 144.2.3-cü maddəsi ilə təqsirli bilinmişdir.

Müdafiəçi kassasiya şikayətində göstərilənlərə əsasən Vahid Zülfüqarova aid hissəsdə Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 dekabr 2016-cı il

tarixli qərarının ləğv edilməsini, bəraətverici əsasla Vahid Zülfüqarovun barəsində cinayət işi üzrə icraata xitam verilməsini, onun cinayət məsuliyyətindən azad edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyası dövlət ittihamçısının kassasiya protestini və müdafiəçinin kassasiya şikayətlərini CPM-nin 419-cu maddəsinin tələbləri baxımından səlahiyyətlərinə aid olan kassasiya müraciətləri kimi görür və bu müraciətlərlə əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının 22 dekabr 2016-cı il tarixli qərarının qanuniliyini və əsaslılığını yoxlayıb, araşdırmanın nəticələri olaraq aşağıdakıları qeyd etmişdir.

İlk növbədə məhkəmə kollegiyası diqqəti ona yönəltmişdir ki, müdafiəçi Sevda Əliyeva kassasiya şikayətindəki dəlilləri eyni ilə apellyasiya məhkəməsi qarşısında da irəli sürmüşdür.

Belə ki, müdafiəçi S.Əliyeva Vahid Zülfüqarovun digər təqsirləndirilən şəxslərlə əlbir olmadığını, artıq zərərçəkmiş Əfsanə Alpaşayeva digər təqsirləndirilən şəxslər tərəfindən Qobustan rayonunun Xillimilli kəndindəki evindən götürülüb kəndin kənarında yerləşən fermaya gətirildikdən sonra müstəsna olaraq Əfsanə Alpaşayevanın fermanın yanından qızı Sevil Zülfüqarovanın yaşadığı Qaradağ rayonunun Qobustan qəsəbəsindəki evə aparılmasında iştirak etdiyini, onun və Vahib Zülfüqarovun zərərçəkmiş Əfsanə Alpaşayevanı könüllü olaraq azad etmək üçün Qaradağ rayonunun Qobustan qəsəbəsindən taksi ilə Qobustan rayonunun Xilmilli kəndinə apardıqlarını, lakin yolda – Qobustan qəsəbəsində qohumlarının evinin yanında avtomobili saxladıqları vaxt Ə.Alpaşayevanın avtomobildən düşüb qaçdığını, yalnız özlərindən asılı olmayan həmin səbəb üzündən zərərçəkmiş şəxsi könüllü olaraq azad etmək barədə niyyətlərini başa çatdıra bilmədiklərini, odur ki, onlara CM-nin 144-cü maddəsinin “Qeyd” hissəsində nəzərdə tutulmuş cinayət məsuliyyətindən azad etmə barədə müddəanın tətbiq edilməli olduğunu iddia etmişdir.

Lakin, apellyasiya instansiyası məhkəməsinin müdafiəçi Sevda Əliyevanın hər iki təqsirləndirlən şəxs barədində verdiyi apellyasiya şikayətlərini ancaq qismən təmin etməsindən, ittiham aktında və hökmdə bütün təqsirləndirilən şəxslərin, o cümlədən Vahid Zülfüqarovun əməllərinin təsvirini olduğu kimi saxlayıb, Vahid Zülfüqarovun da CM-nin 144.2.3-cü maddəsi ilə, yəni qabaqcadan əlbir olan bir qrup şəxsin tərkibində adam oğurluğu cinayətini törətməkdə təqsirli bilinməsi ilə razılaşmasından, eyni zamanda İstər Vahib Zülfüqarovu, istərsə də Vahid Zülfüqarovu CM-nin 144-cü maddəsinin “Qeyd” hissəsinə əsasən cinayət məsuliyyətindən azad etməkdən imtina etməsindən aydın olur ki, apellyasiya məhkəməsi müdafiəçinin təsvir edilən dəlillərini qəbul etməmişdir.

Həqiqətən də məhkəmələr tərəfindən Vahid Zülfüqarovun və Vahib Zülfüqarovun həqiqi niyyətlərinin zərərçəkmiş Əfsanə Alpaşayevanı azad etmək olduğunu təsdiq edən hallar müəyyən edilməmişdir.

Belə ki, Ə.Alpaşayevaya Qaradağ rayonunun Qobustan qəsəbəsindən (Vahid Zülfüqarovun qızı Sevil Zülfüqarovanın yaşadığı evdən) taksi ilə öz evlərinə (Qobustan rayonunun Xilmilli kəndinə) aparıldığı deyilsə də, hadisənin sonrakı gedişatı Vahib və Vahid Zülfüqarovların belə niyyətdə olmadıqlarını göstərir.

Bundan başqa, cinayəti törədən şəxslərdən və yaxud onların qohumlarından heç biri oğurlanmış Əfsanə Alpaşayevanın valideynləri ilə əlaqə yaratmamış və onlara Əfsanəni geri qaytarmaq istədiklərini, bu məqsədlə yola çıxdıqlarını bildirməmişdir.

Həmçinin taksi ilə əsas yola çıxıb Qobustan rayonunun Xilmilli kəndinə doğru istiqamət almaq əvəzinə Vahid Zülfüqarov və Vahib Zülfüqarov avtomobili elə Qaradağ rayonunun Qobustan qəsəbəsindəcə digər qohumlarının evinin yanında saxlatdırmış və hər ikisi avtomobildən düşüb həmin evə girmişlər, avtomobildə isə Əfsanə Alpaşayevanın yanında Sevil Zülfüqarova qalmışdır.

Bununla yanaşı, Əfsanə Alpaşayeva avomobildə ayaqyalın olmuş və onu aparan şəxslərin, eləcə də yanında olan Sevil Zülfüqarovanın onu avtomobildə nəzarət altında saxlamaq barədə niyyətlərinin ziddinə olaraq avtomobildən düşüb qaçmışdır.

Qeyd olunan hallar birinci instansiya məhkəməsində CPM-nin 143-146-cı maddələrinə müvafiq qaydada araşdırılmış

sübutlarla, o cümlədən zərərçəkmiş şəxsin ifadəsi ilə uzlaşdığından və həmin sübutlar birinci instansiya məhkəməsinin hökmündə ətraflı təsvir olunmaqla şərh edildiyindən, məhkəmə kollegiyası onların hazırki qərarda yenidən təsvir və şərh edilməsinə zərurət görməmişdir.

Eynilə birinci və apellyasiya instansiyası məhkəmələrinin Vahid Zülfüqarovun qabaqcadan əlbir olduğu bir qrup şəxslə adam oğurluğu cinayətini törətməsi (bu tövsifedici əlaməti nəzərdə tutuan CM-nin 144.2.3-cü maddəsi ilə təqsirli olması) barədə nəticələri də müvafiq sübutlarla təsdiq olunur.

Belə ki, təqsirləndirilən şəxslər Elbəy Qədirov və Niyal Tağıyev ifadələrində göstərmişlər ki, Vahid Zülfüqarovun əvvəlcədən oğlu Vahibin Əfsanə Alpaşayevanı evlənmək məqsədi ilə oğurlamaq barədə niyyətindən və hazırladığı cinayətdən məlumatı olub və onlar 08 aprel 2014-cü il tarixində də cinayətin icrasına başlamazdan əvvəl bir-biri ilə mobil telefon vasitəsi ilə əlaqə saxlamış, Vahid Zülfüqarovun razılığını aldıqdan sonra Vahid Zülfüqarov və cinayətin digər iştirakçıları Əfsanə Alpaşayevanın yaşadığı evə getmişlər.

Həmçinin təqsirləndirilən şəxslərin, zərərçəkmişin ifadələrinə, digər sübutlara əsasən müəyyən olunmuşdur ki, Əfsanə Alpaşayevanın zorla evindən çıxarılmasından sonra da cinayətin digər iştirakçıları onu başqa yerə deyil, birbaşa Vahid Zülfüqarovun olduğu yerə - kəndin kənarındakı fermaya gətirmişlər. Bundan sonra Vahid Zülfüqarov zərərçəkmiş şəxsin aşkar surətdə ifadə olunmuş iradəsinin ziddinə olaraq onun Qobustan rayonunun Xilmilli kəndindən Qaradağ rayonunun Qobustan qəsəbəsinə - qızı Sevil Zülfüqarovanın yaşadığı evə aparılmasında və orada saxlanılmasında aktiv surətdə iştirak etmişdir.

Bütün bunlar Vahid Zülfüqarovun hərəkətlərinin onun oğlu Vahib Zülfüqarovun cinayətkar niyyəti ilə şərtləndirildiyini, Əfsanə Alpaşayevanın yaşadığı evdən Qaradağ rayonunun Qobustan qəsəbəsinə aparılması kimi cinayətkar qrupun bütün üzləri üçün ümumi olan məqsədə yönəldiyini, yəni cinayətin digər iştirakçılarının hərəkətləri ilə uzlaşmaqla qabaqcadan əldə olunmuş razılaşmadan irəli gəldiyini göstərir.

Odur ki, apellyasiya instansiyası məhkəməsinin Vahid Zülfüqarova və Vahib Zülfüqarova qarşı CM-nin 144.2.3-cü maddəsi ilə irəli sürülmüş ittihamla (hökmdə ittiham aktında olduğu kimi təsvir edilmiş onların və cinayətkar qrupun digər üzvlərinin hərəkətləri ilə) razılaşması qanuni və əsaslı nəticə kimiş çıxış edir və bu səbəbdən məhkəmə kollegiyası müdafiəçi Sevda Əliyevanın apellyasiya şikayətlərinin (apellyasiya məhkəməsi tərəfindən baxılmış və rədd edilmiş) dəlillərini təkrarlayan kassasiya şikayətləri ilə razılşamayraq həmin şikayətlərlə ehtiva olunan CPM-nin 416.0.6 və 416.0.11-ci maddələrində nəzərdə tutulmuş pozuntuları müəyyən etməmişdir.

Lakin, apellyasiya məhkəməsinin qərarından görünür ki, məhkəmə təqsirləndirilən şəxslər Zülfüqarov Vahib Vahid oğlunun, Tağıyev Niyal Xeyirbala oğlunun, Qədirov Elbəy Nurbaba oğlunun, Xankişiyev Amlet İldırım oğlunun və Zülfüqarov Vahid Şahkərəm oğlunun yuxarıda təsvir edilmiş cinayətkar hərəkətləri törətmələri və onların qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam oğurlama cinayətini törətməkdə (CM-nin 144.2.3-cü maddəsi ilə) təqsirli olmaları barədə nəticəyə gəlsə də, Vahid Zülfüqarovun cəzasını CM-nin 144.2.3-cü maddəsinin sanksiyası daxilində, digər təqsirləndirilən şəxslərin cəzalarını CM-nin 62-ci maddəsinə istinad etməklə azaldarkən özünün gəldiyi nəticələr və işin həqiqi halları ilə kəskin ziddiyyət təşkil edən əsaslardan çıxış etmişdir.

Belə ki, apellyasiya instansiyası məhkəməsi cəzaları azaldarkən ondan çıxış etmişdir ki, Qədirov Elbəy Nurbaba oğlunun, Xankişiyev Amlet İldırım oğlunun, Tağıyev Niyal Xeyirbala oğlunun Əfsanəni qaçırmaq niyyətləri olmamışdır. Onlar hesab etmişlər ki, Əfsanə Vahiblə ailə qurmağa razıdır və yalnız qızın ailə üzvləri bu şəxslərin evlənməsinə mane olur.

Apellyasiya məhkəməsinə görə, Vahib Zülfüqarov Elbəy Qədirovdan, Amlet Xankişiyevdən və Niyal Tağıyevdən real vəziyyəti gizlətdiyi üçün onlar elə güman etmişlər ki, Əfsanə Alpaşyevanı onun özünün istəyi ilə evindən götürüb Vahibin atası Vahid Zülfüqarova məxsus fermaya aparmışlar. Başqa sözlə, apellyasiya məhkəməsi hesab etmişdir ki,

hətta Əfsanə Alpaşayevanın evindən çıxarılıb aparılmasına, avtomobilə mindirilməsinə aktiv müqavimət göstərməsinə baxmayaraq, Vahib Zülfüqarov tərəfindən aldadıldıqlarına görə, onlar Əfsanə Alpaşayevanı oğurladıqlarını (iradəsi ziddinə olaraq evindən götürülüb aparıldığını) dərk etməmiş, Ə.Alpaşayeva ilə birgə (Alpaşayevanın valideynlərindən onun öz arzusu ilə Vahibə ərə getməsini gizlətməkdən ötrü) “qızın zorla qaçırılması” səhnəsini oynadıqlarını (Əfsanənin oğurlanması görüntüsünü yaratdıqlarını) güman etmişlər. Ə.Alpaşayevanın gerçəkdən də Vahib Zülfüqarovla evlənmək istəməməsini (oğurlanmasının əleyhinə olduğunu) isə onlar yalnız fermaya çatdıqda başa düşmüşlər.

Zülfüqarov Vahid Şahkərəm oğlunun hərəkətlərini cəzanın araşdırılması aspektindən şərh etdikdə isə apellyasiya məhkəməsi qeyd etmişdir ki, “o, cinayətin törədilməsindən xəbərsiz olmuş, yalnız qaldıqları yerə maşınla Əfsanənin gətirilməsi zamanı fakt qarşısında qalmışdır. Zülfüqarov Vahid Şahkərəm oğlu da hadisəni və düşdüyü şəraiti düzgün qiymətləndirə bilməmiş, onun hərəkətlərində çaşqınlıq olmuşdur. Ona görə də, Əfsanəni fermadan uzaqlaşdırıb qohumlarının evinə apararaq, orada qəti qərar verməyi planlaşdırmışdır”.

Bu təsvirləri Zülfüqarov Vahib Vahid oğlunun, Tağıyev Niyal Xeyirbala oğlunun, Qədirov Elbəy Nurbaba oğlunun, Xankişiyev Amlet İldırım oğlunun və Zülfüqarov Vahid Şahkərəm oğlunun təqsirli bilindikləri (apellyasiya instansiyası məhkəməsinin də razılaşdığı) CM-nin 144.2.3-cü maddəsi ilə müqayisə etdikdə, görünür ki, apellyasiya məhkəməsi cinayəti təşkil edən faktiki hallar və onlara cinayət qanunu normasının tətbiqi, təqsirlilik məsələləri üzrə gəldiyi nəticələrin (həm də işin həqiqi hallarının) ziddinə olaraq, əslində adları çəkilən şəxslərin CM-nin 144.2.3-cü maddəsi ilə nəzərdə tutulmuş cinayət əməllərini törətmələrini, onların həmin maddə ilə təqsirli olmalarını inkar etmişdir.

Belə ki, təqsirləndirilən şəxslərə CM-nin 144.2.3-cü maddəsi ilə ittiham irəli sürülmüşdür ona görə ki, onlar həmin maddədə əməli ağırlaşdıran hal kimi nəzərdə tutulmuş “qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən cinayətin törədilməsi” əlaməti ilə adam oğurluğu cinayətini törətmişlər. Birinci instansiya məhkəməsi kimi, apellyasiya instansiyası məhkəməsi də ittihamın kifayət qədər sübuta yetirilməsi, onun dəyişdirilməsi üçün əsasların olmaması haqqında nəticəyə gəlmişdir.

CM-nin 31-ci maddəsində cinayət xarakterli iştirakçılıq “iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı” kimi təsbit edilmişdir.

CM-nin 34.2-ci maddəsində isə iştirakçılığın formalarından biri sayılan qabaqcadan əlbir olan bir qrup şəxs “qabaqcadan razılaşmaqla” iki və ya daha çox şəxsin cinayətin törədilməsində birgə iştirakı kimi xarakterizə olunmuşdur.

CM-nin 25-ci maddəsinə əsasən təqsirin formalarından biri olaraq cinayətlərin qəsdən törədilməsi şəxsin öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etməsini, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görməsini və bunları arzu etməsini və yaxud arzu etməmişdirsə də, belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verməsini ehtiva edir.

Cinayət Məcəlləsinin təsvir edilən müddəalarından görünür ki, “qabaqcadan əlbir olan bir qrup şəxs” tərəfindən törədilən cinayətlərdə qrupun üzvləri nəinki cinayətdən xəbərdar olmalı, onlar cinayət əməlini törətməyə başlayana qədər onların hamısı üçün ümumi olan cinayətin törədilməsi barədə razılığa gəlməlidirlər. İştirakçılıq müstəsna olaraq təqsirin qəsd formasını ehtiva etdiyindən, qrupun bütün iştirakçılarının iradələri eyni bir cinayəti törətməyə yönəlməklə birləşməlidir. Ehtiyatsızlıqdan və yaxud təqsirsiz olaraq, o cümlədən hərəkətləri ilə ictimai təhlükəli əməl törətməsini dərk etmədən, ictimai təhüləkəli nəticələrin baş verə biləcəyini qabaqcadan görmədən (məsələn, əməlin ictimai təhlükəli xarakteri haqqında vicdanlı olaraq yanılmaqla) və yaxud ümumiyyətlə cinayətdən xəbərsiz olaraq “qabaqcadan əlbir olan bir qrup şəxs”in törətdiyi cinayətdə iştirak etmək mümkün deyil. Qeyd olunan hallar şəxsin “qabaqcadan əlbir olan bir qrup şəxs”in üzvü kimi qəbul edilməsini və onun həmin əlamət üzrə cinayət məsuliyyəti daşımasını istisna edir.

Lakin, apellyasiya instansiyası məhkəməsinin qərarından györünür ki,

məhkəmə təqsirləndirilən şəxslərin cəzalarının azaldılması, o cümlədən Elbəy Qədirovun, Amlet Xankişiyevin, Niyal Tağıyevin və Vahid Zülfüqarovun barəsində CM-nin 62-ci maddəsinin tətbiq edilməsi barədə nəticələrini məhz bu cür dəlillərlə (Elbəy Qədirovun, Amlet Xankişiyevin, Niyal Tağıyevin Vahib Zülfüqarov tərəfindən aldadılmaları və cinayəti törətməyə başlayana, hətta zərərçəkmiş şəxsin evində hərəkət etdikləri vaxt – fermaya çatanadək cinayət xarakterli əməl törətmələrini dərk etməmələri, Vahid Zülfüqarovun isə ümumiyyətlə qabaqcadan cinayətin törədilməsindən xəbərsiz olması ilə) əsaslandırmış, beləliklə də, birinci instansiya məhkəməsinin müəyyən edilmiş saydığı, özünün də razılaşdığı cinayəti təşkil edən faktik halların (əslində, işin həqiqi hallarının) və Elbəy Qədirovun, Amlet Xankişiyevin, Niyal Tağıyevin, Vahid Zülfüqarovun Vahib Zülfüqarovla qabaqcadan əlbir olub CM-nin 144.2.3-cü maddəsində nəzərdə tutulmuş cinayəti törətməkdə təqsirli olmaları barədə hüquqi nəticənin ziddinə qərar qəbul etmişdir.

Belə olan halda apellyasiya məhkəməsinin yuxarıda şərh edilən, məhkumlar Elbəy Qədirova, Amlet Xankişiyevə, Niyal Tağıyeva və Vahid Zülfüqarova aid etdiyi, (əslində, mövcud olmayan) hallardan çıxış etməklə, o cümlədən təsvir edilənləri cəzanın azaldılmasını tələb edən müstəsna hallar kimi qiymətləndirməklə birinci instansiya məhkəməsinin hökmünü dəyişdirib, CM-nin 62-ci maddəsinin qaydaları əsasında həmin məhkumların cəzalarını yüngülləşdirilməsi, CM-nin həmin və cəzanın təyin edilməsi məsələlərini tənzimləyən digər normalarının, o cümlədən CM-nin 8, 58.3, 59-cu maddələrinin tələblərinə cavab verən nəticə kimi qiymətləndirilə bilməz.

Belə ki, kassasiya protestində Elbəy Qədirovun, Amlet Xankişiyevin, Niyal Tağıyevin, Vahid Zülfüqarovun barəsində əsassız olaraq tətbiq edildiyi iddia olunan, cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəzanın təyin edilməsi institutuna həsr olunmuş CM-nin 62-ci maddəsinin məzmunu aşağıdakı kimidir:

"62.1. Cinayətin məqsədi və motivi, təqsirkarın cinayətin törədilməsində rolu, cinayətin törədilməsi zamanı və bundan sonra onun davranışı ilə bağlı müstəsna hallar, habelə cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan başqa hallar olduqda, eləcə də iştirakçılıqla törədilmiş cinayətin iştirakçısı həmin cinayətin açılmasına fəal kömək etdikdə, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş aşağı həddən də az cəza təyin edilə bilər və ya məhkəmə həmin maddədə müəyyən ediləndən daha yüngül cəza növü təyin edə bilər, yaxud təyin edilməsi məcburi olan əlavə cəzanı təyin etməyə bilər.

62.2. Cəzanı yüngülləşdirən həm ayrı-ayrı hallar, həm də bu cür halların məcmusu müstəsna hal hesab edilə bilər".

Göründüyü kimi, apellyasiya instansiyası məhkəməsi qeyd olunan cinayət-hüquqi normanın tətbiqi məsələsini həll edərkən, bu maddənin nəzərdə tutduğu məsələlər, o cümlədən təqsirləndirilən şəxslər Elbəy Qədirovun, Amlet Xankişiyevin, Niyal Tağıyevin və Vahid Zülfüqarovun cinayətin törədilməsində rolları, cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan hallar barədə məsələləri düzgün həll etməmiş, cəzanı yüngülləşdirən hallara dair nəticələrin sübutlara əsaslanmalı olmasını tələb edən CPM-nin 139.0.5-ci maddəsində göstərilən qaydanı pozmuşdur.

Məhkumlar Elbəy Qədirovun, Amlet Xankişiyevin, Niyal Tağıyevin və Vahid Zülfüqarovun ümumi cinayətin törədilməsində oynadığı rollar barədə apellyasiya məhkəməsinin nəticələri məhkəmənin özünün müəyyən edilmiş saydığı işin həqiqi hallarına əsaslanmadığından, cinayətin digər iştirakçısı – Vahib Zülfüqarovun barəsində çıxarılan nəticələr də əsaslı hesab edilə bilməz. Çünki, Vahib Zülfüqarova münasibətdə də apellyasiya məhkəməsi onun digər şəxslərlə qabaqcadan əlbir olmasından (iradələrin vahid məqsəd üçün birləşməsindən) deyil, Vahib Zülfüqarovun digər iştirakçıları aldatmasından, iradələrin müxtəlif (Zülfüqarovda - ictimai zərərli, Elbəy Qədirovda, Amlet Xankişiyevdə, Niyal Tağıyevdə isə - ictimai faydalı) məqsədlərə yönəlməsindən çıxış etmişdir.

Təsvir olunanlar məhkumların hamısına münasibətdə apellyasiya instansiyası məhkəməsi tərəfindən təyin olunmuş cəzaların mübahisələndirilməsinə dair kassasiya protestinin əsaslı olduğunu, apellyasiya

məhkəməsinin gerçəkdən də protestdə qeyd olunan, məhkəmə qərarının kassasiya qaydasında ləğv edilməsini və apellyasiya baxışının yenidən keçirilməsini tələb edən CPM-nin 416.0.21-ci maddəsində nəzərdə tutulmuş pozuntuya yol verildiyini göstərir.

Odur ki, məhkəmə kollegiyası kassasiya şikayətlərinin təmin edilməsinə, kassasiya protestinin isə təmin edilməməsinə dair müdafiəçi Sevda Əliyevanın və kassasiya protestinin təmin edilməsinə, kassasiya şikayətlərinin isə təmin edilməməsinə dair dövlət ittihamçısının çıxışlarını dinləyib, şərh edilən əsaslara görə hesab etmişdir ki, məhkumlar Zülfüqarov Vahib Vahid oğlunun və Zülfüqarov Vahid Şahkərəm oğlunun müadfiəçisi Əliyeva Sevda Rufulla qızının kassasiya şikayətləri təmin edilməməli, dövlət ittihamçısının kassasiya protesti isə təmin edilməklə Sumqayıt Apellyasiya Məhkəməsinin Cinayət kollegiyasının Zülfüqarov Vahib Vahid oğlunun, Tağıyev Niyal Xeyirbala oğlunun, Qədirov Elbəy Nurbaba oğlunun, Xankişiyev Amlet İldırım oğlunun və Zülfüqarov Vahid Şahkərəm oğlunun barəsində olan 22 dekabr 2016-cı il tarixli qərarı ləğv edilməli, cinayət işi apellyasiya məhkəməsində yeni məhkəmə baxışına təyin edilməlidir. Məhkəmə kollegiyası gəldiyi bu nəticəyə uyğun olaraq iş üzrə müvafiq qərar qəbul etmişdir.

## Ali Məhkəmənin hakimi Əsəd Mirzəliyevin Xalq Qəzetinə müsahibəsi

**- Əsəd müəllim, bu yaxınlarda Ali Məhkəmənin qanunvericilik təşəbbüsü əsasında Mülki və İnzibati Prosessual məcəllələrə, eləcə də "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna dəyişikliklər edildi. Həmin dəyişikliklər barədə məlumat vermənizi xahiş edirik.**

– Dəyişikliklər əsasən iki mühüm məsələnin yeni qaydada tənzimlənməsinə, eləcə də hüquq tətbiqetmə təcrübəsindən irəli gələn bəzi cari məsələlərin həllinə yönəlmişdir. Söhbət məhkəmədə nümayəndə vasitəsilə təmsil olunma məsələsinə dair yeni konsepsiyanın qəbul olunmasından və kassasiya instansiyası məhkəməsinə çıxış imkanlarının müəyyən qədər məhdudlaşdırılmasından gedir.

Artıq vətəndaşlar məhkəmədə öz iradələrindən asılı olaraq şəxsən, MPM-də dairəsi müəyyən olunmuş yaxın qohumları, eləcə də qanuni nümayəndələr vasitəsilə təmsil oluna biləcəklər. Şəxsən təmsil olunmaq istəməyən vətəndaşlar isə nümayəndə qismində peşəkar hüquqşünaslar olan vəkillərlə təmsil oluna biləcəklər.

Ali Məhkəmənin səlahiyyətlərində baş verən əsas dəyişikliklər isə ondan ibarətdir ki, apellyasiya instansiyası məhkəməsində baxılan mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, iqtisadi mübahisələrə dair işlər üzrə isə iddianın qiyməti on min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələrdən kassasiya şikayəti vermək mümkün olmayacaqdır. Bundan başqa, apellyasiya məhkəmələri tərəfindən baxılan işlər üzrə çıxarılmış qərardadların yalnız iki növündən - məhkəmə aidiyyəti və iş üzrə icraata xitam verilməsinə dair qərardadlardan kassasiya şikayəti vermək mümkün olacaq. Digər bütün qərardadlar üzrə mübahisə apellyasiya instansiyası məhkəməsində yekunlaşacaqdır.

**– Məhkəmədə nümayəndə vasitəsilə təmsil olunma məsələsinə dair yeni konsepsiya nəyə əsaslanır?**

– Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiyasının 61-ci maddəsi hüquqi yardım almaq hüququnu təsbit edir. Həmin maddəyə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına həyata keçirilir.

Bu sahədəki dəyişikliklərin əsas məqsədi ilk növbədə Konstitusiyanın 61-ci maddəsində təsbit edilmiş sözügedən yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun reallaşdırılmasına yönəlmişdir. Bunun üçün həm məhkəmədə peşəkar hüquqi yardım almaq hüququnun təminatına yönəlmiş yeni mexanizmlərin yaradılması, həm də mövcud olanların təkmilləşdirilməsi hədəflənir.

Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, bu hüquq öz mahiyyətinə görə insan hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatı kimi çıxış edir. Bu hüquq həmçinin Konstitusiyada təsbit olunmuş digər hüquqlarla, məsələn, qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ, azadlıq hüququ, məhkəmə müdafiəsi hüququ və s. qarşılıqlı əlaqədədir və onların səmərəli həyata keçirilməsini təmin edir.

Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ şəxsin qanuni maraqlarının təminatı ilə yanaşı, həm də ədalət mühakiməsi maraqlarının təminatıdır, sosial dəyərdir. Bu hüquq işin hallarının tam, obyektiv və hərtərəfli araşdırılmasına xidmət edir və nəticədə ədalət mühakiməsinin səmərəli həyata keçirilməsini təmin edir. Belə ki, yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ şəxsin hüquq və azadlıqlarının, həmçinin qanuni mənafelərinin müdafiəsinin təmin edilməsi ilə yanaşı, ədalət mühakiməsinin tərəflərin real bərabərliyi və çəkişmə prinsipləri əsasında həyata keçirilməsinin başlanğıc şərti kimi qiymətləndirilməlidir.

Məhkəmələrdə yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsinin ilkin şərtlərindən biri vətəndaşlara göstərilən hüquqi xidmətlərin peşəkarlar tərəfindən aparılmalı olduğunu tələb edir. Həmin peşəkarlar isə sözsüz ki, ilk növbədə vəkillərdirlər.

**– Məhkəmədə nümayəndə vasitəsilə təmsil olunma məsələsinə dair qanunvericilikdə edilmiş dəyişikliklər hansı ehtiyacdan yaranmışdır və bunu həm də ölkəmizdə vəkilliyin statusunun artırılmasına yönəlmiş addım kimi qiymətləndirmək olarmı?**

– Bilirsiniz, cavab kimi, əslində, sadə, lakin eyni zamanda çox əhəmiyyətli bir sualdan başlamaq olar. Məhkəmədə vətəndaşların hüquqlarını kim müdafiə etməlidir? Bizdə elə bir vəziyyət yaranmışdı ki, bir çox hallarda nəinki hüquqşünas olmayan şəxslər, ümumiyyətlə hər hansı ali təhsilə malik olmayan, məhkəmə icraatının qaydalarından və hüquqdan tamamilə bixəbər təsadüfi insanlar getdikcə artan şəkildə vətəndaşları məhkəmələrdə təmsil etməyə başlamışdılar. Həmin şəxslər tərəfindən göstərilən nümayəndəlik xidmətləri hüquqi yardım düzgün göstərilmədiyi üçün əksər hallarda tərəflərin maraqlarına xidmət etməyən qeyri-peşəkar təmsil edilmə ilə nəticələnirdi. Hüquqi yardımın qeyri-peşəkarlığı son nəticədə işlərin həm də hərtərəfli araşdırılmasında problemlər yaradır, qanunla müəyyən edilmiş müddətlər çərçivəsində işlərə baxılmasına imkan vermirdi. Hər bir məhkəmə işinin arxasında isə hamımızın təsəvvür edə biləcəyi kimi insanların və ailələrin taleləri durur.

Məsələyə başqa tərəfdən yanaşdıqda isə insanların ədalət mühakiməsinə olan etimadı ciddi şəkildə zədələnmiş olur. Bu zaman tərəflər çox vaxt işi nəyə görə uduzduqlarına deyil, nəticəyə baxaraq belə qənaətə gəlirlər. İnsanlar sanki məhkəmələrin düzgün qərar qəbul etmədiyini, eləcə də məhkəmə tərəfindən işlərə vaxtında baxılmasında sui-istifadəyə yol verildiyini güman edirlər. Halbuki, nümayəndələr tərəfindən çox vaxt iddialar düzgün qaldırılmır, işin araşdırılması ilə bağlı lazımi sübutlar və vəsatətlər verilmir və s. Nəticədə isə, ələlxüsus da mülki işlərdə məhkəmələrin öz təşəbbüsü ilə sübut toplamaq və işin hallarını araşdırmaq vəzifəsi olmadığı üçün qaldırılmış iddia tələbi həddində və yalnız tərəflərin təqdim etdiyi sübutlara əsasən qərar qəbul edilir. Deməli, məhkəmələrdə tərəflərin qeyri-peşəkarlar tərəfindən təmsil olunması nəinki onlara aşağı keyfiyyətli hüquqi yardımın göstərilməsinə səbəb olur, həm də bütövlükdə məhkəmə sisteminin səmərəli fəaliyyətinə mənfi təsir göstərir, ədalət mühakiməsinə olan etimadı zədələyir.

Burada mən yenidən sualınızın əvvəlində dediyim fikrə qayıtmaq istəyirəm - məhkəmədə vətəndaşların hüquqlarını kim müdafiə etməlidir? Qeyd olunanlar nəzərə alındıqda məhkəmədə tələb olunan peşəkar hüquqi yardım yalnız vəkillər tərəfindən göstərilə bilər. Vəkillər tərəfindən hüquqi yardımın göstərilməsi ona görə məqsədə müvafiqdir ki, onlar ilk növbədə peşəkar hüquqşünaslardır. Vəkil statusunu yalnız ixtisaslaşmış imtahan verildikdən sonra əldə etmək mümkündür. Bu isə imkan verir ki, həmin imtahanlar vasitəsilə hətta hüquqşünaşlar arasından belə daha layiqli namizədlər seçilsinlər. Digər tərəfdən isə həmin şəxslər vəkil seçildikdən sonra daim ixtisasın artırılmasına dair təlimlərə cəlb edilməli olurlar ki, bu da onların peşəkar hazırlıq səviyyələrinin artmasına səbəb olur.

Vəkillər həmçinin qeyri-peşəkar nümayəndələrdən fərqli olaraq prosesin peşəkar iştirakçısı kimi məhkəmə icraatının daha sürətli və düzgün aparılmasında məhkəməyə yardım edə bilər, işlərin əsassız şəkildə uzun müddət ərzində baxılmasına gətirib çıxaran lüzumsuz prosessual hərəkətlər aradan qalxar. Digər tərəfdən , qanunvericilik vəkillərə öz təşəbbüsləri ilə sübutlar toplamaq imkanı verir və bu da məhkəmə tərəfindən işin hallarının tam və hərtərəfli araşdırılması işinə ciddi töhfə verə bilər. Vəkillər həmçinin maddi və prosessual hüquq normalarının mübahisəyə düzgün tətbiqi məsələlərində də məhkəmənin diqqətini iş üzrə zəruri hallara yönəltmək baxımından daha hazırlıqlı şəxslərdirlər.

Bir sözlə, məhkəmədə hüquqi yardımın peşəkar vəkillər tərəfindən göstərilməsi həm tərəflərin özlərinin hüquqlarının daha yaxşı müdafiəsinin təşkili baxımından, həm də ümumən ədalət mühakiməsinin daha səmərəli və ağlabatan müddətlərdə həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Yeri gəlmişkən qeyd etmək yerinə düşər ki, inkişaf etmiş əksər ölkələrdə də müəyyən istisnalar çıxılmaqla məhkəmələrdə təmsilçilik bir qayda olaraq yalnız

vəkillər vasitəsilə həyata keçirilir. Bu hal bir daha göstərir ki, məhkəmədə təmsilçilik sıradan bir məsələ deyildir və hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsi baxımından ümumi konstitusion maraqlar naminə dövlət tərəfindən tənzimlənməli olan sahədir.

Bu baxımdan hesab edirik ki, dəyişikliklər ölkəmizdə vəkilliyin rolunun artırılmasına əlavə təkan verəcəkdir. Sözsüz ki, hazırda ölkəmizdə vəkillərin sayı yetərli hesab edilə bilməz. İlk növbədə Vəkillər Kollegiyası mümkün olan qısa müddət ərzində yeni qəbul imtahanlarının keçirilməsini təşkil etməlidir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2017-ci il tarixli Fərmanında da qanunvericiliyə edilmiş dəyişikliklərin 2018-ci il yanvarın 1-dən tətbiqini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilmişdir ki, vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun daha səmərəli təmin edilməsi məqsədi ilə vəkillərin sayının artırılaraq zəruri həddə çatdırılması üçün müvafiq tədbirlər görsün. Bundan başqa, yəqin ki, imtahan şərtləri, sualların tərtibi və s. kimi məsələlər də yeni yaranmış vəziyyət nəzərə alınmaqla gözdən keçirilməlidir. Eyni zamanda, ümumən vəkillik təsisatının problemlərinin həlli ilə bağlı olaraq qanunvericilik sahəsində əlavə tədbirlərin görülməsinə də ehtiyac vardır.

Yeri gəlmişkən, bir məsələni xüsusi olaraq vurğulamaq istərdim ki, hazırda nümayəndə qismində fəaliyyət göstərən və müvafiq tələblərə cavab verən şəxslər Vəkillər Kollegiyasına üzv olma məsələsini zənnimcə, ciddi şəkildə nəzərdən keçirməlidir. Ümumiyyətlə, müvafiq tələblərə cavab verən şəxslər əgər peşəkar şəkildə hüquq müdafiə fəaliyyəti ilə məşğul olmaq istəyirlərsə, bunun üçün doğru ünvana getməlidirlər, yəni Vəkillər Kollegiyasına üzv olmalıdırlar. Etiraf etməliyik ki, dəyişikliklər edilənədək real vəziyyət ondan ibarət idi ki, bir çox nümayəndə məhkəmə icraatında təmsilçiliklə bağlı öz fəaliyyətini heç bir maneə olmadan həyata keçirə bildiyi üçün Vəkillər Kollegiyasına üzv olmağa ehtiyac duymurdular. Ona görə də, hazırkı dəyişikliklər həm də ona istiqamətlənmişdir ki, məhkəmədə peşəkar şəkildə başqalarının hüquqlarının müdafiəsi fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslər məhz Vəkillər Kollegiyasına üzv olmaqla bu fəaliyyətlərini həyata keçirə bilsinlər.

Lakin bir məsələni təkrarən qeyd etmək istərdim ki, dəyişikliklər heç də bütün hallarda vəkillə məhkəmədə təmsil olunma məcburiyyəti gətirmir. Vətəndaşlar yenə də şəxsən, Mülki Prosessual Məcəllədə (MPM) dairəsi müəyyən olunmuş yaxın qohumları, eləcə də qanuni nümayəndələr vasitəsilə məhkəmədə təmsil oluna bilərlər. Şəxsən təmsil olunmaq istəməyən vətəndaşlar isə nümayəndə qismində peşəkar hüquqşünaslar olan vəkillərlə təmsil oluna biləcəklər.

Burada bir məsələni vurğulamaq lazımdır ki, dəyişikliklər müstəsna olaraq məhkəmə icraatında təmsilçiliklə bağlı məsələlərin tənzimlənməsinə yönəlibdir. Bu, o deməkdir ki, məhkəmə icraatından kənar nümayəndəlik fəaliyyətinin göstərilməsinə heç bir məhdudiyyət qoyulmayıb. Məsələn, şəxslər yenə də nümayəndələr vasitəsilə alqı-satqı və digər mülki-hüquqi əqdlər bağlaya bilər, eləcə də hüquq və vəzifələrinin həyata keçirilməsi ilə bağlı müxtəlif dövlət orqanlarında nümayəndələri vasitəsilə təmsil oluna bilərlər və s.

**– Mətbuatda çıxış edənlərdən bir çoxu bu qanunun qəbulu ilə əlaqədar işsizliyin artacağını, minlərlə insanın iş yerini itirəcəyini göstərir. Xahiş edərəm bununla əlaqədar ətraflı məlumat verəsiniz. Eləcə də nümayəndəlik institutunun məhdudlaşdırılması səbəblərindən biri kimi hüquqi savadı olmayan, qeyri-peşəkar insanların nümayəndə qismində iştirak etməklə vətəndaşların mənafeyinə zərər vurmaları barədə fikrinizi konkret faktlarla izah etməyinizi xahiş edirəm.**

– Bilirsiniz, qanunda aparılan bu dəyişiklik və əlavələrin əsas məqsədlərindən biri vətəndaşları nümayəndə kimi fəaliyyət göstərən qeyri-peşəkar şəxslərin dırnaqarası xidmətindən azad etməkdən ibarətdir.

Məhkəmə təcrübəsinin öyrənilməsi göstərir ki, birinci instansiya məhkəməsinə təqdim olunmuş iddia ərizələrinin savadsız tərtib olunması vətəndaşların üzün müddət mübahisənin həllinə nail ola bilməməsi, onların nəticəsiz olaraq lüzumsuz məhkəmə çəkişmələrinə cəlb olunmasına səbəb olur. Məsələn, müqavilənin etibarsızlığı ilə ləğvini fərqləndirməyi bacarmayan nümayəndə,

etibarsızlıq əvəzinə müqavilənin ləğvi barədə iddia qaldırır. İş rayon, apellyasiya və kassasiya məhkəməsindən keçdikdən sonra, iddiaçı tərəf tələbin düzgün qoyulmamasını başa düşərək yenidən birinci instansiya məhkəməsində etibarsızlıqla əlaqədar iddia qaldırmağa məcbur olur. Nəticədə nümayəndənin təmsil etdiyi şəxs əsassız olaraq məhkəmə çəkişmələrinə cəlb olunur və nəhayət etibarsızlıqla əlaqədar qanunvericiliyin nəzərdə tutduğu müraciət müddətini ötürür.

Yaxud səriştəsiz nümayəndə məhkəmədə eyni iddia ərizəsində əqdin etibarsız hesab olunmaqla ləğv olunması barədə biri-digərini təkzib edən tələblər irəli sürür. Başqa bir misal: Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş çıxarışın ləğv olunması xahiş olunduğu halda həmin çıxarışın verilməsinə əsas olmuş sənədlər (müqavilə, akt, vərəsəlik şəhadətnaməsi və s.) mübahisələndirilmir. Nəticədə, vətəndaşın iddiası rədd olunur və o, yenidən başqa məzmunda iddia qaldırmağa məcbur olur. Yəni nümayəndənin səriştəsizliyi vətəndaşın hüquqlarının pozulmasına səbəb olur.

Artıq 18-ci ildir ki, qüvvədə olan Mülki Prosessual Məcəllənin 67-ci maddəsinə əsasən kassasiya və əlavə kassasiya şikayətləri, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxılması haqqında ərizələr yalnız vəkil tərəfindən tərtib edildikdə icraata qəbul edilir. Kassasiya və əlavə kassasiya qaydasında, habelə məhkəmə aktına yeni açılmış hallar üzrə yenidən baxıldıqda işdə iştirak edən şəxslər məhkəmə iclaslarında yalnız vəkillə birgə iştirak edirlər.

Yəni qanunvericilik bu instansiyalardakı hüquq haqqında mübahisələrin vəkilin iştirakı ilə araşdırılmasını zəruri hesab edir. Bizim məqsədimiz ondan ibarətdir ki, bu işi əvvəldən, 1-ci instansiya məhkəməsindən başlayaraq peşəkarlar aparsınlar.

Son vaxtlar mətbuatda daha çox səslənən mövzulardan biri də qanunun qəbulu ilə əlaqədar ölkədə işsizlərin sayının artacağı barədə göstərilənlərdir. Məlumat üçün bildirim ki, bu çıxışların heç bir əsası yoxdur. Araşdırma zamanı müəyyən edilmişdir ki, respublikanın məhkəmələrində təxminən 700 nəfərə yaxın şəxs məhkəmə iclaslarında nümayəndə qismində iştirak edir və onların bir çoxunun daimi iş yeri vardır. İşləməyən nümayəndələr üçün isə həmin fəaliyyət iş yeri hesab olunmur.

Qanuna əsasən təmsil etmək – birinin müvəkkili olmaq, bir işdə onu əvəz etmək, onun adından danışmaq, birinin mənafeyini, fikrini və sair ifadə etmək hesab olunur. Məhkəmədə fiziki şəxslərin nümayəndə vasitəsi ilə onlara verilmiş etibarnamə əsasında təmsil olunması rəsmi olaraq pullu xidmət hesab olunmadığından və bu əmək müqaviləsi ilə şərtləndirilən münasibətlər dairəsinə aid olmadığından nümayəndələr üçün iş yeri hesab olunmur. Qanun layihəsinin qəbulu ilə əlaqədar işsizliyin artacağına istinad edənlər nümayəndəliyin (təmsilçiliyin) iş yeri olmamasını, nümayəndəlikdən peşə kimi istifadə edənlərin qanunsuz olaraq “vəkillik” fəaliyyəti ilə məşğul olmasını nəzərə almalıdırlar.

Qanunun qəbulunun əsas məqsədlərindən biri də nümayəndəliyi peşə etmiş şəxslərin qanunsuz fəaliyyətinə son qoymaqdan ibarətdir. Həmin şəxslərin çox hissəsi vətəndaşlardan göstərdikləri xidmətə görə “vəkil kimi” müəyyən haqq alsa da bu gəlirdən vergi ödəmir və sosial ayırmalara pul vermirlər. Bu fəaliyyətlərinə görə vəkil kimi rəsmi bir qurumun üzvü olmadıqlarından etibarnamə vermiş şəxs qarşısında heç bir məsuliyyət daşımırlar.

Təbii ki, qanunda edilən dəyişiklik və əlavələrin əsas məqsədi vətəndaşların mənafeyinin müdafiəsi, eləcə də baş verən qanunsuzluqların, “vəkil” adı altında fəaliyyət göstərən nümayəndələrin qanunsuz hərəkətlərinin qarşısını almaqdan, bununla yanaşı vətəndaşların Konstitusiyada nəzərdə tutulmuş yüksək ixtisaslı hüquqi yardımla təmin olunmasını təmin etmək üçün vəkillik institutunun inkişaf edilməsindən ibarət olmuşdur.

**– Qanunla əksər qərardadlardan kassasiya şikayəti verilməsi məhdudlaşdırılmışdır. Bu məhdudlaşdırma barədə qanunvericilik təşəbbüsü ilə çıxış etməyiniz hansı zərurətdən irəli gəlmişdir. Mülki-Prosessual Məcəllənin qüvvəyə minməsindən 17 ildən artıq müddət keçmişdir. Bu müddət ərzində baş vermiş hansı məsələlər qanunda belə dəyişiklik edilməsinin vacibliyini gündəmə gətirdi?**

– 2000-ci ildə həyata keçirilmiş məhkəmə-hüquq islahatlarının, onun tərkib hissəsi kimi üç pilləli məhkəmə sistemi yaradılmasının əsas məqsədlərindən biri də işlərə baxılmasında yol verilən süründürməçilik hallarının aradan qaldırılmasından ibarət olmuşdur. Bu məqsədlə islahatdan sonrakı dövrlərdə də qanunvericilik təkmilləşdirilmiş, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində qərardadlardan şikayət verilməsi üçün nəzərdə tutulmuş müddətlər qısaldılmışdır.

Mülki Prosessual Məcəllədə bütün fiziki və hüquqi şəxslərin özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malik olmaları, işdə iştirak edən şəxslərin prosessual hüquqi müdafiə vasitələrindən istifadə etmək, o cümlədən vəsatət, şikayət, qarşılıqlı iddia vermək və s. hüquqları təsbit olunmuşdur. Həmin hüquqlar hüdudsuz olmamaqla icraatın digər iştirakçılarının məhkəmə müdafiəsindən sərbəst istifadə etmək hüquqlarını (imkanlarını) məhdudlaşdırmamalı, bu hüquqların həyata keçirilməsinə süni maneələr yaratmamalı idi. Lakin qanunla yol verilən hüquqlardan sui-istifadə edilməsi, ayrı-ayrı qərardadlardan əsas olduolmadı bütün instansiyalar üzrə şikayət verilməsi işlərə mahiyyəti üzrə baxılmasına böyük əngəllər yaratmağa başladı. Ona görə də qanunvericilik təşəbbüsü qaydasında təklif verdik ki, icraata xitam və məhkəmə aidiyyəti ilə əlaqədar qəbul edilmiş qərardadlardan kassasiya şikayəti verilsin, qalan qərardadlara baxılması apellyasiya instansiyasında yekunlaşdırılsın.

İddianın təmini tədbir, prosessual müddətin bərpası, işlərin ərazi aidiyyəti üzrə göndərilməsi, iş üzrə icraatın dayandırılması və sair qərardadlardan verilmiş şikayətlərin apellyasiya instansiyasında yekunlaşması işlərə mahiyyəti üzrə daha tez baxılmasını təmin etməklə, mübahisələrə daha tez son qoyulmasına kömək edəcəkdir. Vətəndaşlar gözlədikləri məhkəmə qərarlarını daha tez əldə edəcəklər. Lakin, bu o demək deyil ki, apellyasiya instansiyasında yekunlaşan məhkəmə qərarları kassasiya baxışının predmeti olmayacaq. Təbii ki, vətəndaşlar yekun qərardan verdikləri şikayətə narazı qaldıqları qərardadların qüsurlu olmasına dair dəlillərini əlavə etməklə həmin qərardadların da yekun qərarla birlikdə kassasiya instansiyasında baxılmasına nail olacaqlar.

Hesab edirik ki, bir sıra qərardadlardan kassasiya şikayəti verilməsinin aradan qaldırılması vətəndaşların hüquqlarının müdafiəsinə xidmət etməklə mübahisələrə daha tez nəticə verilməsinə səbəb olacaqdır.

Qüvvədə olan Cinayət Prosessual Məcəllədə qətimkan tədbirlərindən (o cümlədən həbs qətimkan tədbiri) kassasiya şikayəti verilməsi nəzərdə tutulmamışdır. Həmin işlər apellyasiya məhkəməsində yekunlaşdırılır. Lakin bu günə kimi bu normanın tətbiqində heç bir problem yaranmamışdır. Halbuki, həyatda insanın azadlığı qədər qiymətli heç nə yoxdur.

MƏQALƏ

**Müzəffər Ağazadə,**
***Azərbaycan Respublikasının***
***Əməkdar Hüquqşünası***

## Replika

## Şərti məhkum etmə zamanı sınaq müddəti hansı vaxtdan başlanmalıdır?

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (CM) 70-ci maddəsinə əsasən məhkəmələr cinayət hadisəsi törətmiş şəxslərə islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, intizam xarakterli hərbi hissədə saxlama və ya müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəza təyin edərkən məhkumun cəza çəkmədən də islah olunmasını mümkün saydıqda həmin cəzanın şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxara bilər. Belə hallarda törədilmiş cinayətin xarakteri, ictimai təhlükəlilik dərəcəsi, məhkumun şəxsiyyəti, habelə cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır.

Şərti məhkum etmə zamanı 6 aydan beş ilədək müddətə sınaq müddəti müəyyən olunur ki, bu müddətdə də məhkum öz davranışı ilə islah olunduğunu sübut etməlidir.

CM-nin 70.5-ci maddəsi ilə isə müəyyən edilir ki, məhkəmə şərti məhkum etmə təyin edərkən məhkumun üzərinə müvafiq orqanlara məlumat vermədən daimi yaşayış, təhsil və iş yerlərini dəyişməmək, müəyyən yerlərə getməmək, alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəliklərdən müalicə kursu keçmək, ailəsinə maddi yardım göstərmək və digər bu kimi vəzifələr də qoya bilər.

Cinayət qanununda məhkəmə hökmü ilə təyin olunmuş sınaq müddətinin hansı vaxtdan başlanmalı olması barədə göstəriş yoxdur. Bu məsələ Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (CİM) normaları ilə nizama salınır. Həmin Məcəllənin 181-ci maddəsində isə qeyd olunur ki, sınaq müddəti məhkəmənin hökmünün qanuni qüvvəyə mindiyi gündən hesablanır.

CİM-nin bu normasının məntiqi və əsaslı olması isə mübahisəlidir. Aydın deyildir ki, hansı səbəbdən şərti məhkumluqda sınaq müddətinin başlanğıcı hökmün elan edildiyi vaxtdan deyil, onun qanuni qüvvəsini aldığı vaxtdan hesablanmalıdır.

CM-nin 71.2-ci maddəsinə görə məhkum hökmlə üzərinə qoyulan vəzifələri yerinə yetirməkdən boyun qaçırdıqda və ya ictimai qaydanı pozduqda sınaq müddəti əlavə olaraq daha bir il müddətinədək uzadıla bilər. Məhkum sınaq müddəti ərzində məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri mütəmadi və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçırdıqda isə məhkəmə şərti məhkum etmənin ləğv edilməsi və hökmlə təyin olunmuş cəzanın icra olunması barədə qərar çıxara bilər.(CM-nin 71.3-cü maddəsi).

Cinayət prosessual qanunvericiliyinin tələblərinə və mövcud məhkəmə təcrübəsinə əsasən hökm elan edildikdən dərhal sonra məhkəməyə sədrlik edən hökmün mahiyyətini məhkuma izah etməlidir. Bu, xüsusilə təyin edilən cəzanın şərti hesab olunması və məhkumun üzərinə müəyyən vəzifələr qoyulması hallarına aiddir. Deməli ittiham hökmü elan edilən andan şərti olaraq məhkum edilən şəxs başa düşür ki, müvafiq məhdudiyyətlərə məruz qaldığı, üzərinə konkret vəzifələr qoyulduğu üçün müəyyən müddət ərzində nəinki yeni cinayət hadisəsi, yaxud inzibati qaydada cəzalandırılan xətaya yol verməsi, hətta hökmlə üzərinə qoyulan vəzifələri yerinə yetirməkdən boyun qaçırması onun üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Təbii ki, belə hallarda şərti məhrum edilən şəxs elə hökmün çıxarıldığı vaxtdan etibarən özünü nümunəvi aparmağa

çalışacaqdır. Bu, həm həbsdə olmayan şəxsə hökmlə təyin olunan cəzanın şərti hesab edilməsi, həm də cəzanın şərti hesab olunması ilə əlaqədar məhkumun həbsdən azad edilməsi hallarına aiddir.

Şərti məhkum etmənin mahiyyətini anlayan şəxs hökmün qanuni qüvvəsini alan vaxta qədər də cəmiyyətdə qəbul olunan birgəyaşayış qaydalarına əməl etməklə inzibati xəta və ya cinayət hadisəsi törətmədikdə, yaxud məhkəmə tərəfindən üzərinə qoyulan vəzifələrdən yayınmadıqda hökmün qanuni qüvvəsini aldığı vaxtadək olan müddət hansı əsasla sınaq müddətinə hesablanmamalıdır?

Tutaq ki, şəxs AR CM-nin 221.2-ci maddəsi ilə təqsirli bilinərək 2 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsə də həmin cəza CM-nin 70-ci maddəsi tətbiq olunmaqla 2 il sınaq müddətinə şərti hesab olunmuşdur. Məhkəmə tərəfindən üzərinə alkoqolizmdən müalicə kursu keçmək və ailəsinə maddi yardım göstərmək kimi vəzifələr də qoyulmuşdur.

Dövlət ittihamçısı tərəfindən hökmdən apelyasiya protesti, yaxud məhkumun özü tərəfindən ümumiyyətlə əsassız məhkum edilməsi motivi ilə apelyasiya şikayəti verilmişdir. Müəyyən səbəblərdən (məsələn, işə məhkəmə istintaqı aparılmaqla baxılması, ekspertizalar keçirilməsi, müdafiəçinin stasionar müalicədə olması və s.) işin apelyasiya instansiya məhkəməsində baxılması və yekunlaşdırılması 6-7 ay çəkmişdir. (Məhkəmə təcrübəsində nadir hallarda da olsa müxtəlif səbəblərdən işin apelyasiya baxışının bir ilədək və daha çox müddətədək uzanması hallarına da təsadüf edilir). Bu müddət ərzində şərti məhkum edilən şəxs qəsdən törədilən hər hansı inzibati xətaya və ya cinayət hadisəsinə yol verməmiş və məhkəmə qərarı ilə üzərinə qoyulan vəzifələri həyata keçirməkdən imtina etməmişdir. Belə vəziyyətdə hökmün çıxarıldığı vaxtla onun qanuni qüvvəsini aldığı vaxtadək olan müddətin hökmlə müəyyən edilən sınaq müddətinə daxil edilməməsi məntiqi görünmür.

İndi də hökm çıxarılandan onun qanuni qüvvəsini alanadək keçən müddətdə fərqli vəziyyətə diqqət yetirək. Fərz edək ki, şərti məhkum edilən şəxs apelyasiya instansiyası məhkəməsində işə baxılana qədər keçən 6-7 ay ərzində üzərinə məhkəmə tərəfindən qoyulmuş vəzifələri yerinə yetirməkdən boyun qaçırma, ictimai qaydanı pozma, qəsdən yeni cinayət hadisəsi törətmə kimi neqativ əməllərə, yaxud bu əməllərdən hər hansı birinə yol vermişdir. Belə hallarda şübhəsiz ki, CM-nin 71.2, 71.3 və 71.4-cü maddələri ilə müəyyən edilən normalar işə salınmaqla onun haqqında sınaq müddətinin uzadılması, şərti məhkum etmənin ləğv edilməsi və hökmlə təyin olunan cəzanın icra edilməsi kimi tədbirlər görüləcəkdir. Həm də belə məhdudiyyət tədbirləri şərti məhkum edilənin məhzsınaq müddəti ərzində hüquqazidd əməlləri törətməsinə cavab olaraq həyata keçiriləcəkdir.

Istər-istəməz belə bir sual meydana çıxır: necə olur ki, şərti məhkum etmə zamanı hökmün çıxarılmasından onun qanuni qüvvəsini alana qədərki müddət məhkumun hüquq pozuntusuna yol verdiyi hallarda sınaq müddəti hesab olunur, hökmlə üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi, özünü yalnız müsbət tərəfdən göstərdiyi hallarda isə həmin dövr sınaq müddətinə daxil olunmur?

Sınaq müddəti müəyyən edilərkən məhkumun üzərinə özünün davranışı ilə islah olunduğunu sübut etmək vəzifəsi qoyulur vəbu məsələnin hökmdən şikayət və ya protest verilməsi ilə hər hansı əlaqəsi yoxdur. Hökmün qüvvədə saxlanması isə onun qanuniliyinə dəlalət edir.

Burada belə bir məsələni də qeyd etmək yerinə düşər ki, şərti məhkumluğun mahiyyətini anlayan məhkum məhz hökm çıxarılandan bilavasitə sonrakı dövrdə birgəyaşayış qaydalarına əməl etməyə daha çox meyilli olur. Çünki CM-nin 71.1-ci maddəsinə əsasən sınaq müddətinin azı yarısı keçdikdən sonra şərti məhkum edilmiş şəxs öz davranışı ilə islah olunduğunu sübut etdikdə məhkəmə onun ərizəsi və ya məhkumun üzərində nəzarəti həyata keçirən dövlət orqanının təqdimatı əsasında vaxtından əvvəl məhkumluğu üzərindən götürə bilər. (Konstitusiya Məhkəməsi Plenumunun 13/XII-10-cu il tarixli qərarı)Məhkumluğun üzərindən götürülməsində maraqlı olan məhkumun sınaq müddətində birgəyaşayış qaydalarına davamlı olaraq əməl etməsi isə onun islah olunmasına gətirib çıxaran amillərdəndir.

Nəhayət qeyd olunmalıdır ki, cinayət qanunu yaradılarkan istifadə etdiyimiz RF Cinayət Məcəlləsinin 73-cü maddəsində də şərti məhkumluq zamanı sınaq müddətinin hansı vaxtdan başlanmalı olması barədə göstəriş yoxdur. Lakin RF CM-nin bir çox kommentariyalarında o

cümlədən RF Ali Məhkəmə Sədrinin birinci müavini V.Radçenkonun məsul redaktor olduğu RF CM-nin Kommentariyasında da sınaq müddətinin məhz hökmün çıxarıldığı vaxtdan hesablanmalı olması qeyd olunur. (Издательство «Проспект», 2009)

Bütün bu qeyd edilənlər şərti məhkumluq zamanı sınaq müddətinin məhz hökm çıxarıldığı vaxtdan başlanmalı olmasının daha məntiqi və əsaslı olmasına dəlalət edir. Bu isə o deməkdir ki, CİM-nin 181-ci maddəsində dəyişiklik edilməsinə ehtiyac vardır.

Hüquqşünasların bu məsələ barəsində fikirlərini bildirməsi maraqlı olardı.

**Vəfaddin İbayev,**
***Azərbaycan Respublikası***
***Ali Məhkəməsinin hakimi***

# ÇİNDƏ ON BEŞ GÜN

**1.Ön söz**

12 sentyabr 2017-ci il tarixdə Çin Xalq Respublikası Ali Məhkəməsinin dəvəti ilə Ali Məhkəmənin beş hakimi - Əli Rüstəmov, Qürbət Əsgərov, Rahib Nəbizadə, Əhməd Nurməmmədov və mən Pekinə səfərə yola düşdük. Səfərin ilk mərhələsində Çin Xalq Respublikasının Milli Hakimlər Akademiyasında müxtəlif dövlətlərdən olan hakimlərlə birlikdə tədris kursunda, son günlərdə isə Dunxuan şəhərində keçiriləcək "İpək yolu məhkəmə əməkdaşlığı beynəlxalq forum"da iştirakımız nəzərdə tutulur, 27 sentyabr 2017 – ci il tarixdə səfər başa çatırdı.

Artıq səfər başa çatmış, Çində keçirdiyimiz günlər xatirəyə dönmüşdür. Hələ Çində olanda həmkarlarımla söhbət zamanı səfər barədə müəyyən məlumatları yazıb "Ali Məhkəmənin Bülletini"ndə nəşr etmək niyyətimin olduğunu bildirmişdim. Düşünürəm ki, səfər təsüratlarının həmkarlarımızla bölüşdürülməsi Məhkəmə rəhbərliyinin Ali Məhkəmənin hakimlərinin xarici ölkələrə səfərləri ilə bağlı digər hakimləri məlumatlandırmaq tələbinə də müvafiqdir.

Vədimə müvafiq olaraq yazdıqlarımın bir istiqaməti Çin hüquq sistemi, məhkəmə quruluşu, mülki hüquq, cinayət hüququ, inzibati hüquq, əqli mülkiyyət hüququ, məhkəmələrin fəaliyyəti, ikinci istiqaməti hakimlərin ipək yolu forumu, onun məqsəd və məramları, müxtəlif ölkələrdən gəlmiş hakimlərin forumdakı çıxışının qısa məzmununu əhatə edir. Üçüncü istiqamət isə Çində səfərdə olduğumuz vaxta aid təsüratlar, xüsusən Çində tanış olduğumuz mədəni sərvətlərə həsr olunmuşdur. "Ali Məhkəmənin Bülletini"ndə veriləcək məqalənin həcmini nəzərə alıb yazdıqlarımı qısaldılmış şəkildə həmkarlarıma təqdim etmək istərdim.

**14 sentyabr 2017-ci il**

**2.Tədris kursunun rəsmi açılışı**

Sentyabrın 14-də tədbirin açılışında Çin Milli Hakimlər Akademiyasının əməkdaşları Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan nümayəndə heyətlərinin üzvləri ilə yanaşı Azərbaycan nümayəndə heyətinin üzvü kimi mən aşağıdakı çıxışı etdim:

"Hörmətli xanımlar və cənablar,

Hər şeydən əvvəl mən istərdim ki, hər kəsi - həm tədbiri təşkil edən ev sahiblərini, həm də tədbir iştirakçısı olan qonaqları salamlayım, onlara səmərəli iş, faydalı təcrübə, yeni biliklər əldə etməyi və ən əsası qədim Çin torpağından evə yaxşı, xoş təəsüratlarla qayıtmağı arzulayım.

Azərbaycan Respublikasından gəlmiş nümayəndə heyətinin üzvlərinin hamısı ilk dəfədir ki, qədin Çin torpağındadırlar. Çində yalnız ikinci gündür ki, olmağımıza baxmayaraq artıq əminliklə deyə bilərik ki, biz bu səfərdən çox məmnunuq.

Məmnunuq ona görə ki, hələ uşaqlıqdan qədim Çin nağıl və rəvayətlərini, Çin müdriklərinin nəsihətlərini valideynlərimizdən, nənə və babalarımızdan eşidib, Çin xalqı haqqında olduqca xoş təsəvvürlərə malik idik. Çində olduğumuz birgünlük müddət ərzində bu təsüratlar özünü doğrultdu. Bizi olduqca səmimi, böyük qayğı və diqqətlə qarşıladılar. Bizə göstərilən bu qayğı ona dəlalət edir ki, biz xeyirxah və bizə ruhən yaxın olan insanların əhatəsindəyik.

Biz məmnunuq ona görə ki, hələ tələbəlik illərindən Çin hüquq sistemi haqqında aldığımız ümumi məlumatları burada inkişaf etdirəcək, Çində ədalət mühakiməsinin həyata keçirilməsinin hazırkı vəziyyəti ilə tanış olacaq və biliklərimizi zənginləşdirəcəyik.

Biz məmnunuq ona görə ki, Çin hüquq sistemi ilə tanışlıqla yanaşı Çinin tarixi, onun mədəniyyəti ilə bağlı böyük bilik və təcrübə əldə edəcəyik. Böyük Çin səddinə qalxmaq, Çinin tarixi və mədəniyyəti ilə bağlı müxtəlif müzeylərdə olmaq bizim çoxdankı arzumuzdur və biz bu arzuları reallaşdırmaq imkanına malikik. Bizə təqdim olunan tədbirlər proqramı buna dəlalət edir.

Biz məmnunuq ona görə ki, tədbirin keçirildiyi müddətdə bizimlə birlikdə səfərdə olan dostlarımızdan Mərkəzi və Qərbi Asiya dövlətlərində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ilə bağlı məlumat ala bilər, yeni dostlar qazana, fikir mübadiləsi edə və qarşılıqlı faydalana bilərik.

Çin dövlətinə səfərə gəlməyimizin ilk günü ərzində biz onun şahidi olduq ki, burada hakimlərin fəaliyyətinin təşkilinə, onların işinin təkmilləşdirilməsinə böyük qayğı göstərilir, ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi üçün böyük işlər görülür. Milli Hakimlər Akademiyasında yaradılan şərait ona dəlalət edir ki, Çin dövlətinin ədalət mühakiməsinin həyata keçirilməsinə qayğısı digər dövlətlər üçün nümunə ola bilər. Bizə elə gəlir ki, Çində ədalət mühakiməsi Çinin iqtisadiyyatı ilə birgə addımlayır, birgə inkişaf edir və tədbir iştirakçılarının burada qazanacaqları təcrübə faydalı olacaqdır.

Demək olar ki, təşkil olunan tədbirin bütün iştirakçıları ədalət mühakiməsinin həyata keçirilməsi ilə məşğul olurlar. Bu fəaliyyətin əsasını qanunun aliliyinin təmin olunması yolu ilə ədalətə nail olmaq təşkil edir. Bir tərəfdən məhkəmənin ədalətə nail olması və onun təmini Azərbaycan Respublikası qanunvericiliyinin tələbidir, digər tərəfdən isə bu bizim xalğın milli mədəni sərvətinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ədalət mühakiməsi ilə Çin Xalq Respublikasının ədalət mühakiməsi arasında qarşılıqlı əməkdaşlıq başlanmış və inkişaf edir. Biz dünən Milli Hakimlər Akademiyasının bağını gəzərkən Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri Ramiz Rzayevin əkdiyi ağac və yanındakı daşın üzərində adının həkk olunması ilə rastlaşdıq. Bu artıq ona dəlalət edir ki, Çin torpağında Azərbaycan ədalət mühakiməsinin simvolu kök atır. Biz bu əməkdaşlıqla fəxr edirik və onun qarşılıqlı faydalılığına ümid bəsləyirik.

Diqqətinizə görə təşəkkür edir, hamınıza uğurlar arzulayıram".

**14 sentyabr 2017-ci**

**3.Çin hüquq mədəniyyəti ənənəsi və müasir Çində hüququn aliliyi mədəniyyəti**

Məruzəçi: Ali Xalq Məhkəəmsinin Məhkəmə Komitəsinin müstəqil üzvü, ikinci səyyar kollegiyasının sədri Xu Yunten

Cənab Xu Yuntenin məruzəsindəki əsas tezislərə keçməmişdən əvvəl qeyd etmək istərdim ki, qədim Çin hüququnun səciyyəvi cəhətini müvafiq siyasi dəyişikliklər zamanı hüququn müəyyən ünsür və tərəflərini (onun mahiyyət, məzmun, forma, quruluş, funksiyalarını) qoruyub saxlayan milli hüquq sisteminin qanunauyğunluqları ilə müəyyən edilən zamana görə vasrislik və yurisprudensiyanın müxtəlif inkişaf mərhələləri arasında mühüm üzvi əlaqə - "irsiliklə yaradıcı inkişaf arasında əlaqə təşkil edir.

Çin şəraitində hüquqa konservativ məna xasdır, çünki keçmişdən süzülüb gələn hüquqi başlanğıclar xonoloji ardıcıllıqla hüquq mədəniyyətinin formalaşmasına öz təsirini göstərmişdir. Konfutsinin "Mən keçmişə inanıram!" devizi bu xüsusiyyəti yaxşı əks etdirir. Digər tipik müdrik ifadələr: "İnsanlar arasında ancaq yaşlıları axtarmaq lazımdır, əşyalarda isə köhnəni deyil, təzəni axtar"; "Qədim zamanlarda bizim əcdadlarımız - hökmdarlar idarəçiliyə yaşlı adamları cəlb edirdilər". "Əgər özün təkmilləşə bilirsənsə, idarə etmək işində hansı çətinliklər ola bilər? Yox, əgər özün təkmilləşə bilmirsənsə, onda başqalarının davranışını necə düzəldə bilərsən?" və sair müdrik deyimlərin hər birində ifadə olunan məna yükü zaman-zaman Çin hüququnda öz izini qoymuşdur.

Qədim Çin hüquq mədəniyyəti miflərlə az bağlıdır. Çində mifə hörmətlə yanaşılmaqla, hüquqda səmərəliliyə üstünlük verilib. "Taxtda ağıllılar hökmran olmalıdır; hökmdar ədalətli olmalı təəbələrinin rifahının qayğısına qalmalı, onlar üçün nümunə olmalı, özünü qabiliyyətli köməkçilər ilə əhatə etdirməli, istedadlıları irəli çəkməlidir."

Bu meritokratik (qabiliyyətlilərin, layiqlilərin hakimiyyəti) formulu "döyüşən çarlıqlar" və "beş despot" (eramıza qədər V-İİİ əsrlərdə), yəni qəbilə dövlətlərinin dağıldığı, imperiyanın yarandığı dövrdə şübhə altına alındı. Onun müdafiəsində istedadlı hüquqşünaslar iştirak etdilər və qarışıqlığın bəlalarını milli hüquq dahisinin zəfərinə çevirdilər.

Çində hüquqi düşüncələrin inkişafından danışarkən daosizm üzərində dayanmağı zəruri hesab edirik. Daosizm qıdim çin fəlsəfəsinin əsas istiqamətlərindən biridir. Sonralar fəlsəfənin bu istiqaməti üzərində Çində daosizm dini yarandı. Dini təlimin əsasını əbədi xoşbəxtliyin axtarışı təşkil edir. Dao tərəfdarlarının rəhbəri Lao Tszının hüquqi təsəvvürləri "Dao de tszin" traktatında ifadə olunmuşdur. Qədim mənbələrdən belə bir əfsanə bizim günlərə kimi gəlib çatmışdır ki, bir gün Konfutsi Lao Tszının yanına gələrək onun humanizm və ədalət haqqında fikirləri ilə maraqlanır. Konfutsi özü humanizm və

ədalətə böyük ümidlər bəsləyir və onlara əsaslanmaqla keçmişin irsini hüququn sarsılmaz sisteminə çevirməyi arzulayırdı. Yaşlı müdrik Konfutsini məyus edir: “Sizin haqqında danışdığınız humanizm və ədalət tamamilə artıq şeylərdir. Səma və Yer təbii olaraq sabitliyə riayət edir, günəş və ay təbii olaraq işıq saçır, ulduzların özlərinin təbii qaydası vardır, vəhşi heyvan və quşlar özlərinin təbii dəstələri ilə yaşayır, ağaclar təbii olaraq bitir. Sizin də daoya riayət etməyiniz yaxşı olardı”. O, məyus olmuş Konfutsini inandırdı ki, dövlətin reqlamentləşdirilməsi sonsuzluğa (qısırlığa) məhkumdur. Daosizm süniliyi rədd edirdi. Daosların hüquqi düşüncələrinin əsasını hər şeyin təbii halı təşkil edirdi.

Konfutsiyə (551-479) görə hüquqi dao - insanlar arasında humanist və ədalətli qayda olmaqla özündə qədim ənənə ilə kosmik qanunamüvafiqliyi birləşdirir. İnsanların qayğısına qalmaq lazımdır, onları öz arxanca aparmaq, etibarlarını qazanmaq lazımdır. Konfutsidən idarə etmək sənəti haqqında soruşduqda, o cavab verdi: ”İnsanların qabağında get, onlar üçün zəhmət çək”. İnsanları tərbiyə etmək lazımdır. “Qoy dövlət başçısı dövlət başçısı, təəbə-təəbə, ata-ata, oğul-oğul olsun”. “Əgər xalqın hər şeyi varsa, onda necə ola bilər ki, hökmdara çatmasın? Əgər xalqa çatmırsa, onda hökmdara necə çata bilər?” Van (hökmdar) bacarıqlı və qabiliyyətli köməkçilərinə arxalanmağa borcludur. Eyni zamanda köməkçilərini seçməkdə səhv etməmək ondan asılıdır, o elə adamları seçməlidir ki, onlar digərlərindən daha yararlıdır.

Konfutsidən sonra Şan Yanın hüquqi düşüncələri “Şan tszyun su” (“Şan vilayətinin hökmdarının kitabı”) kitabında öz əksini tapdı. Əslində kitabda toplananlar Şan Yanın nitqləri, fərmanları, təlimatları idi. Kitab onun şagirdləri tərəfindən tərtib olunmuşdu. Şan Yan da Konfutsi kimi dövlətdə qayda-qanunun hökmranlığına üstünlük verir, monarxiyadan başqa idarəçilik formasını qəbul etmirdi. Lakin o qanun-qaydaya nail olmağın tamamilə ayrı yollarını təklif edirdi. Şan Yan qeyd edirdi ki, “insanpərvər başqalarına qarşı insanpərvər ola bilər, lakin o adamları insanpərvər olmağa məcbur edə bilməz, ədalətli adam başqalarını sevə bilər, lakin o, adamları biri-birini sevməyə məcbur edə bilməz. Buradan aydındır ki, təkcə insanpərvərlik və ya ədalət Səmaaltını yaxşı idarə etməyə nail olmaq üçün kifayət deyildir.”

Çində hüquqi düşüncələrin sonrakı inkişaf mərhələlərində əvvəlki mütəfəkkirlərin bir çox ideyalarına istinad olunsa da, bəzi fikirləri də tənqid olunurdu. Məzələn, Sun Yatsen ailə, nəsil, əcdadların ayinləri kimi ənənəvi Çin modelini mili dövlətin bazisi kimi qəbul etsə də, hesab edirdi ki, “onlar mütləq monarx idilər, onlar özü-özlüyündə nə qədər yaxşı olsalar da, ideal hökmdar kimi qəbul oluinub təriflənməyə layiq deyillər. Sun Yatsen hüquqi dəyərlərin qorunması və yayılmasında Konfutsi və onun ardıcıllarının xidmətlərini etiraf etsə də, eyni zamanda hesab edirdi ki, “Konfutsi və Men Tszı müasir alimlər deyil, qədim müdriklər olublar... Onların deyimlərindən bəziləri ədalətli, bəziləri isə əksinə ədalətli deyildir.”

Bütün bunlar ona dəlalət edir ki, qədim Çin hüquq düşüncəsi zaman-zaman inkişaf edərək mütərəqqi cəhətlərini nəsillərdən-nəsillərə ötürmüş, tarixin süzgəcindən keçərək milli dəyərlər əsasında formalaşmış, milli hüquq mədəniyyəti kimi Çinin ümumi mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir.

Cənab Xu Yuntenin “Çin hüquq mədəniyyəti ənənsi və müasir Çində hüququn aliliyi mədəniyyəti “ mövzusunda mühazirəsinin əsas tezisləri aşağıdakılardan ibarət idi:

-Dövlət və millətin nəhəngliyi, möhtəşəmliyi, həmişə mədəni inkişafla müşaiyyət olunur.

-Çin millətinin böyük gəncləşməsi Çin mədəniyyətinin çiçəklənməsi və inkişafına əsaslanmalıdır.

- Biz, gözəl ənənələrə malik olan Çin mədəniyyətinin sosializmin əsas dəyərlərinin mənbəyinə çevrilməsi üçün Çin mədəniyyətinin mahiyyətini və əxlaqi dəyərlərini ciddi şəkildə öyrənməli, yaradıcı transformasiya və innovativ inkişafa xüsusi diqqət verməklə irsiliklə yaradıcı inkişaf arasında əlaqə yaratmalıyıq (Si Tsizinpin).

-Mədəniyyət plüralistik, mürəkkəb və hər tərəfli konsepsiyadır. Hüquq mədəniyyəti qədim mədəni fenomendir.

-Çin hüquq mədəniyyəti – Çin millətinin uzunmüddətli həyat və istehsal təcrübəsində yaratdığı bütün hüquqi materialların, qanunların ruhunun nəticələrinin məcmusudur.

-Çin hüquq mədəniyyətinin xüsusiyyətləri və üstünlükləri:

1) Qədim tarixə malikdir və çoxdan formalaşmış bir mədəniyyətdir;

-bu mədəniyyətin Sarı imperatordan başlayaraq 5000 il, Qao Taodan başlayaraq 4300 il, ilk qanundan başlayaraq 2500 il, “Tsin qanunlarından” başlayaraq 2200 il tarixi vardır.

2) Heç vaxt kəsilməyib, əsas başlanğıcları qorunub saxlanıb, güclü həyat qabiliyyətinə malikdir;

3) Yerli köklərə əsaslanaraq müstəqil inkişaf etmiş, müstəsna “əqli mülkiyyətə” malikdir.

4) Çin millətinin geniş, hərtərəfli, kollektiv ağlına əsaslanır:

5) Çinlilər insanla təbiət arasında harmoniyaya, onların harmoniyada mövcudluğuna cəhd edirlər;

6) İctimai inkişaf qanunları, dövlət hüququ və insanların arzusu,diləkləri Çin hüquq mədəniyyətinin müxtəlifliyini təşkil edir və bunlar müəyyən məqamlarda biri-biri ilə birləşirlər;

7) Çin hüquq mədəniyyəti piramidası əxlaq, ayinlər sistemi və qanunlar əsasında qurulub;

8) Patriarxal standart, ailə və dövlət qədim Çin cəmiyyətinin əsas idarəçilik modelini təşkil edir;

9)Patriarxal ailəyə əsaslanan etik məcəllə qədim Çin hüquq mədəniyyətinin əsas hissəsini təşkil edir.

**15 sentyabr 2017-ci il**
**4.Çin Xalq Respublikasının məhkəmələrinin təşkili və sistemi**
**Məruzəçi: Van Syaofan**

**Xalq məhkəmələrinin təşkilati quruluşu və səlahiyyətləri**

ÇXR-nın Konstitusiyasının 123-cü maddəsinə müvafiq olaraq ÇXR-nın xalq məhkəmələri dövlət məhkəmə orqanlarıdır. Məhkəmə orqanlarının hüquqi statusu Konstitusiyanın 6 maddəsində (onlardan ikisi Ali Xalq Məhkəməsinə həsr olunmuşdur), 1979-cu il tarixli (1983-cü ildəki dəyişikliklərlə) “Müxtəlif dərəcəli xalq məhkəmələrinin təşkili haqqında” ÇXR Qanununda və 1995-ci il tarixli “Hakimlər haqqında” ÇXR Qanununda öz əksini tapmışdır. ÇXR-da yalnız bir məhəkəmə sistemi fəaliyyət göstərir.

ÇXR-nın məhkəmə quruluşuna Ali Xalq Məhkəməsi, müxtəlif dərəcəli yerli xalq məhkəmələri, hərbi məhkəmələr və digər ixtisaslaşdırılmış xalq məhkəmələri daxildir. Müxtəlif dərəcəli yerli xalq məhkəmələri inzibati ərazi bölgüsü, ixtisaslaşdırılmış məhkəmələr isə tələbat prinsipinə müvafiq oaraq təsis edilir.

Müxtəlif dərəcəli yerli xalq məhkəmələrinə yüksək dərəcəli xalq məhkəmələri, orta dərəcəli xalq məh1kəmələri, aşağı xalq məhkəmələri aiddir. ÇXR-da cəmi 3573 yerli xalq məhkəməsi fəaliyyət göstərir və onların əksəriyyəti inzibati rayonların bölgüsünə uyğundur.

Aşağı xalq məhkəmələri ÇXR-nın xalq məhkəmələrinin təşkili haqqında Qanunun müddəalarına müvafiq qəza və şəhər xalq məhkəmələri, muxtar qəzaların xalq məhkəmələri, şəhər rayonlarının xalq məhkəmləri hesab olunur. ÇXR-da inzibati rayonların sayına müvafiq olaraq 3000-dən artıq aşağı xalq məhkəməsi vardır. Aşağı xalq məhkəmələrinin tərkibi sədr, onun müavinləri və hakimlərdən ibarətdir.

Aşağı xalq məhkəmələri tərkibində cinayət işləri üzrə palata, mülki işlər üzrə palata, təsərrüfat işləri üzrə palata yaradıla bilər.

Aşağı xalq məhkəmələri qanunlarda digər göstəriş mövcud deyildirsə, cinayət və mülki işlərə birinci instansiya məhkəməsi kimi baxırlar. Aşağı xalq məhkəmələri icraatlarında olan cinayət və ya mülki işin mühümlüyünü nəzərə alıb ona orta dərəcəli yerli xalq məhkəməsində baxılmasını məqsədəmüvafiq hesab edərsə, orta dərəcəli yerli xalq məhkəməsindən bunu xahiş edib işi həmin məhkəməyə verə bilər.

Məhkəmə iclasında işə baxmaqdan əlavə aşağı xalq məhəkəmələri aşağıdakı vəzifələri yerinə yetirir:

məhkəmə iclasında araşdırma tələb etməyən mülki mübahisə və az əhəmiyyətli cinayət işlərini həll edir;

xalq barışdırıcı kommissiyalarının işini istiqamətləndirir.

Aşağı xalq məhkəmələri böyüklüyündən, ərazisinin xarakterindən, əhalisindən və işin vəziyyətindən asılı olaraq məhkəmə proseslərində işin asanlaşdırılması üçün bir neçə xalq tribunalı yarada bilər. Xalq tribunalları ayrıca məhkəmə instansiyası deyil, aşağı xalq məhkəmələrinin tərkib hissəsidir. Onların qətnamə və qərarları aşağı xalq məhkəmələrinin qətnamə və qərarları hesab olunur. Xalq tribunalları, həmçinin Xalq barışdırıcı kommissiyalarının işini istiqamətləndirir, hüquq qaydası sahəsində təbliğat aparır, əhalidən daxil olan ərizələri araşdırır, vətəndaşların qəbulunu keçirir.

Orta dərəcəli xalq məhkəmələri əyalətdəki, mərkəzi tabelikdə olan şəhərlərdəki (mərkəzi tabelikdə olan şəhərlər: - Pekin, Şanxay, Çuntsin, Tyantszin şəhərləridir) rayonlar, əyalət və muxtar vilayətlərə tabe olan şəhərlərdə yaradılır. Bu kateqoriyaya muxtar vilayətlərin xalq məhkəmələri də

aiddir. ÇXR-da 300-dən artıq orta dərəcəli xalq məhkəməsi fəaliyyət göstərir. Bu cür məhkəmələrin tərkibinə sədr, onun müavinləri, palata rəisləri, onların müavinləri və hakimlər daxil olur.

Orta dərəcəli xalq məhkəmələrinin tərkibində cinayət işləri üzrə palata, mülki işlər üzrə palata, mərkəzi tabelikdə olan şəhərlərdəki rayonlar, əyalət və muxtar vilayətlərə tabe olan şəhərlərdə təsərrüfat işləri üzrə palata da yaradılır. Zəruri hallarda digər palatalar da yaradıla bilər.

Orta dərəcəli yerli xalq məhkəmələri işlərə baxmağa münasibətdə aşağıdakı səlahiyyətlərə malikdir:

Qanuna əsasən birinci instansiya məhkəməsi kimi onların səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxmaq: Birinci instansiya məhkəməsi kimi orta səviyyəli xalq məhkəmələrinin səlahiyyətlərinə dövlət təhlükəsizliyinə qəsd ilə əlaqədar olan işlər, sanksiyasında ömürlük azadlıqdan məhrumetmə və ölüm cəzası nəzərdə tutulmuş maddələrlə ittiham olunan şəxslər barədə işlər, xarici vətəndaşlar tərəfindən törədilmiş cinayətlərlə dair işlər, Çin vətəndaşlarının törətdiyi cinayətlərin xarici vətəndaşların hüquq və maraqlarına qəsd etdiyi cinayətlərlərlə əlaqədar işlər aid edilmişdir.

Mülki prosessual qanunvericiliyə müvafiq olaraq orta dərəcəli yerli xalq məhkəmələri aşağıdakı mülki işlərə baxırlar: xaricilərə aid ciddi işlər, yerli əraziyə ciddi təsir göstərən işlər, Ali Xalq Məhkəməsi tərəfindən orta dərəcəli yerli xalq məhkəmələrinə aid edilmiş işlər.

İnzibati prosessual qanunvericiliyin müddəalarına müvafiq olaraq orta dərəcəli yerli xalq məhkəmələri birinci instansiya kimi aşağıdakı inzibati işlərə baxırlar: ixtiraya patentin tanınması barədə işlərə, gömrük hüquq pozuntuları barədə işlərə, Dövlət Şurasının müxtəlif orqanlarının əyalətlərin, muxtar rayonların və mərkəzi tabelikdə olan şəhərlərin xalq nümayəndəliklərinin konkret inzibati fəaliyyətlərinə münasibətdə məhkəmədə qaldırılmış işlərə, yerli ərazilərin ciddi və mürəkkəb işlərinə.

2) Aşağı xalq məhkəmələri tərəfindən birinci instansiya kimi baxılması üçün verilmiş işlərə baxmaq.

3) Aşağı xalq məhkəmələrinin hökm, qətnamə və qərardadlarından verilmiş şikayət və protestlərə baxmaq.

Orta dərəcəli yerli xalq məhkəmələri icraatlarında olan cinayət və ya mülki işin mühümlüyünü nəzərə alıb ona yüksək dərəcəli yerli xalq məhkəməsində baxılmasını məqsədəmüvafiq hesab edərsə, yüksək dərəcəli yerli xalq məhkəməsindən bunu xahiş edib işi həmin məhkəməyə verə bilər.

Qeyd olunanlardan əlavə orta dərəcəli yerli xalq məhkəmələri öz ərazilərində aşağı xalq məhkəmələrinin məhkəmə fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Səhvlər aşkar edildikdə qanuni qüvvəyə minmiş hökm, qətnamə və ya qərardada yenidən baxılır və ya iş müvafiq göstərişlərlə yenidən baxılması üçün aşağı məhkəməyə göndərilir.

Yüksək dərəcəli yerli xalq məhkəmələri - əyalətlərin, muxtar vilayətlərin, mərkəzi tabelikdə olan şəhərlərin məhkəmələridir. ÇXR-da 31 yüksək dərəcəli xalq məhkəməsi fəaliyyət göstərir. Onlar sədr, sədrin müavinləri, palata sədrləri, onların müavinləri və hakimlərdən ibarət tərkibdə yaradılır. Yüksək dərəcəli yerli xalq məhkəmələrinin tərkibində cinayət işləri üzrə palata, mülki işlər üzrə palata, təsərrüfat işləri üzrə palata, zəruri hallarda digər palatalar da yaradılır.

Yüksək dərəcəli yerli xalq məhkəmələri aşağıdakı kateqoriyadan olan işlərə baxır:

birinci instansiya məhkəməsi kimi qanunlar və qərarlar əsasında yüksək dərəcəli yerli xalq məhkəmələrinin yurisdiksiyasına aid edilmiş işlərə;

aşağı xalq məhkəmələri tərəfindən birinci instansiya kimi baxılması üçün verilmiş işlərə;

aşağı xalq məhkəmələrinin qətnamə və qərardadlarından şikayət və protest verilmiş işlərə;

xalq prokurorluğunun nəzarət qaydasında protest verdiyi işlərə.

Yüksək dərəcəli yerli xalq məhkəmələri orta dərəcəli xalq məhkəmələri tərəfindən çıxarılmış, məhkumlar tərəfindən şikayət verilməmiş ölüm cəzası ilə əlaqədar hökmləri yoxlamaq səlahiyyətinə də malikdir. Bu cür yoxlama zamanı yüksək dərəcəli yerli xalq məhkəmələri hökmü dəyişmədən qüvvəsində saxlaya, onu Ali Xalq Məhkəməsinin təsdiqinə göndərə, işə yenidən baxa və ya onu aşağı məhkəməyə yeni baxışa göndərə bilər.

Yüksək dərəcəli yerli xalq məhkəmələri, həmçinin orta dərəcəli xalq məhkəmələri tərəfindən çıxarılmış, lakin iki il təxirə salınmış ölüm cəzası ilə bağlı olan hökmləri də yoxlaya bilər.

Yüksək dərəcəli yerli xalq məhkəmələri, eyni zamanda Ali Xalq Məhkəməsinin səlahiyyətləndirməsi ilə ölüm hökmü ilə əlaqədar ayrı-ayrı işləri təsdiq edə bilər.

Qeyd olunanlardan əlavə yüksək dərəcəli yerli xalq məhkəmələri öz ərazilərində aşağı xalq məhkəmələrinin məhkəmə fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Səhvlər aşkar edildikdə qanuni qüvvəyə minmiş hökm, qətnamə və ya qərardada yenidən baxır və ya iş müvafiq göstərişlərlə yenidən baxılması üçün aşağı məhkəməyə göndərir.

Yuxarı xalq məhkəmələri aşağı xalq məhkəmələrinin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Yerli xalq məhkəmələri yerli dövlət hakimiyyət orqanları qarşısında cavabdehlik daşıyır.

Bütün xalq məhkəmələrində məhkəmə komitələri yaradılır. Onların vəzifəsi məhkəmə təcrübəsinin ümumiləşdirilməsi, məhkəmənin işinə aid mühüm və mürəkkəb işlərin, məsələlərin müzakirə etməkdən ibarətdir. Məhkəmə komitəsində məhkəmənin sədri sədrlik edir, müvafiq məhkəmə mərhələsində həmin mərhələyə aid xalq prokuroru məşvərətçi səs hüququ ilə iştirak edə bilər.

İxtisaslaşdırılmış xalq məhkəmələrinin təşkili və vəzifələrini Ümumçin Xalq Nümayəndələri Yığıncağının (ÜXNY) Daimi Komitəsi (DK) müəyyən edir. Onlar zərurilik prinsipinə müvafiq olaraq yaradılır. Hazırda Çində ixtisaslaşdırılmış məhkəmə kimi hərbi məhkəmələr, dəniz işləri üzrə məhkəmələr, dəmiryol nəqliyyatı məhkəmələri fəaliyyət göstərir.

Hərbi məhkəmələrin üç pilləsi vardır: aşağı hərbi məhkəmələr, orta dərəcəli hərbi məhkəmələr və yüksək dərəcəli hərbi məhkəmələr. Orta dərəcəli hərbi məhkəmələr hərbi dairələrdə və qoşun növü üzrə yaradılır.

Yüksək dərəcəli hərbi məhkəmə silahlı qüvvələrdə yüksək məhkəmə instansiyasıdır. Onun səlahiyyətlərinə:

diviziya komandiri və daha yüksək vəzifəli hərbiçilər tərəfindən törədilmiş cinayətlərlə əlaqədar işlərə birinci instansiya məhkəməsi kimi baxmaq;

-xaricilərlə əlaqədar cinayət işlərinə baxmaq;

-Ali Xalq Məhkəməsinin səlahiyyət verdiyi və ya onun tapşırığı ilə və yaxud hərbi məhkəmələrin birinci instansiya kimi baxmasını məqsədəmüvafiq hesab etdiyi işlərə baxmaq;

-ölüm hökmünün çıxarılması ilə əlaqədar işlər üzrə məhkəmə aktlarına yenidən baxmaq və təsdiq etmək.

Konstitusiyanın 67-ci maddəsinin 11-ci bəndində müəyyən edilmişdir ki, hərbi məhkəmənin sədrləri Ali Xalq Məhkəməsi sədrinin təqdimatına əsasən ÜXNY-nın DK işə təyin və işdən azad edir.

Dəniz işləri üzrə məhkəmələr – dəniz hüququ sahəsində yurisdiksiyanı həyata keçirən və xüsusi olaraq dəniz işlərinə və ticarət gəmiçiliyi ilə əlaqədar işlərə baxmaq üçün yaradılmış ixtisaslaşdırılmış xalq məhkəmələridir. 1989-cu ilin may ayında Ali Xalq məhkəməsi Dəniz məhkəmələrinin səlahiyyətləri haqqında Əsasnamə qəbul etmişdir. Əsasnamə 5 bölmə və 14 fəsildən ibarətdir. Əsasnaməyə müvafiq olaraq dəniz məhkəmələri hüquqi şəxslərlə Çin vətəndaşları arasında, Çin hüquqi şəxsləri və vətəndaşları ilə xarici dövlətlərin hüquqi şəxsləri və vətəndaşları arasında, xarici ölkələrin hüquqi şəxsləri ilə vətəndaşları arasında dəniz işləri və ticarət gəmişiliyi ilə əlaqədar işlərə baxa bilər. ÇXR-də dəniz məhkəmələrinin yalnız bir səviyyəsi fəaliyyət göstərir. Onlar orta dərəcəli xalq məhkəmələrinə bərabər tutulur. Tərəflər bu məhkəmənin qərarlarından razı qalmadıqda şikayətlə yüksək dərəcəli xalq məhkəmələrinə müraciət edə bilər. Ölkə ərazisində 10 – Xaykou, Quançjou, Beyxoy, Syamen, Ninbo, Şanxay, Tsindao, Dalyan, Tsyantszin, Uxan dəniz məhkəməsi fəaliyyət göstərir. Onlardan yalnız biri çay üzərində, qalanları dəniz kənarındakı ərazidə yerləşir.

Dəmir yol nəqliyyatı məhkəmələri dəmir yolları boyunca yaradılmış ixtisaslaşdırılmış məhkəmələrdir. Bu məhkəmələrdə baxılan işlərin əsas istiqaməti dəmir yolu xətləri boyunca törədilmiş cinayətlərlə əlaqədar dəmir yolu prokurorluğu tərəfindən qaldırılmış cinayət işləridir. Dəmir yol nəqliyyatı məhkəmələri həmçinin on iki kateqoriyadan olan dəmir yolu daşımaları və dəmir yolu ilə bağlı digər iqtisadi mübahisələrə də baxırlar.

Əqli mülkiyyət üzrə məhkəmələr Pekin, Şanxay, Quançjouda yaradılmışdır. Onlar orta dərəcəli xalq məhkəmələrinə bərabər tutulur. Səlahiyyətlərinə əqli mülkiyyətlə əlaqədar məhkəmə işlərinə baxmaq daxildir.

Ali Xalq Məhkəməsi Pekin şəhərində yerləşir və ali dövlət məhkəmə orqanıdır, qanuna müvafiq olaraq dövlətdə yüksək məhkəmə funksiyasını yerinə yetirir, eyni zamanda müxtəlif dərəcəli yerli xalq məhkəmələri və ixtisaslaşdırılmış xalq məhkəmələrinin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Ali Xalq Məhkəməsi sədr, sədrin müavinləri, palata sədrləri, onların müavinləri və hakimlərdən ibarət tərkibdə yaradılır. Ali Xalq Məhkəməsində aşağıdakılar yaradılır: cinayət işləri üzrə palata, mülki işlər üzrə palata, təsərrüfat işləri üzrə palata, zəruri hallarda digər palatalar da yaradılır.

Ali Xalq Məhkəməsi aşağıdakı səlahiyyətləri həyata keçirir:

Qanun əsasında birinci instansiya məhkəməsi kimi Ali Xalq Məhkəməsinin yurisdiksiyasına aid edilmiş və Ali Xalq Məhkəməsi tərəfindən birinci instansiya məhkəməsi kimi baxılması qərara alınmış işlərə baxır. Cinayət prosessual və mülki prosessual məcəllələrə müvafiq olaraq Ali Xalq Məhkəməsi xüsusi ilə mühüm, ümumdövlət əhəmiyyətli işlərə birinci instansiya məhkəməsi kimi baxır.

Yüksək dərəcəli yerli xalq məhkəmələri və ixtisaslaşdırılmış məhkəmələrin qətnamə və qərardadlarından şikayət və protest verilmiş işlərə baxır.

Ali Xalq Prokurorluğunun nəzarət qaydasında protest verdiyi işlərə baxır.

Ölüm hökmlərini təsdiq edir.

Ali Xalq Məhkəməsi hüququ şərh edir, məhkəmə icraatı zamanı qanun və fərmanların konkret tətbiqi məsələləri ilə əlaqədar rəhbər göstərişlər verir.

Bütün ölkə ərazisində müxtəlif dərəcəli xalq məhkəmələrinin inzibati-hüquqi fəaliyyəti ilə əlaqədar rəhbərliyi və işlərin idarə olunmasını həyata keçirir.

Yüksək məhkəmə orqanı kimi Ali Xalq Məhkəməsi yerli və ixtisaslaşdırılmış xalq məhkəmələrinin fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Səhvlər aşkar edildikdə qanuni qüvvəyə minmiş hökm, qətnamə və ya qərardada yenidən baxır və ya işi müvafiq göstərişlərlə yenidən baxılması üçün aşağı məhkəmələrə göndərir.

Ali Xalq Məhkəməsi Ümumçin Xalq Nümayəndələrinin Yığıncağı və onun Daimi Komitəsi qaşısında cavabdehlik daşıyır.

**16 sentyabr 2017-ci il**

**5.Tyananmen – dünyanın ən böyük şəhər meydanı**

Sentyabr ayının 16 və 17-də, yəni şənbə və bazar günləri biz Çinin mədəni abidələri ilə tanışlığa başladıq. Hələlik bu yazıda sizinlə Tyananmen meydanı, Çin Milli Muzeyi, İmperator sarayı və Böyük Çin Səddi ilə bağlı təsüratları bölüşmək istəyirəm.

Tyananmen dünyada ən böyük əraziyə malik olan şəhər meydandır. Onun ərazisi 440 min kv. metrdir (880 x 500). Tyananmen meydanında bayramlar və xüsusi tədbirlər keçiriləndə eyni zamanda bir milyon adam toplana bilir. Meydanda olarkən Tyananmen tribunasına qalxmaq mümkündür. Hər gün səhər gün doğanda meydanda Çin Xalq Respublikasının bayrağının qaldırılması, gün batanda isə bayrağın endirilməsi mərasimi keçirilir. Tyananmen meydanında, həmçinin Xalq qəhrəmanlarının abidəsi, Çin milli muzeyi, Mao Tszedunun mavzoleyi yerləşir. Meydandan şimalda Qapalı şəhər, cənubda Səma məbədi qərarlaşmışdır. Xalq Məclisi Evi və müasir tipli Böyük Milli opera teatrı da Tyananmen meydanı ilə sanki qovuşur. Tyananmen meydanı ənənvi olaraq çin millətinin simvolik ürəyi adlanır.

Keçmişdə Tyananmen meydanında qapılar tikilmişdi. Onlar faktiki olaraq Pekinin əsasını qoymuş Min sülaləsindən olan imperator Çju Dinin dövründə tikilmişdi. Həmin qapılar İmperator sarayına cənub giriş qapıları hesab olunurdu. Qapılar qala divarlarına birləşdirilmədiyinə görə təntənəli mərasimlərdə istifadə üçün nəzərdə tutulmuşdu. Əvvəllər həmin qapılar “Minin böyük qapıları” adlanırdı. 1644-cü ildə Tsin sülalısi hökmranlığa gələndən sonra onlar “Böyük Tsin qapıları” adlanmağa başlandı. Tsin imperiyası süquta uğradıqdan sonra isə onlar “Çin qapıları” adını aldı. Hazırda həmin qapıları “millətin qapıları kimi də xatırlayırlar. 1954-cü ildə həmin qapılar sökülmüş, hazırda onların yerində Mao Tszedunun mavzoleyi yerləşir.

1958-ci ildə Çin Xalq Respublikasının yaradılmasının on illiyinə hazırlıqla əlaqədar Tyananmen meydanının genişmiqyaslı yenidənqurulmasına başlanıldı. Meydandakı bəzi tikililər söküldü. O zamanlar meydanın cənub tərəfində Xalq qəhrəmanları abidəsini ucaltdılar. ÇXR-nın on illiyui münasibəti ilə meydanın kənarlarında on böyük bina tikildi. Onlardan Xalq Məclisi Evi (meydanın qərb tərəfində) və İnqilab Tarixi muzeyi (hazırda – ÇXR-nın Milli muzeyi) şərq tərəfdə. Mao Tszedunun düşüncələrinə görə ərazisi genişləndirilmiş kvadrat şəkilli meydanda 500 min adam yerləşməli idi. 1976-cı ildə Mao Tszedunun ölümündən sonra “Millətin qapıları”nın söküldüyü yerdə

mavzoleyin tikintisinə başlanıldı. O, Pekinin mərkəzi oxu üzərində – Şimal-cənub hissədə tikildi. Meydan yenidən genişləndirilərək düzbucqlı formasını aldı. Hazırda meydan 600 min nəfər tutumlu hesab edilsə də, bəzi məlumatlara görə meydana bir milyon aqədər adamın yerləşməsi mümkündür.

Tyananmen meydanının şimal tərəfində onun şimaldan cənuba gedən xətt boyu mərkəzi hissəsində Tyananmen tribunası yerləşir. Bu tribuna 1415-1420-ci illərdə tikilmiş, Min sülaləsinin (1368-1644) və Tsin sülaləsinin (1644-1912) hökmranlığı dövründə imperator sarayının əsas qapıları olmuşdur. İlk vaxtlar həmin qapılar Chengtianmen (Səma sakitliyi qapıları) adlanmışdır. Bu ad həmin qapılardan keçən imperatorun Səma ilə əlaqəsinə işarə edirdi. O zamankı anlama görə imperator Səmanın yerdəki nümayəndəsi idi. Shunzhi imperatorunun hökmranlığının 1652-ci ilə təsadüf edən səkkizinci ilində həmin qapılar yenidən qurularaq Tyananmen (Tiananmen) adlandırılmışdır. Bu söz birləşməsi "səma dünyasının qapıları" kimi tərcümə olunur. Tyananmen qapılarının beş keçidi vardır. Qapılar yenidən qurulduğu vaxtdan imperator və onun ailə üzvləri, saray əyanları mühüm hadisələr zamanı bu qapılardan istifadə edirdilər. Lakin mərkəzi qapıdan yalnız imperator keçir, ailə üzvləri və saray əyanları isə kənar qapılardan istifadə edirdilər. Tyananmen tribunası adlanan hissədə qapıların hündürlüyü 34,7 metrdir. O günəş işığının altında daha əzəmətli görünür. Bu tribuna sarı dam örtüyü, tünd qırmızı divar və sütunlara malikdir. 1 oktyabr 1949-cu ildə Mao Tszedun Tyananmen tribunasından Çin Xalq Respublikasını elan etmişdir.

Tyananmen meydanının qarşısında qızıl qapı körpüsü ağ Xuabyao, üzəri əjdahaların yonulmuş heykəlləri ilə bəzədilmiş bir cüt ağ mərmərdən hazırlanmış dekorativ sütun yerləşir. Onları bəzən "şikayətlər üçün sütun" da adlandırırlar. Çünki qədim zamanlarda insanlar bura gəlib özlərinin şikayət və təkliflərinin imperatora çatdırılması üçün həmin yerdə qoyurdular. Burada həmçinin bir cüt daşdan hazırlanmış şir heykəlləri də vardır.

Hazırda Tyananmen qapılarını Tyananmen meydanından Pekinin mərkəzi Çanan prospekti ayırır. Burada müxtəlif hökumət müəssisə və idarələri yerləşir. "Çanan" hərfi mənada "əbədi sakitlik" anlamını verir. Bundan əlavə Çanan dəfələrlə Çin tarixində imperiyanın paytaxtı olmuş şəhərin (indiki Sian) şəhərinin adıdır.

Meydanla bağlı verilən maraqlı məlumatlara, həmçinin 2011-ci ilin yanvarında meydanda Konfutsinin 8 metrlik heykəlinin ucaldılmasına baxmayaraq, qeyri-müəyyən səbəblərdən 22 aprel 2011-ci ilə keçən gecə heykəlin yerindən götürülməsini, 1989-cu ilin iyununda meydanda kütləvi etirazların qəddarlıqla boğulmasını da aid etmək olar.

Xalq qəhrəmanları abidəsi

Bu abidənin yaradılması ideyası ÇXR yradılmasından dərhal sonra meydana çıxmışdı. Abidə ilə bağlı tikinti işləri 1952-ci ildən 1958-ci ilə kimi davam etmişdir. Abidə ölçülərinə görə adamı valeh edir. 38 metr hühdürlüyü, 10 min ton ağırlığı olan 17 min mərmər və qranit blokdan ibarət olan abidənin sahəsi 3 min kv. metrdir. Abidə Birinci opium müharibəsindən başlamış ÇXR yaranan dövrə qədər çin xalqının mübarizənin simvolu kimi dəyərlədirilir. Saat əqrəbi istiqamətində səkkiz barelyef yerləşdirilməklə hər birinin üzərində çin inqilabı tarixinin aşağıdakı mühüm hadisələri qabarıq oyma naxışlarla təsvir olunmuşdur:

1.Birinci Opium müharibəsi zamanı opiumun yandırılması (1840-cı il);
2.Taypinlərin üsyanı zamanı Tszintyan kəndində üsyan (1851-ci il);
3.Sinxay inqilabı zamanı inqilabı zamanı Uçan üsyanı (1911-ci il);
4. 4 may hərəkatı (1919-cu il);
5.30 may hərəkatı(1925-ci il);
6.Nançan üsyanı(1927-ci il);
7.Yaponlara qarşı müharibə (1931-1945-ci illlər);
8.Yantszı üzərindən keçid(1949-cu il).

Mao Tszedunun mavzoleyi (xatirə evi)

Tyananmen meydanını cənub hissəsində Xalq qəhrəmanları abidəsindən cənubda Mao Tszedunun mavzoleyi yerləşir. Mavzoley 1976-1977-ci illərdə tikilmişdir. Bu nəhəng kompleksin sahəsi

20000 kv. metr olmaqla on zal və otaqları vardır. Çjanyantin zalında əsası qara qranitdən olan xrustal sarkofaqda sədr Mao Tszedunun nəşi uyuyur.

**16 sentyabr 2017 - ci il**

**6.Çin Milli Muzeyi – minilliklərin yadigarları**

Çin Milli muzeyi Pekin şəhərində Tyananmen meydanının şərq tərəfində yerləşir, ÇXR Mədəniyyət Nazirliyinin tabeliyindədir. Muzeyin əsas məqsədi Çin incəsənəti və tarixini qorumaq və populyarlaşdırmaqdır. Bura dünyanın ən çox baş çəkilən və Çinin ən böyük muzeyidir. Muzeyin ərazisi 70000 kv metr uzunluğu 313 metr, eni149 metr, hündürlüyü 40 metr olmaqla 4 mərtəbədə yerləşir. Muzeyin fasadını 11 sütun bəzəyir. Muzeydə Çinin tarixinə dair ən qədim zamanlardan bizim dövrümüzə qədərki vaxtı əhatə edən unikal muzey kolleksiyasə qorunur. Əvvəllər həmin muzey iki müstəqil muzeydən ibarət olmuş, biri Çin inqilabı muzeyi, digəri isə Çin tarixi milli muzeyi adlanmışdır. Onlar 1959-cu ildə ÇXR-nın yaradılmasının on illik yubileyində açılmış, 2003-cü ildə isə vahid muzeydə birləşib Çin Milli muzeyi adlanmağa başlamışdır.

Muzeydə dövlətin 5000 ildən artıq tarixini əhatə edən 620 min qiymətli eksponat mühafizə olunur. Ayrı-ayrı eksponatlar, məsələn 1,7 milyon yaşı olan yuanmou insan tarixəqədərki dövrə aiddir. Muzeyin mühüm eksponatları içərisində aşağıdakıları qeyd etmək olar: 3000 il yaşı və 833 kq çəkisi olan olan qurban mərasimi üçün nəzərdə tutulan üçayaqlı Din (Şan sülaləsi) və dünyada ən iri antik tunc məmulat, dörq qoyun başı təsviri ilə bəzədilmiş çaxır üçün kvadrat bürünc qab (Şan sülaləsi), pələng şəklində qızıl suyuna çəkilmiş tunc yarlıq (Tsin sülaləsi), 2000 il yaşı olan qızıl tesmalı nifrit dəfn geyimi (Xan sülaləsi), üçrəngli sankayların geniş kolleksiyası( Tan sülaləsi) və keramika məmulatları (Sun sülaləsi), nazik təbəqəli Çin farforları kolleksiyası.

Çin Milli Muzeyinin kolleksiyalarında həqiqətən də əsrlərlə tarixə, misli olmayan dəyərə malik eksponatlar vardır. Məsələn, Şan sülaləsinin hökmranlıq dövrünə aid qurbanlıq ayinləri üşün nəzərdə tutulmuş üçayaqlı Din məhz burada nümayiş etdirilir, onun 3000 ilə qədər yaşı, 830 kq çəkisi vardır, qədim tunc məmulatlarından ən ağırıdır.

Muzeydə nümayiş etdirilən Şan sülaləsinin hökmranlıq dövrünə aid digər əvəzolunmaz eksponat dörd tərəfdən qoyun başı təsviri ilə bəzədilmiş çaxır üçün kvadrat bürünc qab da qədim tunc məmulatları eksponatına aiddir. Qab 58 sm hüdürlüyündə olmaqla 34 kq çəkiyə malikdir. Təxminən 3300 il bundan əvvəl tökmə üsulu ilə hazırlanmışdır.

Muzeyin daha çox tanınmış eksponatlarından biri də, Nefrit prinsdir. O, özündə çox gözəl mühafizə olunmuş geyimi təmsil edir, cilalanmış nifrit fraqmentlərini biri biri ilə qızıl saplarla birləşməsindən ibarətdir. Geyim Xebey əyalətində XX əsrin ortalarında tapılmışdır. İlkin olaraq arxeolaqlar bizim eradan əvvəl İİ əsrdə dəfn olunmuş prins Çjunşan və onun arvadı Dou Vanı cilalanmış nifrit fraqmentlərinin biri-biri ilə qızıl saplarla birləşməsindən ibarət geyimdə aşkar etmişlər. Bu eksponat Çinin milli mədəni irsi olduğundan hal-hazıra kimi tədqiqatçılar tərəfindən fəal surətdə öyrənilir.

Min illərlə əvvləl həmin paltarda prins (şahzadə) Çjunşan arvadı ilə birlikdə həmin paltarda dəfn olunmuşdur.

Terrakot ordusu əsgərlərinə də Çin Milli muzeyində yer ayrılmışdır. Onlara yalnız burada və ya Sianda imperator Tsin Şixundinin məqbərəsində baxmaq olar. Çin Milli Muzeyi Terrakot ordusu əsgərlərini onların “vətəni”ndən kənarda görmək üçün ən yaxşı imkandır. Əlbəttə Milli muzeydə əsgərlərin bir neçə fiquru nümayiş etdirilir və bu Siandakı səkkiz min fiqurla müqayisə oluna bilməz. Lakin bu Terrakot ordusu əsgərlərini görməməkdən daha yaxşıdır.

Muzeyin daimi sərgilərindən biri “Dirçəlişə yol “adlanır. Onda 1840-cı il Opium müharibəsinin gedişi, ondan sonra yarımimperiya və yarımfeodal cəmiyyətin süqutu, əhalinin bütün zərərçəkmiş təbəqələrinin xalq etirazı, milli dirçəlişə çoxsaylı cəhdlər, xüsusən Çin Kommunist Partiyasının xalqın hüquqları və etnik müstəqilliyi uğrunda mübarizəsi əks olunmuşdur. Sərgi milli çiçəklənməyə nail olmağın uzun yolunu, xalqın necə marksizm, kommunizm, sosializm mərhələlərini keçməsini parlaq şəkildə nümayiş etdirir, islahatlar və “ açıq qapı siyasətindən” söhbət açır.

Milli muzeyin başqa bir daimi sərgisi “Qədim Çin” adlanır. Sərgi nümayişçilərə dəyərli mədəni eksponatları təqdim etməklə Çinin qədim tarixinin tarixəqədərki vaxtlardan başlamış, Tsin sülaləsinin

axırıncı imperatorunun hökmranlığının sonuna kimi olan uzun tarixinin tam təsvirini yaradır, Çin sivilizasiyasının həyati gücü və fasiləsiz inkişafını hərtərəfli göstərir Sərginin ekspozisiyasına 2500-dən artıq predmet daxildir, onlardan çoxu müqəddəs mədəni əşyalar hesab olunur.

Muzeyin hədsiz - hesabsız kolleksiya və eksponatları Çin mədəniyyəti və tarixinin dərinliklərinə varmağa, ən başlanğıc dövrlərdən müasir günlərə qədər olan Çin tarixi ilə tanış olmağa imkan verir. Çin Milli muzeyinin başlıca təyinatı da elə bundan – ölkənin mühüm mədəni və tarixi sərvətlərini qorumaq və onlar haqqında daha çox məlumat almaqda insanlara kömək etməkdən ibarətdir.

**16 sentyabr 2017-ci il**

**7.İmperator sarayı – tünd qırmızı və sarı rənglər səltənətində**

İmperator sarayının Çin dilində adı "Sziszinçen" – al-qırmızı (pur-pur) qapalı şəhərdir. Əsrlər ərzisində İmperator sarayının ərazisində ancaq imperator və onun ailə üzvləri yaşadığına görə saray "Qapalı şəhər" adını almışdır. Sonralar saray "Ququn" - "Keçmiş hökmdarlar sarayı" adlanmağa başlamışdır. Sarayı tez - tez İmperator sarayı, yaxud imperator əsasən qış vaxtlarında burada yaşadığından "Qış imperator sarayı" adlandırırlar. Saray Pekin şəhərinin mərkəzində, Tyananmen meydanından bir qədər aralıda yerləşir .

Ququn Sarayını Min sülaləsinin imperatoru Yunle devizi ilə hökmranlıq edən Çju Di öz hakimiyyətinin dördüncü ilindən -1406-cı ildən 1420-ci ilədək 14 il müddətində tikmişdir. Saray daimi yanğınlar nəticəsində dağıntılara məruz qalmış, ona görə bəzi hissələri yenidən tikilmişdir. Sarayın əsas hissəsi 17-19-cu əsrlərə aiddir.

Saray tikildiyi 1420-ci ildən sonuncu Çin imperatorunun taxtdan salındığı 1911-ci ilə kimi, yəni 491 il ərzində burada Min sülaləsindən 14, Tsin sülaləsindən isə 10, cəmi 24 imperator hökmranlıq etmişdir. Çinin sonuncu imperatoru Pu İ 1911-ci ildə Sinxay inqilabı nəticəsində taxtdan salındı. O, Ququn sarayını yalnız 1925-ci ildə tərk etdi.

Ququn Saray hər tərəfdən dördkünc qüllələrə malik olan 10 metr hündürlüyündə şəhər divarları ilə əhatə olunmuşdur, divar boyunca eni 52 metrə çatan su ilə doldurulmuş kanal (enli xəndək) qazılmışdır. Qapalı şəhərin eni şərqdən qərbə 760 metr, cənubdan şimala isə 960 metrdir. Şəhər 780 min kv. metr ərazini əhatə etsə də, faydalı sahəsi 150 min kv. metrdir.

Qapalı şəhərin divarlarında dörd qapı vardır. Birbaşa cənuba açılan qapı Umen adlanır. Umen əsas giriş qapısı hesab olunur, onun qülləsində zəng və baraban yerləşir. Zəng və barabanla imperatorun gəzintiyə çıxması, məbədə dua etməyə getməsi və sair barədə məlumat verilərdi. Şimal qapısı Şenumen, şərq qapısı Dunxuanmen, qərb qapısı isə Sixuamen adlanır.

Ququn sarayı Çinin ən böyük memarlıq-bədii muzeyi olmaqla orta əsrlər dövrünün nəhəng və bitkin memarlıq abidəsidir. Təkcə, buradakı tikililər Çinin tarixi mədəni nailiyyəti kimi qiymətlədirilir. Çin memarlığının ənənəvi formalarını qorumaqla saray özündə forma möhtəşəmliyi, təkmil memarlığı və yerləşmənin ciddi qaydasını birləşdirmiş, dünyanın ən parlaq memarlıq abidələrindən birinə çevrilmiş, Çinin çoxəsrlik mədəniyyətinin incisinə çevrilmişdir.

Qədim çinlilər üçün Çin mədəniyyətinin məğzi "usin" nəzəriyyəsində öz əksini tapmışdır. Bu nəzəriyyəyə görə beş predmet: metal, ağac, su, od və torpaq müqəddəsdir və onlara hörmət bəslənilməlidir. Cənub oda aiddir, od isə həyat, yəni "yan" (Günəş) doğurur, və ölkəni məhz buradan idarə etmək lazımdır. Şimal isə suya aiddir, su isə "in" (Ay) doğurduğundan şimal hissədə yaşamağa üstünlük verilir. Ona görə də, Ququn sarayının cənub hissəsində inzibati bina, şimalda isə yaşamaq üçün nəzərdə tutulan iqamətgah inşa olunmuşdur. "Usin" nəzəriyyəsinə müvafiq olaraq torpaq sarı predmetdir və dövlətçilik rəmzidir, məhz buna görə Ququnun bütün dam örtükləri sarı rəngdədir. Çinlilərin nəzəriyyəsinə əsasən, od torpaq doğurduğuna görə Ququnda saray dirəkləri qırmızı rəngdədir. Sarı və qırmızının təması isə ümumi rifah bildirir. "Usin" nəzəriyyəsinin qədim Çin memarlığında mühüm əhəmiyyət kəsb edən təsiri Ququn sarayının bütün tikililərində öz ifadəsini tapır.

Qapalı şəhər iki əsas hissədən ibarətdir: xarici pavilyonlar və daxili iqamətgahlar. *Ququnla tanışlığa bir qayda olaraq Umen qapısından başlanır.* Saraya əsas Umen qapılarından daxil olanda hər şeydən əvvəl meydanla kəsişən Neytszinşuyhe kanalı (" Qızıl sulu daxili çay") gözə çarpır. Onun üzərində beş mərmər körpü salınmışdır. Kanalın sahili də ağ mərmərlə üzlənmişdir.

Körpülərdən şimalda əsas saray qapısı Tayxemen(“Ali harmoniya qapısı”) yerləşir. Ondan sonra daha bir geniç həyət mövcuddur. Həyətin mərkəzindən şimal tərəfdə 8 metr hündürlüyü olan nəhəng podstament üzərində biri-birinin ardınca Tayxedyan (Ali Harmoniya), Çjunxedyan (Mükəmməl Harmoniya) və Baoxedyan (Harmoniyanın Qorunması) pavilyonları yerləşir. Bu üç

saray imperatorun yüksək nüfuzunun təmsilçisi olmaqla onun təntənəli mərasimlərinin keçirilməsinə xidmət edirdi. Təsadüfi deyildir ki, hər üç sarayın adında “dünya” və “harmoniya” mənasını verən “xe” ieroqolif i vardır.

Konfutsinin təliminə görə “xe” ieroqolifi dünyada ümumi harmoniyanı əks etdirir. Ümumi harmoniya ideyasına görə boqdıxanın (imperatorun) möhtəşəmliyi, böyüklüyü ilə və sadə insanların vəziyyəti arasında böyük fərqin mövcud olmasına baxmayaraq, imperator da, sadə insanlar da bir Yerdə yaşayır, bir Səma altındadır. Ona görə mənəvi cəhətdən onlar arasında tarazlıq mövcud olmalıdır.

Tayxedyan pavilyonu rəsmi saray qəbuluna xidmət edirdi. O Sarayın ən böyük tikilisidir. Hündürlüyü 35,5 metr, eni 63, 96 metr, eni 37,2 metr, sahəsi 2300 kv. metrdən artıqdır. Pavilyonun damını eni bir metr olan 86 ağac dirək saxlayır, onlardan altısı taxtı əhatə edir, qızılla üzlənmiş oyma naxışlı, qıvrılmış əjdaha təsvirləri ilə bəzədilmişdir. Taxtın qarşısında müvəffəqiyyət rəmzi olan bürünc durnalar qoyulmuşdur. Tayxedyan pavilyonuna girişi hakimiyyətin qüdrətini ifadə edən bürünc şirlər mühafizə edir. Tayxedyan pavilyonunda imperatorun ad günü, taxta çıxdığı gün qeyd olunur, pavilyonda imperator mühüm fərmanları elan edir, Dövlət bayramları və təntənəli günlərdə təbrikləri qəbul edir və qonaqlıq verirdi. Pavilyonda, həmçinin imperator ekspedisiya qoşunlarının rəislərini təyin edir, dövlət imtahanlarında iştirak edirdi.

Tayxedyan sarayının qarşısında yerləşən və tamamilə boş olan meydanın sahəsi 30.000 kv. metrdir. Saray mərasimləri zamanı meydanda sıra ilə silahlı mühafizəçilər düzülər və təhlükəsizliyi təmin edərdilər. İmperator daxili iqamətgahdan çıxanda baraban çalınması və zəng vurulması başlanır, orkestr çalır, ətirli tüstü qalxırdı, adətən səndəl ağacı və şam ağacı budaqları yandırılırdı. İmperator taxta qalxır, mülki və hərbi əyanlar isə subardinasiya qaydasında dizləri üstə öz hökmdarlarına baş əyirdilər. Ətrafda düzülmüş fanar formalı iri peçlərdə yandırılan ətirli ağac və bitkilərin iyi həyətə yayılmaqla mərasimlərin və imperatorun əhatəsindəki sehri daha da artırırdı.

Çjunxedyan pavilyonu Min sülaləsi dövründə tikilmiş və əvvəllər Xuaqaydyan və Çjuntszidyan adlanırdı. 1965-ci ildə Tsin sülaləsi dövründə pavilyon yenidən quruldu və Tayxedyan adlanmağa başlandı. Pavilyon sarayda keçirilən mərasimlərdən qabaq imperatorun istirahəti üçün nəzərdə tutulmuşdu. Burada mərasim və ayinlərin məşqi keçirilir, imperator Səma məbədi (21 iyun) və Torpaq məbədinə (22 noyabr) duaya getməmişdən əvvəl, duaların mətnləri ilə tanış olurdu. Hər il yeni il ərəfəsində pavilyonda qonaqlıqlar təşkil olunurdu.

Baoxedyan pavilyonu 1420-ci ildə tikilmiş, 1625-ci ildə yenidən qurulmuşdur. Pavilyon pirlər üçün qurulmuşdur. Tsin sülaləsinin hökmranlığı zamanı imperator hər il 1 yanvar və 15 yanvarda monqol və uyqur knyazlarını pavilyona banketə dəvət edirdi. Pavilyonda 70 stol bəzədilir, 63 qoyun kəsilir və 70 butulka çaxır açılırdı. Bu qonaqlıqlar zamanı müsiqiçilər monqol xalq müsiqisi və mahnılarını ifa edirdilər. İmperator Yunçjenin hökmranlıq etdiyi 1723-cü ildən pavilyon dövlət imtahanlarının qəbulu mərkəzinə çevrildi.

Sarayda mərkəzi xətt üzrə Tsyantsiqun (“Səma təmizliyi sarayı”), Tszyaotaydyan(“ Səma və Yerin Təması sarayı”), Kunninqun (“Yer rahatlığı sarayı”) sarayları düzülmüşdür. Onların hər iki tərəfində altı şərq və altı qərb sarayları yerləşir.

Tsyantsiqun sarayı 1797-ci ildə Min sülaləsinin hökmranlığı zamanı tikilmişdir. Burada imperator gündəlik dövlət işləri ilə məşğul olmuşdur. Tsin sülasəsinin hökmranlığının sonlarına yaxın bu sarayda xarici ölkələrin diplomatik missiyalarının rəhbərləri qəbul edilirdi.

Tszyaotaydyan sarayı Min sülaləsinin hökmranlığı zamanı 1697-ci ildə tikilmişdir. Burada təntənəli ailə mərasimləri icra olunurdu. Min və Tsin sülalələrinin hökmranlığı dövründə imperatrisaların ad günləri də bu sarayda qeyd olunurdu. Bu saray həm də su ilə işləyən su saatı ilə tanınır.

Kunninqun sarayı Min sülaləsinin hökmranlığı dövründə tikilmiş, 1655-ci ildə yenidən qurulmuşdur. Tsin sülaləsini hökmranlığı dövründə bu saray təyinatı üzrə yalnız imperatorun toyunun keçirilməsi üçün istifadə olunurdu. Toyla əlaqədar burada müəyyən dini mərasimlər keçirilirdi. Toy mərasimindən sonra imperatrisa burada üç gün yaşamalı idi. Min sülaləsi dövründə imperatriçələrin

yataq otaqları da burada idi. Sarayın hər iki tərəfində yerləşən altı bina imperatorun kənizləri üçün idi. Kunninqun sarayının arxasında müxtəlif saatların sərgisi yerləşir.

Ququn kompazisiya etibarı ilə harmonik və təkmilliklə planlaşdırılmış gözəlliyi ilə insanı heyran edən orta əsrlər saray memarlıq kompleksidir. Ağacdan inşa edilmiş kompleks Çin milli memarlığının möhtəşəm nümunəsidir. Burada müxtəlif həcmli və formalı binalar, qapılar, keçidlər, çoxmərtəbəli damlar bacarıqla birləşdirilməklə harmoniya təşkil edir. Əsasən tünd qırmızı və qızılı-sarı rənglərlə işlənmiş damlar, rəngli ornamentlərlə işlənmiş arkalar, sütunlar, üzəri al-əlvan güllərlə örtülmüş süni göl və gölməçələr kompleksin əlvanlığını təmin edir, göz oxşayır.

Tsyantsiqun, Tszyaotaydyan, Kunninqun sarayları həcminə görə üç xarici saraydan əhəmiyyətli dərəcədə kiçikdir. Əlbəttə Ququn sarayının çoxsaylı pavilyonları gəzmək, onlar haqqında məlumat almaq üçün böyük vaxt imkanına malik olmaq lazımdır. Hər pavilyon haqqında məlumatları da yazıya daxil etməyə lüzum bilmirik. Bir məsələ reallıqdır ki, Ququn sarayını ziyarət edərkən sanki başqa bir aləmdə olursan. Memarlıq və incəsənət abidələri insanı keçmişə, uzaq Çinin qədim mədəniyyətinin yarandığı dövrə aparır, Çinin əzəməti və mədəniyyəti insanı heyran edir. İmkan daxilində bu mədəni sərvətlərə baxmaq, onlar haqqında məlumat almaq və reallıqları qiymətləndirmək faydalı hesab olunmalıdır.

Çinlilər hər şeydə harmoniyaya üstünlük verdiklərinə görə Ququn sarayında saysız-hesabsız çoxlu pavilyonlar və köşklər həmahəng yerləşdirilməklə harmoniya təşkil edir.

Rəvayətə görə Imperator Çju Di on min otağı olan saray inşa etməyi planlaşdırmışdır. İmperator bu qərarı qəbul etdikdən sonra beşinci günün gecəsi Kainatın Nefrit hökmdarı onun yuxusuna girir. Nifrit hökmdarı qəzəbli halda imperatora bildirir ki, 10 min otağı olan saray tikdirməklə imperator onun ilahi nüfuzuna toxunur. Çünki allahların özlərinin sarayında cəmi on min otaq vardır. Səhərisi gün yuxudan oyanan kimi imperator vəziyyəti öz ətrafdakıları ilə müzakirə edir və sarayda pavilyon və köşklərin sayının 9999 olmasına qərar verir. Beləliklə həm Səmanın həm də imperatorun nüfuzunun toxunulmazlığı təmin olunur.

Ququn – ağac memarlıq abidəsidir. Onun bir çox pavilyon və məbədləri yanğın nəticəsində dağılmış və onları yenidən tikmişdilər, ümumilikdə isə saray öz ilkin şəklini saxlamışdır. Sarayda tez-tez yanğınlar olduğuna görə sarayın həyətində müxtəlif yerlərdə tuncdan hazırlanmış 40 ədəd iri çən yerləşdirilmişdir. Onlar həmişə su ilə dolu vəziyyətdə saxlanılırdı. Hətta qışda çənlərin altında od qalayırdılar ki, çənlərdəki su donmasın. Hazırda Ququnda 9000-dən artıq tikili vardır və saray haqlı olaraq, ən gözəl qədim memarlıq abidələrindən biri olmaqla, həm də dünyada ən iri yaxşı saxlanılmış saray ansamblı hesab edilir.

Sarayın tikintisinə ağac və daş üzərində oyma, rəssamlıq və digər sənətlə məşğul olan yüz min usta və milyonlarla inşaatçı və fəhlə cəlb edilmişdir. Tikinti materialları ölkənin hər yerindən, hətta paytaxtdan bir neçə min kilometrlərlə uzaqda yerləşən Yunnan və Quandun əyalətlərindən gətirilirdi. Ağır daş və ağacların daşınması üçün bütün yol boyu quyu qazılırdı, qışda oradakı su ilə yolu sulayır və dondururdular. Yol buz bağlayaıb sürüşkən olduqda minlərlə xizəklə onun üzərindən sürüşdürmək yolu ilə paytaxta daş plitələr və nəhəng ağac və digər tikinti materialları gətirirdilər. Buna real misallardan biri Baoxedyan pavilyonun arxasında yerləşən nəhəg daş plətədir. Daş pilətənin üzərini drakonlar təsvir olunan barelyeflərlə örtülmüşdür. Bu daş plitə Min sülasənin hökmranlığı zamanı qurulmuş, Tsin imperiyası zamanında isə əvvəlki barelyeflər yeniləri ilə əvəz olunmuşdur. Təsvirdə hər birinin cəngində (ağzında) mirvaridən böyük şar olan 9 rəqs edən əjdaha əks olunmuşdur. Barelyefdə relyef kimi dəniz, dağlar və səma əks olunmuşdur. İnsanı valeh edən daş üzərində oyma sənətinin inciləri ilə yanaşı, həm də daş plitənin nəhəngliyidir. Mütəxəssislərin hesablamalarına görə işlənməmişdən əvvəl daş plitənin ağırlığı 300 tondan artıq olmuşdur. Bu cür nəhəng daşın Qapalı şəhərə necə gətirilməsi də maraq doğurur. "Min sülaləsinin tarixi"nə müvafiq olaraq bu daş plitə Pekinin qərbində Fanşan daş karxanasından əldə olunmuşdur. Daşın şəhərə gətirilməsi üçün minlərlə fəhlə və əsgər səfərbər olunmuş, qışda yolun səthinin buzla örtülməsi və daşın onun üzəri ilə sürüşdürülməsi üsulundan istifadə olunmuşdur. Yazılanlara görə daş 28 günə 20 min adam və min atın köməkliyi ilə şəhərə gətirilmişdir. Daşın şəhərə nə vaxt gətirilməsi barədə dəqiq məlumat olmasa da, nəhəgliyi ona dəlalət edir ki, o sarayın ilk tikinti materiallarına aiddir və saray tikintisi başa çatmamış ora gətirilib. Əks halda nəhəng daşı saray qapılarından içəri salmaq mümkün olmazdı.

Ququnun memarlıq konstruksiyası, ölçüləri, onun harmonik planlaşdırılması, əzəməti və mükəmməlliyi - yüksək imperator hakimiyyətinin təzahürü idi. Saray orta əsrlər Çininin çox böyük incəsənət və sənətkarlıq əsərləri toplumudur.

Ququn sarayında Şan (e.ə. XVI-XI əsrlər) və Çjou (e.ə. XI əsr-771-ci ilr) sülalələri dövründən Tsin (1644- 1911-ci illə) dinastiyasınadək milyona yaxın mədəniyyət abidəsi qorunur. Ququnun kolleksiyasına əlvan keramikanın ən qədim nümunələri, nefrit məmulatları, gümüş məmulatlar, imperator Tsin Şixuan dövrü əsgər və atlarının qəbirüstü heykəlləri, xəttatlıq, əlyazma əsərləri, bambuk, ağac, fil sümüyü üzərində oymalar, həmçinin çini qablar, naxış tikmə, dəftərxana ləvazimatları və digər tətbiqi sənət məmulatları daxildir. Onlardan 10 minə qədəri dövlət əhəmiyyətlidir. Bu zərif kolleksiyalar qədim Çin incəsənətinə dərin heyranlıq doğurur. *Hazırda Ququn şəhəri muzey kimi istifadədir. Muzeydə mozaik şəkillər, peyzajlar, Qədim Çin* Operasından *900 süjet mövcuddur.*

*Ququn sarayının zəhgin xəzinəsi təcavüzə də məruz qalmışdır.* 1937-ci ildə şəhər yaponlar tərəfindən qarət edildi. Yapon müharibəsi zamanı təcavüzkarlar tərəfindən ələ keçməsinin qarşısını almaq üçün Ququn abidələrinin böyük qismi cənuba köçürüldü. 600 min eksponat Tayvan adasına aparıldı, hazırda onlar Taybey muzeyində sərgiyə qoyulub.

Ququn sarayı YUNESKO-nun Ümumdünya Mədəni irs siyahısına daxil edilmişdir.

**17 sentyabr 2017-ci il**

**8.Böyük Çin səddinin Mutianyu sahəsi, yaxud tarixin möhtəşəm izləri ilə zirvəyə qalxarkən gördüklərim və düşündüklərim**

Təqdim olinmuş proqramdan məlum idi ki, 17 sentyabr 2017-ci il tarixdə səhər saat 9-da biz Pekin şəhərində yerləşən Milli Hakimlər Akademiyasını tərk edib avtobusla Huairou rayonuna Böyük Çin səddinin həmin rayonun Mutianyu sahəsinə gedəcək, Səddə qalxandan sonra isə Milli Hakimlər Akademiyasının həmin rayondakı mərkəzinə yerləşəcək, sonrakı günlərdə həmin Mərkəzdə kursu davam etdirəcəyik.

Səhər çamadanlarımızı avtobusa yığanda Çin səddinə baxmaqda həvəsli olduğumuz qədər, kifayət qıədər yaxşı şəraitə malik olan Milli Hakimlər Akademiyasını tərk etməkdən bir o qədər razı deyildik. İki saata kimi avtobusda davam edən yolçuluğumuz müxtəlif mövzularda söhbət, avtobusun pəncərəsindən yol kənarındakı Çin torpaqlarını, binaları və təbiət mənzələrinui seyr etməklə keçdi.Avtobusla iki saatlıq yolçuluğun sonunda biz yaşıl dağların əhatəsində yerləşən Mutianyu kəndinə, Böyük Çin Səddinin başlandığı dağın yamacında avtobusdan endik.

Böyük Çin səddi ölkənin ən böyük və ən möhtəşəm sənət abidəsi olmaqla Çinin simvolu kimi qəbul edilir. Onun zirvəsinə qalxmağı qarşıma məqsəd qoyub yuxarıya döğru irəlilədikcə düşünürdüm:

Böyük Çin səddi qədim tarixdən insanlara yadigar qalmış möhtəşəm daş abidədir. Hər pilləsinə qədəm qoyub yuxarı qalxdıqca insan gücünə, onun qüdrəti və əzmkarlığına heyranlığın artır. Bəşər tarixi uzun illər ərzində yadelli insanların qarşısını almaq üçün Çin səddi kimi möhtəşəm divarların tikintisindən başlayıb, sərhədsiz cəmiyyətdə yaşamaq (Avropa İttifaqı) dövrünə kimi gəlib çatsa da, tarix yenə geriyə - hündür və keçilməz divarların tikintinə tərəf boylanır. Amerika Birləşmiş Ştatları ilə Meksika arasında divarın tikintisi müzakirə mövzusuna çevrilib. Görəsən, Cin səddinin zirvəsindən boylananda hansı yolun doğru olduğunu tapmaq olarmı?...

Çinlilər Böyük Çin səddini Vanli Çançen adlandırırlar. Sarı dənizin Lyodun körfəzinin sahillərindən başlayıb, Çinin şimal sərhədləri boyunca şərqdən qərbə doğru uzanan və Qobi səhralarından keçən səddin ümumi uzunluğu barədə müxtəli rəqəmlərə istinad olunur. Bu rəqəm 4250 kilometrdən başlayaraq 21196 kilometrə qədər dəyişir. Sonuncu hesablamalara görə Çin səddinin uzunluğunun 21 min 196 kilometr olduğu müəyyənləşmişdir. Ölçməni 2007-ci ildən başlayaraq Mədəni İrs üzrə Dövlət Administrasiyası aparmış və 2012-ci ildə yekunlaşdırmışdır.

Böyük Çin səddi ilk dəfə e.ə. 221-ci ildə birinci Tsin imperatoru Çin Şi-Xuandi tərəfindən cəmi on ilə tikilmişdir. Sonralar bu müdafiə xəttinin tikintisi yüz illərlə davam etdirilərək, on min li uzadılmışdır (bir li təqribən 576 metrdir).

Çin imperatorluğunun əsasını qoyan və Çini ən güclü dövlət kimi formalaşdıran imperator Çin Şi-Xuandi bu nəhəng divarı öz dövlətini şimalda yaşayan köçəri xalqların (o zaman Çinin şimalında qədim

türklər yaşayırdılar) qəfil hücumlarından qorumaq üçün çəkdirmişdi. Həmin səddin bir tarixi əhəmiyyəti də ondan ibarət idi ki, o, dağınıq və tayfa halında yaşayan Çin xalqının milli birliyinin əsasını qoymuşdur və bu dağınıq xalqlar, əl-ələ verərək dünyanın ən uzun və ən nəhəng daş divarını tikmişdilər.

Səddin tikintisi ayrı-ayrı hissələrə bölünmüşdü və hər hissəni vahid plan əsasında bir tayfanın, qəbilənin əhalisi tikirdi. İmperator Çin-Şi-Xuandi tikintiyə ümumi rəhbərliyi qoşun böyüyü Men-Tyana tapşırmışdı. Men-Tyan isə tikintini vaxtında, yəni on il müddətinə tikib başa çatdırmaq üçün 350 min əsgəri və yüz minlərlə mülki adamı işə cəlb etmişdi.

İmperator istəyirdi ki, onun tikdirdiyi nəhəng daş divarı heç bir qüvvə yıxa və ondan aşa bilməsin. Səddin birinci hissəsinin uzunluğu 2450 kilometr olmalı idi. Uca dağlardan, dərin dərələrdən, susuz səhralardan keçən bu tikinti çox çətin şəraitdə aparılırdı. Tikintiyə inşaat materialları əllə daşınırdı, buna yüz minlərlə insan əməyi sərf edilirdi.

Men-Tyan əvvəlcə səddin hər 100 metrliyində ucaldılan gözətçi qüllələrinin tikintisindən başladı. Bu cür qüllələrin sayı isə 25 mindən çox idi. Hər birinin hündürlüyü 12 metrə çatan qüllələr tamamlandıqdan sonra, qüllələrin arasında hündürlüyü 7,5 metrə, bəzi yerlərdə isə 10 metrə çatan və qalınlığı 5,5-6,5 metr olan daş divarlar tikilirdi.

Səddin bayır tərəfi yad torpaqlar adlanırdı. Buna baxmayaraq, ölkənin mühafizəsini yaxşı təşkil etmək naminə həmin yad torpaqlarda da 15 mindən çox gözətçi qüllələri tikilmişdi. Qüllədəki gözətçilər gündüzlər tüstü ilə, gecələr isə tonqal qalamaqla düşmənin gəldiyini xəbər verirdilər. Xəbərdarlıq siqnalı qüllədən qülləyə ötürülməklə vahid əlaqə zənciri yaradırdı.

2450 kilometrlik səddin tikintisi cəmi on ilə - e.ə. 230-cu ildə başa çatdırıldı. Bu şərəfə imperator Çin-Şi-Xuandi Men-Tyanı böyük mükafatlarla təltif etdi. Amma imperator bilmədi ki, bu nəhəng səddi tikib qurtarana qədər qarda, şaxtada, səhralarda aclıqdan, susuzluqdan, soyuqdan və ağır əməkdən ildə 400 mindən çox işçi həlak olmuşdu. Məhz buna görə də həmin dövrdən Çində belə bir xalq misalı yaranıb. "Hər kərpicin sayı qədər insan udan bu divarlar dünyanın ən uzun qəbiristanlığıdır". Bu deyimdə böyük həqiqət vardı. Çünki ölən adamlar Men-Tyanın əmri ilə qala divarlarına hörülürdü.

Başqa bir əfsanəyə görə toylarından dərhal sonra Men Tszyannyuyunun əri səddin tikintisinə cəlb edilir. Üç il keçməsinə baxmayaraq, o, geri dönmür. Hicrana dözməyən Men Tszyannyuyu əri ilə görüşmək üçün uzun yol qət edərək səddin Şanxayquan sahəsinə gəlir. Ərinin işin ağırlığından ölüb səddin altında basdırıldığını eşidəndə, o, uzun müddət nalə çəkib ağlayır. Men Tszyannyuyunun fəryadına dözməyib səddin onun ərinin meyidi basdırılmış sahəsi uçur və meyid üzə çıxır. Bu kimi xalq rəvayətləri Böyük Çin səddinin nə qədər ağır zəhmət və qurbanlar bahasına başa gəldiyini insanlara çatdırmaq üçün Çin səddi ilə birlikdə yaşayır.

Çin səddi düşmənlər tərəfindən dəfələrlə hücuma məruz qalıb. Daha sonralar divarın yenidən tikilməsi və bərkidilməsi çox güc və vaxt tələb edirdi. Divarın tikilişindəki sonuncu vacib mərhələ Min sülaləsindən olan imperatorların hakimiyyəti illərinə təsadüfi edirdi.

Min sülalə imperatorluğu dövründə (XV-XVI əsrlər) Böyük Çin səddi yenidən bərpa edilərək bir daha Çin xalqını vahid məqsəd - Çin dövlətini yadellilərdən qorumaq uğrunda birləşdirdi. Elə o dövrdən də Böyük Çin səddi öz müasir görkəmini qoruyub saxlamışdır.

İstehkamın ən yaxşı saxlanılan hissələri Pekindən təxminən 65 km məsafədə olan Badalin kəndi yaxınlığında və 90 km məsafədə olan Mutianyu kəndi yaxınlığında olan hissələridir.

Çinlilər üçün Böyük Çin səddi ölkənin böyüklüyü, möhtəşəmliliyi və təhlükəsizliyinin sübutudur. Dünya üçün isə Böyük Çin səddi tarixin yadigarı, insan gücünün, ixtirasının və dözümlülüyünün abidəsidir.

1961-ci ildə Çin hökuməti Böyük Çin səddini tarixi abidə kimi dövlət mühafizəsinə götürmüş, 1987–ci ildən etibarən isə sədd YUNESKO tərəfindən mühafizə altındadır

Böyük Çin səddinin Mutianyu sahəsi

Böyük Çin səddinin Mutianyu sahəsi Şimali Tsi sülaləsinin hökmranlığı dövründə (550-557) inşa edilmişdir. Sonralar Min sülaləsinin hökmranlığı dövründə (1368-1644) divar yenidən tikilərək Pekin şəhərinə strateji cəhətdən əhəmiyyətli olan keçidinin müdafiəsi gücləndirilmişdir. Çin səddinin Mutianyu sahəsi ilə birləşən bütün ərazi demək olar ki, meşə ilə örtülmüşdür. Dağın ətəyindəki şabalıd ağaclarının yaratdığı mənzərə Qax rayonun Qum kəndinin meşələrini xatırladır. Böyük Çin səddinin Mutianyu sahəsinin yaşı 1500 ili keçir. Hazırda divarın 1568-ci ildəki görünüşü bərpa olunmuşdur.

Böyük Çin səddinin heç bir sahəsində bərpa işləri Mutianyu sahədəki qədər dəqiq və keyfiyyətli aparılmamışdır. 22 gözətçi qülləsi olan bu sahə özünün əvvəlki görünüşünü saxlamaqla əsil memarlıq incisidir. Mutianyu söz birləşməsi Çin dilindən tərcümədə “çöllərə (sahələrə) görüntüsü olan vadi” kimi tərcümə olunur. Divarın bütün sahələri arasında Mutianyu sahəsi ən uzun bərpa olunmuş sahədir. Başqa heç bir sahə bu sahə kimi Böyük Çin səddinin əzəmətini nümayiş etdirə bilmir. Digər üstünıükləri ilə yanaşı bu sahə əsrarəngiz gözəlliyə malik dağ mənzərəsi, piyada gəzintisi üçün əlverişli şəraiti ilə də fərqlənir.

Mutianyu sahəsi qranit plitələrdən tikilmişdir. Onun uzunluğu 2250 metr, hündürlüyü 7-8 metr, eni 4-5 metrdir. Divarların hər kilometrində gözətçi qülləsi, hər iki – şimal və cənub tərəfdən düşmənin hücumunu dəf etmək üçün sipər (parapet) və oyuqlarla (ambrazura) təchiz olunmuşdur. Ambrazuralar ənənvi olaraq dairəvi formada deyil, arka formasında yerinə yetirilmişdir. Divarın gözətçi qüllələri hər bir km-də tikilmiş, şərqdən qərbə doğru 1-dən 22-yə kimi nömrələnmişdir. Çin səddinin Mutianyu sahısi gözətçi qüllələrinin yerləşməsinə görə ən sıx sahədir. Divar Mutianyu kəndindən 500 metr hündürlükdə dağ silsiləsində tikilməyə başlanmışdır. Bütün divar boyu gəzinti təxminənn 3 saat davam edir. 5 nömrəli gözətçi qülləsindən 19 nömrəli qülləyə kimi divarın pillələri çox da enişli-yoxuşlu deyildir. 10 saylı göz ətçi qülləsindən divarın hər iki tərəfində olduqca mənzərəli görüntü vardır və divarın uzanmasını tam seyr etmək olur. 19-cü qüllədən sonra 20 saylı qülləyə kimi olduqca sərt yoxuş vardır. Bu yoxuşu qalxdıqdan sonra divarın zirvəsinə çatmış olursan. 20 nömrəli qüllədən baxanda artıq divarın başqa sahəsinə aid olan gözətçi qülləsi görünür. 20 nömrəli qüllədən irəliyə gedişi qadağan edən elan yerləşdirilmiş, qüllənin irəliyə açılan qapısı bağlanmışdır. Belə ki, 20 saylı qüllədən sonrakı ərazi bərpa olunmamış və əsrlər ərzində baş vermiş dağıntının izlərini üzərində daşıyır

Dağın Çin səddi başlanan hissəsinə həm piyada, həm funklyorla qalxmaq olar. Oradan enmək üçün həm funkulyordan, həm də almanların inşa etdiyi atraksiondan istifadə etmək mümkündür. Atraksion 1580 metr uzunluğunda polad novdan ibarətdir, Çin səddinin başlanğıcından dağın ətəyinə kimi uzanır. Bir nəfərlik arabalarla polad novun içindən sürüşərək aşağıya enmək Çin səddini seyr etməklə aldığın zövqə bir əlavə rəng qatır.

*(Ardı var)*

*BEYNƏLXALQ ƏLAQƏLƏR*

## Dünya Bankının yeni rəhbərliyi Ali Məhkəmənin sədri ilə görüşmüşdür.

2017-ci il oktyabrın 31-də ölkəmizdə səfərdə olan Dünya Bankının Ədliyyə Xidmətləri və Müasir Məhkəmə İnfrastrukturu Layihəsi üzrə icraya dəstək missiyasının yeni tapşırıq qrupunun rəhbəri xanım Eva Melis və layihənin yeni tapşırıq qrupunun həmrəhbəri Valid Maliki Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Qonaqlar Ali Məhkəmənin inzibati binası və iş şəraiti ilə tanış olmuş, müasir informasiya texnologiyalarının tətbiqi ilə maraqlanmışlar.

